

Tbilisi-2017

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin elmi şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს
მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით
და რეკომენდაციით

Kitabın orijinal adı: Peygamberimizin Akrabaları
HANIM SAHÂBÎLER

Müəllif: Mustafa ERİŞ

Anadolu türkcəsindən Azərbaycan türkcəsinə
uyğunlaşdıran: Kövkəbxanım MƏMMƏDLİ

Nəşrə hazırlayan: Hacı BƏKİROĞLU

Dizayn: Elsevər ƏHMƏDOV

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო
მადლობას უხდის საქართველოს ახალგაზრდობის
დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის
გამოცემის ნებართვისათვის

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.

#23, Esma Oniani st, Tbilisi, Georgia
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E_mail: info.amag77@gmail.com

მუჰამედის ნათესავები

# ქალი საჰაბეები

1

PEYĞƏMBƏRİMİZİN QOHUMLARI

# XANIM SƏHABƏLƏR

# 1

**Mustafa Eriş**

მუსტაფა ერიშ

*"Allah din yolunda sizinlə*
*vuruşmayan və sizi yurdunuzdan*
*çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla*
*ədalətlə rəftar etməyi sizə qadağan etməz.*
*Allah ədalətli olanları sevər!"*
(əl-Mumtəhinə / 8)

*"... Ey Məhəmmədin qızı Fatma!*
*Ey Əbdülmuttalibin qızı Safiyyə!*
*Özünü cəhənnəm atəşindən qoru.*
*Mən sizə Allahdan gələcək*
*bir əzaba mane ola bilmərəm.*
*Amma mənim malımdan arzu etdiyinizi istəyin."*

# Ön Söz

Allah-Təalaya həmd-səna, Rəsuli-Əkrəmə ﷺ, ailə və əshabına saysız salət və salam olsun.

İlk müsəlmanlar Rəsulullahın ﷺ ətrafında toplanan və bir-birinə sıx bağlı olan nümunəvi bir nəsil olmuşlar. Söz və davranışlarıyla davranışlarıyla bəşəriyyətə işıq saçan bir nəsil... əl-Fətih surəsi 29-cu ayədə vəsflərindən bəhs edilən: **Kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətli"** bir nəsil... **"Allah onlardan razı, onlar da Allahdan razı"** (əl-Bəyyinə: 8) ayəsinin hikmətini anlamış bir nəsil... **"Allah yolunda möhkəm divar kimi səf çəkib döyüşənlər"** (əs-Saff, 4) bir nəsil...

İstər qadın olsun, istər kişi, istər yaşlı olsun, istərsə də cavan əzablara dözməyi bacaran, əziyyətlərə səbir edən, imanında sabit, hər cür çətinliyə sinə gərən bir nəsil... Bu nəsil *"əshab"* adlandırılmış və həyatları ulduzlara bənzədilmişdir.

Bu nəsil Allah və Rəsulundan başqa heç bir

güc qarşısında boyun əyməmişdir. Hər biri bir iman fədaisi olaraq mallarından və canlarından keçmiş, cənnəti satın almış, sədaqət, sevgi və mərhəmət abidəsi, bəxtiyar və qəhrəman bir nəsildir.

Onlar, İslamı mənbəyindən öyrənən və Peyğəmbər tərbiyəsilə yetişən təbliğ və cihad insanlarıdır. Xoşbəxt yuvalar qurub, firavan həyat yaşayan igidlərdir. Allah-Təalanın adının ucalması üçün müharibə meydanlarına getməkdən çəkinməyən, şəhidlik həsrətilə yanan qorxusuz qəhrəmanlardır.

Onların həyat hekayələri biz möminlərin qəlblərinə səadət toxumları səpir. İslamın gözəlliklərini yeni dövrlərə çatdırmağa səbəb olan həyəcan işartısı olur. Hansının həyatını oxusaq onların ibrət dolu, vaz keçilməz həyat ölçüləri qəlblərimizi fərəh və xoşbəxtlik hissləriilə doldurur.

“Xanım Səhabələr” adıyla nəşr edilən bu kitabda əziz Peyğəmbərimizin yaxın qohumları olan süd anasının bibisi, süd bibisi, əmisi qızı, əmisinin xanımı, baldızları, dayəsi və digər xanım səhabələrin həyatlarına dair məlumatlarla qarşılaşacaqsınız. Onların iman uğrunda mübarizələrindən, xoşbəxt ailələrindən, müharibə meydanlarındakı qəhrəmanlıqlarından ibarət ibrət lövhələrini oxuyacaqsınız.

Uca Rəbbimizdən onların mənəvi aləmindən pay ala bilməyi və bu əsərin faydalı olmasını diləyirik.

Çalışmaq bizdən, yardım Aləmlərin Rəbbindəndir.

Əskiklik bizdən, tamlıq O uca Rəbbimizdən,

Qüsur, nöqsan, acizlik bizdən, əfv və məğfirət Ondan!

**Mustafa ERİŞ**

Rəsulullahın Süd Anası

# Həzrət Həlimə

—————— radiyallahu anha

Həzrət Həlimə رضي الله عنها Rəsulullahın ﷺ Süveybə xatından sonrakı süd anasıdır.

Kainatın Sultanının uşaqlıq dövrünün yanında keçdiyi mülayim xasiyyətli, həlim bir xanım...

Adı gözəl, özü gözəl Məhəmmədə iki il süd verən, onun böyüyüb boya-başa çatmasında əməyi olan, onu təhlükələrə qarşı qoruyan və nur bədəninin inkişafı etməsi və sağlam olması üçün əlindən gələni əsirgəməyən, çırpınan bir ana!..

Səbirli, şəfqətli, mərhəmətli davranışlarıyla və sevgi dolu baxışlarıyla onu yedizdirib-içizdirən, yatızdıran, hər cür qayğı göstərən, dərin məhəbbətlə qucaqlayan, əməyini əsirgəməyən bir süd anası!..

O, Məkkə ətrafında yaşayan Həvazin qəbiləsinin Bəni Sad bin Bəkir qoluna mənsubdur. Atasının adı Əbi Zueyb əs-Sadidir. Eyni qəbilədən Haris bin Əbdüluzza ilə evlənmişdi. Bu evlilikdən Abdullah, Uneysə və Şeyma adında üç uşaqları

olmuşdu. Gələcəyin Peyğəmbəri, kainatın Sultanı Məhəmməd də onların süd qardaşı olmuşdu.

Bəni Sad qəbiləsi səhrada yaşayırdı. Təmiz, səfalı, suyu bol vahələri vardı. Ərəblərin içində öz dillərində ən düzgün və səlis danışan qəbilə onların qəbiləsi idi. Səxavətli olmaları ilə də məşhur idilər. Qureyş xalqı fəsahət və bəlağətə çox əhəmiyyət verirdi. Yeni doğulmuş körpələrini süd anaya verəndə də buna fikir verirdilər.

O dövrdə səhrada yaşayan bədəvi xanımlar gəlir mənbəyi olaraq süd analıq xidməti göstərirdilər. Hər il iki dəfə Məkkəyə gəlib yeni doğulmuş uşaqlardan götürüb aparırdılar. Xüsusilə varlı ailələrin uşaqlarına üstünlük verirdilər.

Həmin il qıtlıq baş vermişdi. Həlimə xatın da qucağında oğlu, yanında həyat yoldaşı Haris və digər xanımlarla yurdlarından çıxıb Məkkəyə gəldilər. Şəhərə əvvəlcədən girənlərin hər biri bir uşaq götürüb geri qayıdırdılar. Həlimə xatın bir az gecikmişdi. Yeni doğulmuş uşaqlardan yalnız bir yetim qalmışdı. Çarəsizlik içində şəhərdə gəzərkən qarşılarına Qureyşin böyüklərindən Əbdülmüttəlib çıxdı.

Allah-Təala bir yetim vasitəsilə onlara ilahi ehsan lütf edəcəkdi. Gələcəyin Peyğəmbərinə xidmət etmə şərəfini onlara verəcəkdi. Varlığın nuru Məhəmmədin süd anası olma səadətini nəsib edəcəkdi. Onlar da yetimliyinə fikir vermədən əlləri boş qayıtmamaq üçün, bu ay parçası balanı bağırlarına basıb evlərinə aparacaqdılar. Hələ yolda ikən xeyir və bərəkət əldə etdiklərini görəcəkdilər. O nur parçası balanı özlərilə götürdükdən sonra həyatlarında

böyük dəyişikliklər olduğunu gördülər. Ailəlikcə bərəkətə və ilahi lütfə nail oldular.

❁

Həlimə xatın həyatlarındakı bu dəyişikliyi belə nəql edir:

"Qıtlıq ili idi. Arıq, topal bir uzunqulağımız və yaşlı bir dəvəmiz vardı. Bəni Sad qəbiləsinin qadınları olaraq həyat yoldaşlarımızla birlikdə Məkkəyə doğru yola çıxdıq. Yoldaşlarımızın heyvanları sürətli hərəkət edirdi. Onlara çata bilmirdik. Biz arxada qaldıq. Gec də olsa nəhayət Məkkəyə çatdıq.

Yoldaşlarımızın hamısı süd əmizdirəcəkləri uşaqları tapmış, sevinc içində evlərinə qayıdırdılar. Məndən başqa heç kim əliboş qalmamışdı. Çarəsizlik içində axtarışa başlamışdıq.

Həmin vaxt Qureyşin böyüyü Əbdülmüttəlib ilə qarşılaşdıq. O da fikirli halda Məkkə küçələrini dolaşaraq nəvəsi üçün süd anası axtarırmış.

Bizimlə gələn qadınlar "yetimdir, pulu da yoxdur. Anasıyla babası bizə nə verə biləcək?" deyib o varlıq nuruna heç kim süd analığı etmək istəməmişdi. Mən də əliboş qayıtmaq istəmirdim. Əbdülmüttəlib məni görəndə:

- Sən kimsən, haralısan? – deyə soruşdu.

Mən də:

- Adım Həlimədir, Sad qəbiləsindənəm, - dedim.

Bu cavabdan sonra Əbdülmüttəlib gülümsəyərək belə dedi.

- Nə yaxşı! Nə yaxşı! Sad (uğurlu və mübarək

olmaq), həlim (səbrli, təmkinli və mülayim olmaq) iki gözəl xislətdir ki, dünyanın xeyri də, axirətin izzət və şərəfi də bunlara bağlıdır.

Sonra sözünə davam edərək dedi:

- Ey Həlimə! Mənim yanımda yetim bir uşaq var. Gəl, ona sən süd ver. Bəlkə buna görə xoşbəxtlik və səadət taparsan.

Mən də: - Mənə bir az icazə ver, həyat yoldaşımla məsləhətləşim, - dedim. Və dərhal yoldaşımın yanına getdim. Vəziyyəti ona danışdım. Vallah, o yetimi götürəcəyəm, dedim. O da:

- Eybi yoxdur, götür. Bəlkə ona görə Allah bizə xeyir və bərəkət verər, - dedi.

Bu sözdən sonra mən dərhal baba Əbdülmüttəlibin yanına gedib uşağı götürmək istədiyimi dedim. Məndən bir xəbər gözləyən baba buna çox sevindi və məni uşağın anası Əminə xatının yanına apardı. Evə çatanda Əminə mənə “Xoş gəldin, səfa gətirdin!” deyib yer göstərdi.

Bir az istirahət etdikdən sonra uşağın olduğu otağa keçdik. Ay parçası körpə yaşıl bir parça üstündə mışıl-mışıl yatırdı. Üzü o qədər gözəl idi ki, baxmaqdan doymurdum. Hər uşaq gözəl olar. Ancaq bu ay parçası körpə çox fərqli idi. Onun nur üzünə məftun olmuşdum. Ətrafına gözəl ətir yayırdı. Onu oyatmağa da qıymadım. Əlimlə sinəsini oxşayarkən par-par parlayan gözlərini açdı və mənə gülümsədi. Mən də onu alnından öpüb qucağıma götürdüm. O ay parçası körpəni bağrıma basıb yoldaşım Harisin yanına getdim.”

Həlimə xatın xatirələrini danışmağa davam edərək belə nəql edir:

“Hz. Əminə mənə “Oğluma yaxşı bax!” dedi. Hamiləlik və doğum əsnasında gördüklərini danışdı. Yuxusunda üç dəfə “oğluna Bəni Sad bin Bəkir bin Əbu Zueyb içində süd verəcəksən” işarəsinin verildiyini dedi.

Mən o varlıq nuru körpəyə süd vermək istəyəndə döşlərim südlə doldu. Sol tərəfdən əsla süd içməyən nur Məhəmmədə daim sağ tərəfdən, süd qardaşı Abdullaha da sol tərəfdən süd verdim. Hər ikisi də doyunca içib yatdılar. Buna çox sevindim. Əvvəl südüm az idi. Öz oğluma belə çatmır, uşaq acından ağlayırdı. İndi hər ikisi də kifayət qədər içir və doyurdu.

Yoldaşım Haris də yorulub əldən düşmüşdü. Aclığını yatırtmaq üçün yaşlı dəvəmizdən bir az süd sağmaq istədi. Yanına gələndə məmələrinin südlə dolu olduğunu gördü. Bir qaba sağıb gətirdi və ikimiz də ondan doyunca içdik. Gecəni rahat keçirdik. Səhər açılanda yoldaşım mənə dedi:

- Vallah, Həlimə! Bil ki, sən mübarək və uğurlu bir uşaq götürmüsən.

Mən də:

- Vallah, mən də belə olacağını ümid edirdim, - dedim.

Sonra uşağı qucağıma alıb uzunqulağa mindim və yola qoyulduq.

Heyvanlarımız sürətli hərəkət edirdi. Sirər vadisinə gələndə yoldaşlarımıza çatdıq. Mənim arıq ulağım elə sürətli gedirdi ki, hamısını ötüb keçdik.

Heç biri ona çata bilmədi. Yol yoldaşlarımızın hamısı təəccüb içində idi.

“Əbu Zueybin qızı, bizi niyə gözləmirsən?! Yoxsa bu ulaq gəldiyin həmin ulaq deyil?!” – deyirdilər.

Mən də:

“Vallah, həmin ulaqdır,” – deyirdim. Buna təəccüblənən yoldaşlar heyvanlarının sürətli getməsini istəyirdilər. Ancaq heç cür çata bilmirdilər. Nəhayət Bəni Sad yurduna çatdıq.

O il Sad oğulları yurdunda quraqlıq olmuşdu. Heyvanlar səhər-səhər otlamağa ac gedir, axşam da eyni halda qayıdırdılar. Qarınlarını doyurmaq üçün çəmənlik tapa bilmirdilər. Olduqca cılızlaşmışdılar. Ancaq bizim qoyunlarımız, necə olurdusa, qarınları tox, məmələri də südlə dolu gəlirdilər. Bu hal qəbilə camaatının diqqətini cəlb etmişdi. Onlar da öz çobanlarını danlayaraq:

“Ayıb olsun sizə! Əbu Zueybin qızının çobanı harada otarırsa, siz də orada otarın!..” – deyirdilər.

Uca Allah o yetim körpə nur Məhəmmədə görə bizə bol bərəkət vermişdi. Bu hala şükür edərək günlərimiz keçirdi. O nur körpə gündən günə böyüyür, boy atırdı. Onun böyüməsi digər uşaqlar kimi deyildi. Hələ altı aylıq ikən gəzməyə, yeddinci ayda danışmağa, doqquz və onuncu ayda səlis şəkildə məramını deməyə, deyilənləri başa düşməyə və ox atmağa başlamışdı. İki yaşı olanda artıq böyük və boy-buxunlu uşaq olmuşdu. Onu süddən kəsdim.”

Həlimə xatın onlara xeyir-bərəkət gətirmiş bu uşağı bir müddət də yanında saxlamaq istəyirdi. Ancaq bunu necə edəcəkdi?

Varlıq nuru Məhəmmədi anası Əminə xatının yanına aparmaq üçün Məkkəyə doğru yola çıxdılar. Yolda xristian bir qrupa rast gəldilər. Onlar Həlimə xatından hara getdiklərini soruşdular. Qucağındakı uşağa heyrətlə baxırdılar. Hətta kürəyini çevirib iki kürək sümüyünün ortasına belə baxdılar. Təəccüblərini gizlətməyən bu adamlar, gözlərinin içinə qədər diqqətli bir şəkildə uşağı süzdülər.

“Gözlərindən bir şikayəti, xəstəliyi varmı?” – deyə soruşdular. Həlimə xatın: “Xeyr!” – dedi. Xristianlar:

- Biz bu xəbəri kralımıza çatdıracağıq. Biz bunun nə məsələ olduğunu bilirik, - dedilər.

Onların əlindən güclə canını qurtaran Həlimə xatın Məkkəyə gəldi.

O vaxt şəhərdə vəba xəstəliyi yayılmışdı. Bu fürsətdən istifadə etməyi düşündü. Özü, ailəsi və şəhəri üçün mərhəmət və bərəkətə vəsilə olan bu ay parçası körəni bir müddət də yanında saxlamaq istədi. Varlıq nuru Məhəmmədin qayğısına qalmağı özü üçün şərəf bildi. Anası Əminə xatına:

“Oğlumun böyüyənə qədər yanımda qalmağına icazə versən yaxşı olar. Mən onun vəba xəstəliyinə tutulmasından ehtiyat edirəm,” – dedi. Əminə xatın da bu təklifi qəbul etdi və belə dedi:

“Oğlumla birlikdə evinə qayıt! Mən də onun vəbaya tutulmasından qorxuram. Vallah, onun şanı uca olacaq.”

Gələcəyin peyğəmbəri Fəxri-Kainat ﷺ dörd yaşlarına qədər Həlimə anamızın yanında böyüdü.

Süd qardaşlarıyla bir yerdə yedilər, içdilər, oynadılar. Süd qardaşları onu çox sevirdi. Ondan heç ayrılmaz, bir yerdə oynayardılar.

Bir gün evlərinin arxasında quzuları otaranda ağ geyimli iki adam içi qar dolu, qızıldan bir tasla gəldi və varlıq nuru Məhəmmədin sinəsini yarıb ürəyini açdılar. Oradan qan laxtasına oxşar bir şeyi çıxarıb atdılar. Süd qardaşı Abdullah bunu görəndə çox qorxdu. Həyəcanla, dərhal qaçıb ata-anasının yanına gəldi. “Qureyşli qardaşım öldürüldü,” – deyə fəryad etdi.

Həlimə xatın və yoldaşı dərhal qaçaraq uşaqlarının yanına gəldilər. Nur Məhəmmədi rəngi ağarmış, qorxmuş halda gördülər. “Nə oldu, balacan?” – deyə soruşdular. O da dörd yaşında olmasına baxmayaraq olub-keçəni bir-bir danışdı.

“Ağ geyimli iki adam gəldi və məni yerə uzatdılar. Sinəmi yardılar və oradan bilmədiyim bir şey çıxarıb atdılar. Ürəyimi, qarnımı o qarla yaxşıca yuyub təmizlədilər,” – dedi.

Bu hadisədən sonra Haris, xanımına: “Həlimə, mən bu uşağın başına bir şey gəlməsindən qorxuram! Onu aparıb ailəsinə təhvil verək,” – dedi.

❀

Həlimə xatın süd övladı varlıq nuru Məhəmmədi Əminə xatına təhvil vermək üçün Məkkəyə gəldi. Kiçik yaşda olmağına baxmayaraq Nur Məhəmməd güclü və çevik uşaq idi. Dörd-beş yaşlarında güclü bir yeniyetməyə bənzəyirdi. Şəhərə girdikdə qələbəlik içində itdi.

Əziz nəvəsi nur Məhəmmədi axtarmaq üçün

babası Əbdülmüttəlib və Qureyş qəbiləsinin atlıları səfərbər oldular. Məkkənin hər tərəfində axtardılar, lakin tapa bilmədilər. Baba Əbdülmüttəlib bu hadisəyə çox kədərləndi. Son çarə kimi Kəbəyə gəlib təvaf etdikdən sonra Uca Allaha belə yalvardı:

“Ya Rəbb! Bütün qövmümün səfərbər olmasına baxmayaraq əziz nəvəm tapılmadı. Səndən kömək diləyirəm!”

O anda naməlum bir yerdən səs gəldi və:

“Məhəmmədin Rəbbi vardır. Onu köməksiz və biçarə qoymaz,” – dedi.

Əbdülmüttəlib yenidən dua etdi və onun harada olduğunu göstərməsi üçün Allaha yalvardı. Bu anda yenə gizli bir səs eşidildi:

“O, Tihamə vadisində bir ağacın altındadır!”

Süvariləriylə bir yerdə o tərəfə doğru Əbdülmüttəlib varlıq nuru Məhəmmədi bir ağacın budaqlarını dartıb yarpaqlarıyla oynayan gördü. Uzaqdan soruşdu:

- Balaca, sən kimsən?

O da:

- Mən Məhəmməd bin Abdullah bin Əbdülmüttəlibəm, - cavabını verdi.

Babası yaxınlaşdı və:

- Canım sənə fəda olsun, balam. Mən sənin baban Əbdülmüttəlibəm, - deyib əziz nəvəsi Məhəmmədi qucaqlayaraq öpdü. Bağrına basdı və dərhal heyvanına mindirib Məkkəyə gətirdi.

Kəbəni yeddi dəfə təvaf etdirib onu hər cür təh-

lükə və pisliklərdən qoruması üçün Allaha dua etdi. Sonra anası Əminə xatının yanına apardı.

Qurani-Kərimdə əz-Zuha surəsinin yeddinci ayəsinin bu hadisəyə işarə etdiyi rəvayət edilir. Məal olaraq: **"Səni şaşqın (uşaq vaxtı Məkkə vadisində azmış) vəziyyətdə tapıb yol göstərmədimi?"** - buyrulmuşdur.

❀

Həlimə xatın əmanət aldığı süd övladı varlıq nuru Məhəmmədi sağ-salamat anasına təhvil verdiyi üçün mənən rahat idi. Əslində birinci dəfə gətirəndə onu yanında saxlaması üçün təkid etmişdi. Buna görə Əminə xatın:

"Onu niyə gətirdin?" – deyə soruşdu. Həlimə xatın da:

"Allah oğlumu böyütdü. Düzünü desəm başına bir şey gəlməyindən qorxdum. Ona görə istədim ki, ən tez vaxtda onu gətirim," – dedi.

Əminə xatın yenidən soruşdu:

"Yoxsa sən qorxdun ki, şeytan ona ürcah olar?"

O da "Bəli!.." cavabını verdikdə Əminə xatın dedi:

"Xeyr! Vallah, şeytan ona yol tapa bilməz. Əsla ona ürcah ola bilməz. Oğlumun şanı uca olacaqdır. Mən sənə onun haqqında danışım." Və belə davam etdi:

"Mən ona hamilə olanda çox xariquladə hadisələr yaşadım. Şam torpaqlarında Busranın köşkləri aydınladılıb mənə göstərildi. O dünyaya gələndə səcdəyə qapanıb qalmışdı. Onun dünyaya gəlişi digər uşaqlarkı kimi olmamışdır. Sən indi onu qoyub evinə qayıda bilərsən."

Əminə xatın süd ana Həliməni bu şəkildə təsəlli etmiş oldu.

Aradan illər keçmişdi. Varlıq nuru Məhəmmədin anası Əminə xatın və babası Əbdülmüttəlib vəfat etmişdi. Özü də Məkkənin ən əsilzadə və varlı xanımı Hz. Xədicə ilə evlənmişdi. İlk vəhylə şərəfləndirilmiş və son peyğəmbər olaraq göndərilmişdi. Allah-Təala onu özünə elçi seçmişdi. Cəbrayıl vasitəsilə onu dəstəkləyəcəkdi.

İslamın ilk günləriydi. Həlimə xatın Məkkəyə gəlmişdi. İki cahan Günəşi Peyğəmbərimiz Hz. Həliməni “Anacan!” deyə çağırar, ona öz dərin sevgisini göstərər, böyük hörmət bəsləyər, qulluğunda durardı. Çiynindəki şərfini və ya əynindəki əbasını çıxarıb yerə sərər və süd anasını onun üstündə oturdardı. Bir istəyi olanda dərhal yerinə yetirərdi.

Bir dəfə onu evlərində gözəl bir şəkildə qonaq etdi. Hal-əhval tutub xidmət etdi. Qıtlıqdan və heyvanlarının tələf olmasından bəhs etdikdə Hz. Xədicə anamız Peyğəmbərimizin süd anasına 40 qoyun, bir dəvə hədiyyə etdi. Bir çox digər hədiyyələrlə də dəvəsinə mindirib yola saldı.

Sonrakı illərdə müsəlman olma şərəfinə nail olan Hz. Həlimə رضي الله عنها Mədineyi-Münəvvərədə vəfat etdi. Cənnəti Baqiə qəbristanlığında dəfn edildi.

Haqq-Təaladan tez-tez qəbrini ziyarət edib, “Əs-səlamu əleykə Ya Həlimeyi-Sadiyyə! Ya marzatən-Nəbi!” deyə salam verə bilməyi və şəfaətinə nail olmağı niyaz edirik. Amin...

Rəsulullahın bibisi

# Həzrət Safiyyə

radiyallahu anha

Həzrət Safiyyə رضي الله عنها Rəsululahın ﷺ əziz bibisidir.

Hz. Həmzənin رضي الله عنه bacısı... Zübeyr bin Avvamın رضي الله عنه anası... İlk müsəlmanlardan...

Cəsarət və şücaət sahibi bir xanım səhabə... Əlində qılıncı müharibədə iştirak edən ilk İslam qadını...

O, Əbdülmüttəlibin qızıdır. Anası Halə binti Vəhbdir.

Safiyyə binti Əbdülmüttəlib cahiliyyə dövründə Haris bin Hərb ilə evləndi. Bir oğlu oldu. Haris öldükdən sonra Hz. Xədicə anamızın qardaşı Avvam bin Hüveylidlə ailə həyatı qurdu. Bu evlilikdən üç oğlu oldu. Zübeyr, Saib və Əbdülqadə.

Həzrət Safiyyə qardaşı oğlu Məhəmmədi çox sevirdi. Kiçik yaşlarından etibarən ana şəfqətilə onun qayğısına qaldı. Ona anasızlığını hiss etdirməmək üçün əlindən gələn fədakarlığı etdi. Onun gələcəkdə cəmiyyətdə mühüm işlər görəcəyini düşünür və səbrsizliklə böyüməsini gözləyirdi.

Məkkədə dost və ya düşmən olmağına baxmayaraq hamı Məhəmmədi sevir və heç tərəddüdsüz ona etibar edirdi. Qureyşlilər tərəfindən ona “Məhəmmədül-Əmin” ləqəbi verilmişdi.

❀

Aradan illər keçdi. Əziz qardaşı oğluna peyğəmbərlik vəzifəsi verildi. Allah Rəsulu Hz. Məhəmməd Mustafa ﷺ insanları İslama dəvət etməyə başladı.

Allah-Təaladan aldığı əmr və qadağaları böyük bir şövqlə, yorulmadan, bezmədən, bütün səyləriylə müsəlmanlara bildirməyə çalışdı. Vəhy gələndə necə davranması lazım olduğu da ona öyrədilirdi. Təbliğdə də izləyəcəyi yol bu ayə ilə bildirildi. Məal olaraq:

**“Və ən yaxın qohumlarını qorxut! Sənə tabe olan möminləri qanadın altına al!”** (əş-Şuəra, 214-215)

Bu ayənin nazil olmasından sonra əziz Peyğəmbərimiz ilk olaraq qohumlarını ətrafına yığdı. Onlara belə xitab etdi:

“Ey Qureyş camaatı! Özünüzü oddan xilas edin.

Ey Haşimoğulları! Ey Əbdülmüttəlib oğulları! Özünüzü oddan xilas edin.

Ey Məhəmmədin qızı Fatimə! Ey Əbdülmüttəlibin qızı Safiyyə! Özünü oddan xilas et.

Mən sizə Allahdan gələcək bir zərərin qabağını ala bilmərəm. Amma mənim malımdan dilədiyinizi istəyin.”

❀

Hz. Safiyyə ilə oğlu Zübeyr İslamla şərəfləndilər. İmana gəlməkdə heç tərəddüd etmədilər. Əziz Peyğəmbərimizə böyük dəstək verdilər. İslamın yayılması üçün canla-başla çalışdılar.

Hz. Safiyyə, qardaşı Əbu Ləhəbin müsəlman olması üçün çox cəhd göstərdi. Ancaq nə etmək olar? Əmi ilə qardaş oğlu üz-üzə gəldilər. Nə qədər təəccüblü olsa da, azğın müşrik əmi əziz qardaşı oğluna düşmən olanların başında durdu. Müsəlmanlara işgəncə etdi. Rəsulullaha ﷺ inancını təbliğ etmək və yaşamaqda mane olmaq istədi. Təhqir edərək, əzab verərək işi zorakılığa gətirib çıxartdı. Keçəcəyi yollara tikanlar qoydurtdu. Doğma qardaşı oğluna boyun əyə bilmədi. İmandan məhrum oldu. Daim haqq və həqiqətə qarşı çıxdı. Nurlu yolu tərk edib çirkli yolları seçdi.

Hz. Safiyyə رضي الله عنها qardaşı oğlunu həmişə müşrik qardaşına qarşı qorumağa çalışırdı. Bir gün Əbu Ləhəbin əziz qardaşı oğlunu təhqir edib qəlbini qırdığını eşitdi. Dərhal onun yanına getdi. Qohumluq, əmilik qürurunu oxşayaraq:

“Əbu Ləhəb!.. Qardaşın oğlunu və onun dinini köməksiz qoymaq heç sənə yaraşır? Məgər əhli-kitab alimləri Əbdülmüttəlibin nəslindən bir peyğəmbər çıxacağını bildirmirdilər? Bax, o peyğəmbər qardaşımız oğlu Məhəmməddir,” – dedi.

Hz. Safiyyə bu sözlərilə Əbu Ləhəbdə qohumluq hisslərini oyadaraq onu İslama gətirmək istədi. Ancaq qismət məsələsi var. Müşrik qardaşının gözünü kin və qəzəb bürümüşdü. Bacısının bu sözlərinin cavabında:

"Onsuz da qadınların sözləri kişilərə həmişə əngəl olub," – deyərək onunla alçaldıcı tərzdə danışdı. Tərsliyindən, təkəbbüründən imana gələ bilmədi. Hamının sevimlisi qardaşı oğlunu sevə bilmədi. Üstəlik onun əleyhdarlarından oldu.

Əbu Ləhəbə söz deməyin, haqq və həqiqəti qəbul etdirməyin mümkün olmadığını görən Hz. Safiyyə qəmgin halda oradan ayrıldı.

Hz. Safiyyə qardaşını Rəsulullaha ﷺ kömək etməyə inandıra bilmədi. Lakin oğlu Zübeyr bin Avvamı onun bir fədaisi olacaq şəkildə böyütməyə xüsusi diqqət göstərdi.

O nizam-intizamlı bir ana idi. Uşağının tərbiyəsilə ciddi məşğul olurdu. Hər fürsətdə övladına sevgisini, şəfqətini hiss etdirirdi. Ancaq onun bir səhv hərəkətindən dəyişər, qaşlarını çatardı. Belə davranması övladının tərbiyəli böyüməsi və gözəl əxlaqa sahib olması üçün idi.

Onun səhv işlər görməsini istəməzdi. Səhvini dərhal düzəltməsi üçün uşağına etdiyi hərəkətin çirkinliyini başa salardı. Başa düşmək istəməsə qulağını burar və ehmalca vurardı. Çünki tərbiyə nizam-intizam, həssaslıq və ciddiyyət tələb edir. Əziz peyğəmbərimizin bibisi Zübeyri bu xüsusiyyətlərə sahib olaraq yetişdirmək üçün əlindən gələni etdi.

Həqiqətən də Zübeyr gənc yaşda İslamın qəhrəman bir fədaisi oldu. Fəxri-Kainat Peyğəmbərimizin ﷺ: "Hər peyğəmbərin ardıcılı, köməkçisi

vardır. Mənim də ardıcılım Zübeyrdir," iltifatını qazandı. Sağlığında cənnətlə müjdələndi.

Əziz peyğəmbərimizin bibisi Hz. Safiyyə رضي الله عنها övladının gözəl əxlaqla böyüməsi üçün göstərdiyi həssaslıq və səylərinin nəticəsini Zübeyrin "aşereyi-mübəşşərə"yə (cənnətlə müjdələnmiş on nəfər) daxil edilməsində gördü. O, sağlığında cənnətlə müjdələnən on səhabədən birinin anası olmuşdu. Bu şərəf və səadətə nail olmaq nə böyük xoşbəxtlikdir.

Hz. Safiyyə رضي الله عنها Allah və Rəsulu yolunda heç bir fədakarlıqdan çəkinmədi. Canıyla, malıyla İslamın yayılması üçün çalışdı. Məkkədə müşriklərin zülmü artdığı vaxt oğlu Zübeyr ilə birlikdə Mədinəyə hicrət etdi. Əziz qardaşı oğlu Rəsuli-Əkrəmi ﷺ orada da tək qoymadı.

❁

O, cəsur və qorxusuz bir İslam xanımıydı. Böyük şücaət və mətanət sahibi idi. Xanım səhabələr arasında müharibədə iştirak edən ilk İslam qadını idi.

O, müşrik bir kişini öldürən ilk müsəlman xanım olaraq tarixə keçmişdir. Bu hadisə belə olmuşdu:

İki Cahan Günəşi Peyğəmbərimiz Uhud müharibəsinə hazırlaşanda ailəsini və qohumu olan qadınları, qızları və uşaqları bir yerə yığıb Mədinədəki köşklərin ən möhkəmi və ən hündürdə olanı Hassan bin Sabitin evinə yerləşdirdi. Xəstə və yaşlı olduğu üçün də Hassanı müharibəyə aparmayıb evdə saxlamışdı.

Uhud müharibəsinin qızışdığı bir vaxtda yəhu-

dilərdən biri müsəlman qadınların olduğu evə yaxınlaşdı. Müdafiəsiz insanları öldürmək istədi. Bunu başa düşən Hz. Safiyyə ﵂ dərhal Hassanı vəziyyətdən xəbərdar etdi. “Bu yəhudinin yanına gedib onu uzaqlaşdır!” – dedi. Hassan həm yaşlı, həm də xəstə idi. Buna görə belə dedi:

“Ey Əbdülmüttəlibin qızı, Allah səni qorusun. Mən onun yanına gedəcək qədər güclü olsaydım, Rəsuli-Əkrəmlə ﷺ Uhuda gedər və müşriklərə qarşı vuruşardım”.

Bu sözdən sonra işin ona qaldığını başa düşən Hz. Safiyyə ﵂ bir çadır dirəyini götürüb aşağı düşdü. Düşmənin qaçmaması üçün qapını yavaşca araladı. Onu görməyinə macal vermədən ani bir hücumla əlindəki dirəyi başına vurdu. Yəhudi başına dəyən zərbədən özünə gələ bilmədi və elə oradaca öldü.

❁

Hz. Safiyyə ﵂ beləliklə böyük bir təhlükənin qarşısını almış oldu. Sonra evin damına çıxdı və hərb meydanında baş verənləri izləməyə başladı. Müsəlmanların zəiflədiyini gördü. Hətta məğlubiyyət xəbərləri gəlməyə başladı. Ürəyi sızladı. Müşriklərin əziz qardaşı oğluna xətər yetirmələrindən qorxdu. Axırda dözməyib əlinə bir qılınc götürdü və bir neçə qadınla Uhuda yola düşdü.

Qarşılaşdığı ilk mücahiddən Rəsulullahın ﷺ səhhətini xəbər aldı. Sağ olduğunu, ancaq qardaşı Həmzənin şəhid edildiyini öyrəndi. Bir əlində qılınc, o biri əlində nizə ilə düşməndən intiqam almaq

üçün müharibə meydanına doğru qaçmağa başladı. Şəhid qardaşının cəsədini görmək istəyirdi.

Rəsuli-Əkrəm ﷺ əziz bibisinin əlində qılınc və nizəylə gəldiyini gördükdə oğlu Zübeyrə:

"Ananı geri qaytar. Qardaşı Həmzənin cəsədini görməsin," – buyurdu. Zübeyr رضي الله عنه anasının yanına qaçdı və:

"Ana, anacan!.. Rəsulullah ﷺ geri qayıtmağını istəyir," – dedi. Ancaq Hz. Safiyyə رضي الله عنها heç olmasa qardaşının cəsədini görmək istəyirdi. Böyük bir təslimiyyət və səbir içində oğluna:

"Əgər qardaşımın başına gələnləri görməyim deyə geri qayıdacağamsa, mən onun kəsilib parçalandığını artıq bilirəm. Bu fəlakət qardaşımın başına Allah yolunda gəlib. Bundan daha böyük bir məqam varmı? Biz Allah yolunda bundan daha artığına məruz qalmağa razıyıq. İnşaallah, səbir edəcək və savabını Allahdan gözləyəcəyəm," – dedi.

Hz. Zübeyr رضي الله عنه anasının təkidini və dediklərini İki Cahan Günəşinə xəbər verdi. Əziz bibisinin mətanətinə və səmimiyyətinə inanan Peyğəmbərimiz: "Elə isə icazə verin görsün," – buyurdu.

Hz. Safiyyə رضي الله عنها əlində qılınc və nizəylə dəhşət saçan baxışlarla Rəsuli-Əkrəmi gördükdə:

"Ya Rəsulallah! Anamın oğlu Həmzə haradadır?" – deyə soruşdu. Peyğəmbərimiz də:

"O, şəhidlər arasındadır," – buyurdu.

Bibisinin gözlərinin intiqam hissilə dolduğunu görən Peyğəmbərimiz ağlını itirməməsi və ona bir xələl gəlməməsi üçün dua etdi.

Hz. Safiyyə رضي الله عنها Rəsuli-Əkrəmin duasıyla bir az sakitləşdi. Qardaşı Həmzənin cəsədi üstünə gəldi. Əzaları kəsilmiş, parçalanmış vücudunun yanında oturdu.

Dəhşətverici bu qəddarca hadisə qarşısında ağlamağa başladı. Göz yaşlarını sakitcə ürəyinə axıtdı. Böyük səbir və təvəkkül içində, mətanətlə Bəqərə surəsinin 156-cı ayəsi olan "İnnə lilləhi və innə ileyhi raciun = Biz Allahın bəndələriyik və Ona qayıdacağıq." ayəsini oxuyaraq özünü təsəlli etməyə çalışdı.

O, qədərə boyun əyərək sakitlik tapdı. Qədərə razı olub təslimiyyət göstərdi. Şəhidlər arasından səbir və hüzn abidəsi, canlı nümunəsi kimi ayrıldı.

İki Cahan Günəşi Peyğəmbərimiz əziz bibisinin göstərdiyi səbir və mətanətə çox sevindi. Ona bu müjdəni verdi.

"Cəbrayıl عليه السلام yanıma gəldi. Mələklər qatında Həmzənin "Allahın və Rəsulunun aslanıdır," deyə yazıldığını xəbər verdi."

Fəxri-Kainat صلى الله عليه وسلم Peyğəmbərimizin zarafat etməkdən xoşu gəlirdi. Belə ki, o, zarafatın həyatdakı dərdləri xəfiflətdiyini düşünürdü. İnsanın əsəblərini sakitləşdirən bir davranış olduğu fikrindəydi. Bir gün yaşlı bibisi Hz. Safiyyə رضي الله عنها ilə:

"Bibi, yaşlı adam cənnətə girə bilməz," – deyə zarafat etdi.

Əziz bibisi az qala ağlayacaqdı. Necə ola bi-

lərdi? Yaşlılıq heç kimin özündən asılı deyildi axı. Hər yaşlılıq çağına gələn adam cənnətdən məhrum olacaqdı? Dərin kədər içində fikrə getdi. Mərhəmət və şəfqət peyğəmbəri bibisinin kədərləndiyini gördükdə təbəssüm etməyə başladı. Sonra bu ayəni oxudu. Məal olaraq:

**“Şübhəsiz ki, Biz onları (huriləri) başqa cür (yeni bir yaradılışda, doğulmadan) yaradacağıq! Onları bakirə qızlar, ərlərini sevən, həmyaşıdlar edəcəyik.”** (əl-Vaqiə surəsi, 35-37)

Hz. Safiyyənin رضي الله عنها ayələri eşidəndən sonra üzü güldü. Cənnət həyatında qocalığın olmayacağını başa düşdü. Rəsuli-Əkrəmin ﷺ bu həqiqəti zarafat şəklində söyləməsinin hikmətini anladı. Əhval-ruhiyyəsi yaxşılaşdı. Sevinc dolu gözləri işıldadı. (Böyük İslam Tarixi C. 1. s. 439 Çağ Yayınları)

Hz. Safiyyə رضي الله عنها mətanəti və qəhrəmanlığı ilə yanaşı şairliyi ilə də tanınmışdı. O, qorxusuz bir ürəyə sahib olduğu qədər, incə ruhlu və şeir söyləmə qabiliyyəti olan bir İslam xanımı idi. Rəsuli-Əkrəmin ﷺ vəfatıyla əlaqədar söylədiyi mərsiyəsi məşhurdur.

O, əziz qardaşı oğlu Allah Rəsulu Hz. Məhəmməd Mustafa ﷺ əbədiyyət aləminə köçəndə qəlbindən coşub gələn hisslərini belə dilə gətirmişdi:

*“Ey Allahın Rəsulu, sən bizim ümid mənbəyimizdin,*
*Sən bizə daim yaxşılıq etdin, cəfa edən olmadın,*
*Sən qoruyan, yol göstərən və öyrədən olmuşdun*

*Allahın Rəsuluna anam, xalam və əmim*
*Dayım, sonra da öz canım fədadır.*
*Əgər insanların Rəbbi səni bizimlə qoysaydı*
*Şad olardıq. Ancaq Allahın əmri yerinə yetməlidir.*

*Allahın salamı üzərinə olsun, ya Rəsulallah!*
*Səndən razı olaraq Adn Cənnətlərinə qoysun.”*

Hz. Safiyyə رضي الله عنها əziz Peyğəmbərimizin vəfatından sonra on il daha yaşadı. Hz. Ömərin رضي الله عنه xəlifəliyi dövründə hicri 20-ci, miladi 640-cı ildə 73 yaşında dünyasını dəyişdi. Mədinədə Baqi qəbristanlığında dəfn edildi.

Haqq-Təaladan o əziz bibimizin şəfaətinə nail olmağı diləyirik. Amin...

Rəsulullahın Süd Bibisi

# Bibi Sultan

— radiyallahu anha

Ümmü Haram binti Milhan رضي الله عنها Rəsulullahın ﷺ süd bibisidir...

İlk dəniz səfərinə qatılan, şəhidlik həsrətilə yanan bir xanım səhabədir.

Kiprin mənəvi gözətçisi... “Bibi Sultan” adıyla məşhur, şücaət sahibi qəhrəman bir İslam qadını...

O, Bisətdən əvvəl Mədinədə anadan olmuşdu. Həzrəc qəbiləsinin Bəni Nəccar qoluna mənsubdur. Atası Milhan bin Xalid, anası Müleykə binti Malikdir. Əsl adı bilinmir. “Ümmü Haram” ləqəbilə məşhurdur. Ənəs bin Malikin رضي الله عنه xalasıdır. Haram bin Milhanın رضي الله عنه da bacısıdır.

O, Mədinənin ilk müsəlman xanımlarından idi. İslamdan əvvəl Amr bin Qeyslə evləndi. Qeys və Abdullah adında iki oğlu oldu.

İslam günəşi Mədinəyə yayılmağa başlayanda həyat yoldaşının da müsəlman olmasını istədi. Hər

yolla yoldaşını İslama dəvət etdi. Ancaq yoldaşı bu dəvəti rədd etdi. Müsəlman olmağı qəbul etmədi. Çarəsiz qalan Ümmü Haram رضي الله عنها müşrik yoldaşından ayrılmağa məcbur oldu. Həyatını bir müşriklə davam etdirmək istəmədi.

O, iffətiylə, qüruruyla inancını daha canlı yaşamaq istədi. Bir müddət sonra Ənsarın öndə gələnlərindən məşhur səhabə Ubadə bin Samitlə رضي الله عنه evləndi.

İki Cahan Günəşi Peyğəmbərimiz vaxtaşırı süd bibisi olan Ümmü Haramın رضي الله عنها evinə baş çəkərdi. Bəzən günorta istirahətini (qaylulə) orada edərdi.

Bir gün Rəsuli-Əkrəm ﷺ onun evində bir az söhbət etdikdən sonra yuxuya getdi. Bir müddət sonra gülümsəyərək yuxudan oyandı. Peyğəmbərimizin üzündə təbəssümlə oyandığına təəccüb edən Ümmü Haram رضي الله عنها:

“Ya Rəsulallah! Atam-anam sənə fəda olsun. Niyə gülürsünüz?” – deyə soruşdu. Peyğəmbərimiz də:

“Ey Ümmü Haram! Ümmətimdən bəzilərinin gəmilərə minib kafirlərlə müharibəyə getdiyini gördüm,” – buyurdu. İrəlidə olacaq dəniz müharibələrinə işarət etdi.

Ümmü Haram رضي الله عنها şəhadət həsrətilə yanırdı. Bu gözəl xəbəri eşidəndə həyəcanlandı. O səfərə qatılanlar arasında olmağı arzuladı və:

“Ya Rəsulallah! Mənim də onlardan biri olmağım üçün dua edərsinizmi?” – deyə xahiş etdi.

İki Cahan Günəşi Peyğəmbərimiz də onun istəyinə: “Ya Rəbb! Bunu da onlardan biri et,” deyə dua edərək cavab verdi. Sonra yenidən istirahət etmək üçün sağ tərəfi üstə uzandı.

Çox keçmədən Peyğəmbərimiz yenə təbəssüm edərək oyandı. Ümmü Haram رضي الله عنها yenə gülümsəməsinin səbəbini soruşdu. Peyğəmbərimiz:

“Bu dəfə də ümmətimdən bəzilərinin padşahların taxtlarında oturduqları kimi dəbdəbəli şəkildə döyüşə getdiklərini gördüm,” – dedi.

Ümmü Haram رضي الله عنها yenidən dua etməsini xahiş etdi. Onların arasında olma arzusunu dilə gətirdi. Rəsulullah ﷺ ona: “Sən əvvəlkilər arasındasan,” buyurdu. Beləliklə, onun dəniz səfərində olacağını xəbər vermiş oldu.

Vaxt tez keçirdi. İki Cahan Günəşi dünyadan ayrılmış, əbədiyyət aləminə köçmüşdü. Ümmü Haramın رضي الله عنها yoldaşı Ubadə bin Samit رضي الله عنه Humusa təbliğ vəzifəsi üçün göndərilmişdi. Bir yerdə Humusa getdilər. Orada uzun müddət İslamın yayılması üçün çalışdılar.

Hz. Osmanın رضي الله عنه xəlifəliyi dövründə bir donanma hazırlandı. Bununla Kipr adasını fəth etmək üçün yola çıxdılar. Bu, müsəlmanların ilk dəniz səfəri idi.

Ubadə bin Samit رضي الله عنه ilə xanımı Ümmü Haram رضي الله عنها da bu səfərə qatılmışdılar. 86 yaşında olan Ümmü Haram رضي الله عنها bütün çətinliklərə sinə gərir, sıxıntılara dözürdü. Olduqca sakit idi. Səfərdəki məşəqqətlərə

görə şikayət etmirdi. Onun qəlbi İslamı təbliğ etmək həyəcanıyla doluydu. Kiprdəki insanlara İslamı çatdırma sevinci içində səfərinə səbir və mətanətlə davam edirdi.

O, Rəsulullahın ﷺ verdiyi müjdəni xatırlayaraq canlı, fəal və yüksək əhval-ruhiyyədə olmağa çalışırdı. Şəhadət həsrətilə yanır, onun baş verəcəyi yeri və vaxtı, o uca məqama qovuşacağı anı gözləyirdi.

Haqq-Təalanın şəhidlərə hazırladığı nemətləri düşünür, onlara qovuşmanın sevinciylə çəkdiyi əziyyətlərə məhəl qoymurdu. Yaşlı xanımın bu nəşəsi başqa əsgərlərə də nümunə olurdu. Onların səbirlərinin artmasına vəsilə olurdu.

Uzun və yorucu səfərdən sonra donanma Kiprə çatdı. Əvvəlcə oradakı insanları müsəlman olmağa dəvət etdilər. Qəbul etməyəndə cizyə vermələrini təklif etdilər. Rumlar bununla da razı olmayanda şiddətli döyüş başladı.

Qısa vaxtda rum donanması məğlub edildi. İslam ordusu tək həmlədə müharibəyə quruda davam etməyə başladılar. Bundan artıq dirənə bilməyən rumlar cizyə verməyə razı olub sülh təklif etdilər.

❀

Ümmü Haram رضي الله عنها yaşlı olmağına baxmayaraq yerində dayana bilmirdi. Həsrətini çəkdiyi şəhidlik mərtəbəsinə yüksəlmək üçün misilsiz çeviklik, canlılıq və səy göstərirdi. Tez bir vaxtda nəticə əldə etmək istəyirdi. Cavan əsgərlər onun bu halına təəccüb edir və ona baxaraq özləri də səylərini artırırdılar.

O qəhrəman, yaşlı mücahid Bibi Sultan əsgərlərlə bir yerdə Kiprin içinə doğru irəlilədi. Larnakaya yaxın bir yerdə mindiyi atın ayaqlarının sürüşməsilə yıxıldı və elə orada vəfat etdi. Beləliklə çox istədiyi şəhadət mərtəbəsinə qovuşmuş oldu.

Kipr Hicrətin 28-ci ilində fəth edildi. Ümmü Haram رضي الله عنها da bu fəthin bir simvolu oldu. Larnaka şəhərinin Duz gölü yaxınlığındakı qəbrinə 1570-ci ildə bir türbə tikildi. Əsrlərdir “Bibi Sultan” adıyla oradan feyz və bərəkət yaymaqdadır.

“Bibi Sultan Türbəsi” İstanbuldakı “Eyyub Sultan Türbəsi” kimi Kiprdəki İslam varlığının ən qədim izlərini yaşadır.

İki Cahan Günəşi Peyğəmbərimizə yaxınlığı səbəbilə müsəlmanlar onun türbəsinə hər zaman hörmət etmişlər. Xüsusilə Osmanlı əcdadımız Kipr tərəfdən keçən gəmilərə belə salam verdirmişdir. Birinci Dünya Müharibəsinə qədər Bibi Sultan Türbəsinin yaxınlığından keçən Osmanlı gəmiləri tərəfindən top atışı ilə salam verildiyi rəvayət edilir.

Kiprli türklər üçün “Bibi Sultan Qəbri və Türbəsi” vacib ziyarətgahlardan biri olmuşdur.

Haqq-Təala şəfaətinə nail etsin. Amin...

Rəsulullahın baldızı

# Əsma binti Əbu Bəkr

radiyallahu anha

Əsma binti Əbu Bəkr رضي الله عنها Rəsulullahın ﷺ baldızıdır. Hz. Aişə anamızla atabir bacıdırlar.

Hicrət vaxtı ağlı, bacarığı və iş qabiliyyəti ilə məşhur olmuş bir xanım səhabə... “Zatunnitaqeyn” ləqəbi ilə tanınmış, dünyada ikən cənnət qurşağı geyə bilmə müjdəsinə nail olmuş bir bəxtiyar...

İlk müsəlmanlardan... Hz. Əbu Bəkrin رضي الله عنه böyük qızı... Əliaçıq, ürəyigeniş, səxavətli bir İslam xanımı...

O, hicrətdən iyirmi yeddi il əvvəl 595-ci ildə Məkkədə anadan olmuşdu. Atası Hz. Əbu Bəkirdir رضي الله عنه. Anası cahiliyyə qaranlığında qalan Kuteylədir. Atası vasitəsilə İslamla şərəflənən Əsmanın adı ilk on səkkiz müsəlmanın adıyla bir yerdə çəkilir.

Hz. Əsma رضي الله عنها ata evində İslamın gözəllikləriylə böyüdü. Güclü imana sahib idi. Ədəbi, İslama xidməti və ağlı ömrü boyu ona rəhbər oldu. Ağıllı, qabiliyyətli və bacarıqlı idi.

O, hicrət vaxtı göstərdiyi ağıllı hərəkətiylə ta-

nındı. Bir gün Rəsuli-Əkrəmin ﷺ günorta istisində evlərinə gəldiyini gördü. Dərhal qapıya qaçdı və atasına: “Rəsulullah ﷺ gəlir!” – dedi.

Hz. Əbu Bəkr رضي الله عنه də: “Atam, anam ona fəda olsun. O, vacib bir məsələ olmasaydı bu vaxtda gəlməzdi,” – dedi və onu qarşılamağa çıxdı.

İçəri dəvət edi. Peyğəmbərimiz evə girdi və: “Yanındakılar bayıra çıxsa yaxşı olar!” – dedi.

Əbu Bəkr رضي الله عنه də: “Ya Rəsulallah! Onlar mənim qızlarımdır. Sirr saxlaya bilirlər. Burada yad adam yoxdur,” – dedi.

Bundan sonra Peyğəmbərimiz Allah-Təalanın hicrətə icazə verdiyini, bir yerdə Mədinəyə gedəcəklərini söylədi.

Hz. Əbu Bəkr رضي الله عنه peyğəmbərin onu özüylə aparacağını eşidib sevincdən göz yaşlarını saxlaya bilmədi. Dərhal hazırlığa başladı. Qızları Hz. Aişə ilə Hz. Əsma da ataları üçün yola azuqə hazırlamağa kömək etdilər.

Dəri bir torbaya azuqəni qoyub, bir tuluğa da su doldurdular. Azuqəylə dolu torbanı və su qabının ağızlarını bağlamaq üçün ip axtardılar, ancaq tapa bilmədilər.

Əsma رضي الله عنها atasının işarəsi ilə belindəki qurşağı çıxartdı və iki yerə böldü. Bir hissəsilə azuqə torbasını, digər hissəsilə də su tuluğunun ağzını bağladı.

İki Cahan Günəşi Peyğəmbərimiz, Əsmanın bu hərəkətini izləyirdi. Onun bu səmimi davranışından

çox razı qaldı və:

“Ey Əsma! Allah bu qurşağının əvəzində cənnətdə sənə iki qurşaq versin,” – deyə dua etdi.

Peyğəmbərimizin bu iltifatından sonra Əsma رضي الله عنها “zatunnitaqeyn = iki qurşaqlı” ləqəbini aldı.

O, hicrətdə həyatını heçə sayan bir fədakarlıq göstərdi. Müşriklər gecə yarı evdən ayrılan Rəsuli-Əkrəmlə atasını izləyirdilər.

Səhər dan yeri yenicə ağarmağa başlayanda Əbu Cəhil və köməkçilərindən ibarət bir qrup qureyşli Hz. Əbu Bəkrin qapısının önünə gəldi. Əsma رضي الله عنها bayıra çıxdı və müşriklərlə üz-üzə gəldi.

“Əbu Bəkrin qızı, atan haradadır?” – soruşdular.

Əsma da:

“Bilmirəm,” – deyə cavab verdikdə Əbu Cəhl kin, nifrət və qəzəbindən Əsmaya bərk şillə vurdu.

Əsmanın qulaqlarındakı sırğalar yerə düşdü. Ancaq o heç narahat olmadı. Bu yolda canını fəda etməyə hazır ididi. Lazım gəlsə öləcək, amma Rəsulullahla ﷺ atasının hara getdiklərini söyləməyəcəkdi.

Müşriklər ondan bir şey öyrənə bilməyəcəklərini başa düşdükdə vaxt itirməmək üçün oradan ayrıldılar.

Əsma رضي الله عنها üç gecə Sevr mağarasına yemək-içmək apardı.

Qardaşı Abdullah bin Əbu Bəkr gündüz qureyşlilər arasında gəzir, onlardan əldə etdiyi xəbərləri atasına çatdırırdı.

Amr bin Füheyrə ﵁ də sürülərini o iki möhtərəm insanın əhatəsində otarır, onlara süd verir, ehtiyaclarını ödəyir, izlərini itirməyə çalışırdı.

Əsma ﵂ fərasətli xanım idi. İnsanları idarə etməyi və işin gedişatına görə davranmağı bacarırdı. Hamıya başa düşəcəkləri şəkildə davranırdı. Ürəkləri ələ almağı bacarırdı. Əsla heç kimin qəlbini qırmazdı. Onun bu nəzakətli hərəkəti aşağıdakı hadisədə çox bariz görülür.

Babası Əbu Kuhafə hələ müsəlman olmamışdı. Buna görə o, oğlu Əbu Bəkrin ﵁ İslam uğrunda göstərdiyi fədakarlıqları heç cür başa düşmürdü. Hicrət edəndə bütün pulunu özüylə aparmağının ailə üzvlərinə sıxıntı verəcəyini düşünür, bunu özünə dərd edib deyinirdi.

Əsma ﵂ babasını bu sıxıntıdan qurtarmaq və onu təsəlli edə bilmək üçün çarələr düşünürdü. Onun bu işi daha çox böyütməməsi üçün bayırdan xırda daşlar yığıb atasının pulları gizlətdiyi yerə qoydu. Üstünü də bir bezlə örtdü. Sonra babasının qolundan tutaraq həmin yerə gətirdi və əlini daşların üstündə gəzdirdi. "Babacan! Atam bizə bunları qoydu," – dedi.

Gözləri görməyən babası: "Əgər sizə bunları qoyubsa, onda eybi yoxdur," – dedi. Bir də heç nə demədi. Əsma ﵂ beləliklə ixtiyar babasının ürəyini rahatlatmış oldu.

İki Cahan Günəşi Peyğəmbərimizlə Hz. Əbu

Bəkr Siddiq رضي الله عنه Mədineyi-Münəvvərəyə sağ-salamat çatdıqdan sonra Məkkəyə adam göndərdilər. Hər iki ailənin də geridə qalan üzvlərini Mədinəyə gətirtdilər.

Rəsuli-Əkrəm ﷺ hicrət yurdunda Əsma رضي الله عنها ilə, özünün ardıcılı adlandırdığı ən yaxın səhabəsi və bibisi oğlu Zübeyr bin Avvamın رضي الله عنه kəbinlərini kəsdi.

İkisi də bir-birinə yaraşırdı. İkisi də İslama könül vermişdi. Hz. Zübeyr həyatda ikən cənnətlə müjdələnmiş bir səhabəydi. Hz. Əsma da həyatda ikən "Cənnət qurşağı" geyə bilmə müjdəsinə nail olmuşdu.

Əsma رضي الله عنها hicrətdən sonra mühacirlərin Mədinədə dünyaya gələn ilk övladı Abdullah bin Zübeyrə ana oldu.

Bu ilk uşaq müsəlmanları çox sevindirdi. Çünki yəhudilər mühacirlərə cadu etdiklərini və bir daha uşaqlarınn olmayacağını, nəsillərinin kəsiləcəyini deyərək müsəlmanları narahat edirdilər. Abdullahın anadan olması bu şayiələrin düz olmadığını sübut etdi.

Bu evlilikdən Əsmanın رضي الله عنها beş oğlan, üç də qız uşağı oldu. Oğulları Abdullah, Urvə, Münzər, Asim və Mühacirdir. Qızları isə Xədicətül-Kübra, Ümmü Həsən və Aişədir.

❀

Əsmanın رضي الله عنها evliliyinin ilk vaxtları maddi sıxıntılarla keçdi. Ancaq evindən xoşbəxtlik əskik olmadı. Özü evliliyinin ilk illəri ilə bağlı bunları deyir:

“Zübeyr məni alanda nə pulu, nə də qulu vardı. Heç nəyi yox idi. Sadəcə bir atı, bir də tarlası var idi. Atına yem verər, qulluq edərdim. Ev və bağçadakı işləri görərdim. Xurma çəyirdəklərini üyüdər, yem düzəldərdim. Ehtiyaclarımızı ödəmək üçün əlimdən gələn hər işi edərdim. Uzaq yerlərdən su daşıyardım.

Bir gün Rəsulullahın ﷺ Zübeyrə hədiyyə etdiyi bağçadan yığdığım xurmaları başımın üstünə qoyub gətirirdim. Rəsuli-Əkrəm ﷺ də bir neçə əshabıyla birlikdə oradan keçirdi. Məni görəndə dəvəsini çökdürüb tərkinə minməyimi dedi. Utandığımdan dəvəyə minmək istəmədiyimi başa düşüb oradan ayrıldı. Axşam evdə bunu Zübeyrə danışdım və belə dedim:

“Başımın üstündə xurma daşıyanda Rəsulullahla qarşılaşdım. Yanında bəzi səhabələr var idi. Dəvəsini çökdürüb minməyimi istədi. Ancaq mən utandım və minmədim. Bir də sənin qısqanclığını xatırladım.”

Xanımının bu həssasiyyətindən məmnun olan Zübeyr رضي الله عنه onun könlünü almaq üçün belə dedi:

“Ey Əsma! Allaha and olsun ki, sənin başının üstündə xurma daşımağın mənə daha ağır gəlir.”

Zübeyr həssas bir ürəyə sahib idi. Xanımının çəkdiyi sıxıntılarla barışa bilmirdi. Ancaq həyat müştərək idi. Qədər onları bir yerdə yaşadırdı. Bir-birinə kömək etmək isə ən təbii davranışdır. Xoşbəxtlik də ancaq belə əldə edilər. Allah üçün olan sevgi hər sıxıntını yox edər.

O bir İslam xanımı olaraq qənaətcilliyi və təvazökarlığı ilə həyatın əzablarına səbir etməyi baca-

rırdı. Hərdən çətinliklərindən atasına danışırdı. Hz. Əbu Bəkr رضي الله عنه qızının çox yorulduğunu gördükdə ona bir xidmətçi göndərdi. Əsma رضي الله عنها buna çox sevindi və: “Atam xidmətçi göndərməklə sanki məni köləlikdən azadlığıma qovuşdurmuş kimi məmnun etdi,” – deyərək sevincini və minnətdarlıq hisslərini dilə gətirdi.

O, əliaçıq, könlü zəngin, səxavətli bir xanım idi. İki Cahan Günəşi Peyğəmbərimiz ona: “Ey Əsma! Əlini bağlama. Əks halda Allah da sənə olan ehsanını bağlayar,” – buyurdu.

Əsma رضي الله عنها bu peyğəmbər tövsiyəsini bütün ömrü boyu özünə həyat meyarı qəbul etdi. Əsla ehtiyacından artığını yanında saxlamadı. Hamısını kasıblara payladı. Özü sadə bir ömür sürdü. Uşaqlarına da səxavətli olmalarını tövsiyə edər və belə öyüd verərdi:

“Malınızı Allah yolunda xərcləyin. Sədəqə verin. Bir xeyri sonraya saxlamaqla heç nəyi artırmış olmazsınız. Sədəqə verməklə malınızın azalacağını zənn etməyin.”

Oğlu Abdullah anası Əsma ilə xalası Aişə رضي الله عنها qədər comərd kimsə görmədiyini deyir. Xalasının əlinə keçən şeyləri yığıb müəyyən miqdara çatdırdıqdan sonra payladığını, anasının isə əlinə keçəni sabaha saxlamadan verdiyini nəql edərdi.

Bir gün evdə, böyük ehtimalla verəcəyi sədəqəni sayarkən Fəxri-Kainat Peyğəmbərimiz ﷺ ziyarəti-

nə gəldi. Onu bu vəziyyətdə görüb: “Sayma, sonra Allah da sənə sayaraq verər” – buyurdu.

❁

Əsma ﷺ səbirdə də nümunəvi bir şəxsiyyətə sahib idi. Halından insanlara şikayət etməzdi. Xəstələnəndə “of, uf” etməzdi. Xəstəliyin Haqq-Təaladan gəldiyinə və günahlara kəffarət olduğuna inanardı. Onu dua etməyə vəsilə bilər, səbir və təvəkküllə qarşılayardı.

Bir dəfə başında şiddətli ağrı hiss etdi. Əlini başının üstünə qoydu və böyük bir təslimiyyət içində:

“Hərçənd başım çox ağrıyır, lakin Allahın bağışlamasını istədiyim günahlarım da çoxdur,” – deyə dua edib yalvardı.

O, dini bütöv, imani vəcdə sahib bir xanım idi. Allah və Rəsuluna çox bağlıydı. Onu narahat edən məsələlərdə dərhal Peyğəmbərimizə müraciət edərdi.

Bir gün anası Kuteylə ona baş çəkməyə gəldi. Cahiliyyə dövründə atasından boşanmış və hələ İslamı qəbul etməmişdi. İllər sonra quru üzüm, yağ və s. hədiyyələrlə Mədinəyə gəldi.

Əsma ﷺ anası müsəlman olmadığı üçün onu və hədiyyələrini qəbul etməkdə tərəddüd göstərdi. Vəziyyəti bacısı Hz. Aişəyə ﷺ bildirərək Rəsulullahdan ﷺ soruşmağını istədi. O da vəziyyəti Peyğəmbərimizə ərz elədi. İki Cahan Peyğəmbərimiz də belə buyurdu:

“Anasını da, hədiyyələri də qəbul etsin.”

Hz. Əsma dərhal deyiləni etdi və anasını içəri

dəvət etdi. Müşrik də olsa ona lazımi xidmət və hörməti göstərdi. Bu hadisədən sonra Allah-Təala aşağıdakı ayəni nazil etdirdi:

**“Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdlarınızdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz, Allah ədalətli olanları sevər!”** (əl-Mumtəhinə, 8)

❀

Əsma رضي الله عنها Fəxri-Kainatın ﷺ hüzurunda olub feyz alan sayılı səhabələrdəndir. Baldızı olduğu üçün tez-tez yanında olurdu. Bir dəfə əynində incə bir paltarla Peyğəmbərimizin evinə gəldi. Peyğəmbərimiz onu o halda gördükdə üzünü çevirdi və bu xəbərdarlığı etdi:

“Ey Əsma! Bir qadın aybaşı olmağa başladığı yaşdan sonra (əli və üzünə işarə edərək) bu və bu üzvlərindən başqa yerini göstərməsi caiz deyildir.”

Hz. Əsma bu xatırlatmadan sonra ömrünün sonuna qədər təsəttürü İslam xanımı üçün ən böyük nemət bildi. Mənəvi rahatlığı əldə etmək və özünü qorumaq üçün ən düzgün hicaba əməl etdi.

Bir dəfə oğlunun aldığı çox bahalı, ancaq incə bir paltarı geri qaytardı.

Oğlu bunu ürəyinə saldı və: “Ana, bu paltardan bədən görünməz,” – dedi.

Əsma رضي الله عنها da: “Göstərməz, amma bədən çizgilərini bəlli edər,” – dedi. Oğlu:

“Elə isə sənə qalın paltar alaram” – dedi. Gedib anasının razı qalacağı bir paltarı alıb gətirdi.

Əsma ﵂ onu qəbul etdi və: “Mənə belə paltar al,” – dedi.

❁

O, özünə inanan əmin, qərarlı, səbirli, mətanətli və iman dolu bir qəlbə sahib idi. Yüz yaşında olmağına baxmayaraq ürəyi cihad eşqiylə yanırdı. Zalım Həccaca qarşı Məkkədə qəhrəmanca vuruşan oğlu Abdullah bin Zübeyrə etdiyi nəsihətlər onun bu iman gücünü göstərirdi.

O, tarixi və ədəbi vəsiqə qəbul edilən sözlərilə oğluna belə müraciət edirdi:

“Oğlum! Şərəfinlə yaşa, izzətinlə öl, ancaq qətiyyən əsir düşmə!..

Sən özünü daha yaxşı tanıyırsan. Əgər düz yolda olduğuna və Haqqa dəvət etdiyinə inanırsansa, yoluna davam et. Sənin bütün adamların və yoldaşların bu yolda öldü.

Boynunu Bəni Ümeyyə oğullarının əllərinə təslim edib oynatma!

Əgər bunu dünyaya aid bir şey qazanmaq üçün edəcəksənsə, sən nə pis bir bəndəsən! Beləliklə həm özünü, həm də yanındakıları məhv etmiş olarsan.

Əgər “Mən düz yoldaydım. Ancaq yoldaşlarım bezdikləri üçün gücümü itirdim” deyirsənsə, bu, igidlərə yaraşan iş deyil. Dünyada daha nə qədər yaşayacaqsan? Ölmək daha yaxşıdır.”

Hz. Əsma ﵂ bu tarixi sözlərindən sonra oğluyla vidalaşdı. Gözləri görmədiyi üçün əllərilə oğlunu

sığalladıqda əynində zireh olduğunu anladı. Buna görə Abdullaha:

“Oğlum! Bu, şəhidlik istəyənlərin edəcəyi iş deyil!” – deyərək zirehi çıxartmağını istədi və ona belə dua etdi:

“Allahım! Onu sənə həvalə etdim. Onun üçün təqdir etdiyinə razı oldum. Mənə, ona görə səbir edənlərin savabı ver.”

Yüz il yaşadığı rəvayət edilən Hz. Əsma oğlunun şəhadətindən bir neçə gün sonra Məkkədə hicri 73-cü ildə vəfat etdi. Səksən beş hədis nəql etdiyi rəvayət edilir.

Onun ibrətlərlə dolu həyatından dərs ala bilməyi və şəfaətinə nail olmağı Haqq-Təaladan diləyirik. Amin...

Rəsulullahın baldızı

# ƏSMA BİNTİ UMEYS

radiyallahu anha

Əsma binti Umeys رضي الله عنه həyat yoldaşı Hz. Cəfər رضي الله عنه ilə birlikdə Peygəmbərimizin ﷺ "iki hicrət sahibi" adına layiq gördüyü xanım səhabə...

Peyğəmbərimizin ﷺ baldızı... Meymunə anamızın bacısı...

Məkkədə doqquz bacısı ilə birlikdə "imanlı bacılar" kimi məşhur olan İslamın ilk cəfakeş xanımlarından... Məharətli, bacarıqlı, səbirli və qərarlı bir mömin...

O, Məkkədə doğulub boya-başa çatmışdır. İslamın ilk günlərində Peyğəmbərimizə beyət etdi. Peyğəmbərimiz ﷺ hələ Darül-Ərkama keçmədən əvvəl ona tabe olub İslamı qəbul etdi. Atası Umeys bin Sad, anası Hind binti Avfdır.

Doqquz bacısı vardı. Hamsı da müsəlman olmuşdu. Peyğəmbərimiz onlara "imanlı bacılar" deyə xitab edərdi.

Onlardan üçü məşhur səhabələrlə ailə həyatı qurmuşlar. Ümmul Fazl Hz. Abbas ilə, Səlma Hz. Həmzə ilə, Meymunə anamız da əziz Peyğəmbərimizlə evlənmişlər. Əsma رضي الله عنها da Həzrət Cəfər رضي الله عنه ilə evlənmişdir.

O, Məkkədə səadət və sevgi dolu bir ailə yuvası qurmuşdur. İmanlarından güzəştə getmədən, təzyiqlərə fikir vermədən həyatlarını yaşamağa çalışırdılar. Məkkəli müşriklərin insanlara zülmü başlayıb dözülməz, ağır vəziyyətə çatdıqda Peyğəmbərimizin icazəsiylə bu bəxtiyar ailə Həbəşistana hicrət etmişdir. Orada onların Məhəmməd, Abdullah və Avn adlı üç övladları dünyaya gəlmişdir.

Əsma رضي الله عنها həyatın hər cür çətinliyinə sinə gərən səbirli bir qadın idi. Əxlaqi kamilliyə yüksəlmiş, möhkəm iradəli və mətanət sahibiydi. Uzun illər öz məmləkətindən uzaqda, əziyyət dolu həyat keçirməyinə baxmayaraq, əsla imanından güzəştə getməmişdir.

O, yeni şeylər öyrənməyə həvəsli idi. Elm öyrənməyi çox sevərdi. Ətrafda baş verənlərlə maraqlanardı. Həbəşistanda cənazələri tabuta qoyulub apardıqlarını gördükdə, bu ona çox maraqlı gəlmiş və necə həyata keçirildiyini öyrənmişdir.

Qürbət ölkədə üç uşağın yemək, içmək və digər ehtiyaclarını ödəmək günü-gündən çətinləşirdi. Peyğəmbərimizin ﷺ həsrəti ilə yaşamaq da onlar üçün çox ağır idi. Bir yol tapıb ikinci hicrət yurdu Mədinəyə köçmək niyyətində idilər. Bu zaman Peyğəmbərimizin ﷺ məktubu artıq Həbəş kralına çatmışdı.

Peyğəmbərimiz məktubunda kralı İslama dəvət edir və Ümmü Həbibə ilə qiyabi nikahının bağlanılmasını istəyirdi.

Məktubu oxuyan Həbəş hökmdarı Allah-Təalanın lütfü və rəhmətiylə müsəlman oldu. O, Ümmü Həbibə ﵂ anamızın qiyabi olaraq kəbinini kəsib hədiyyələr və şəxsi gəmi ilə onu Mədinəyə yola saldı.

Əsma ﵂, Cəfər ﵁ və onların üç övladı da bu gəmi ilə hicrət etdilər. Gəmidəkilər Mədineyi-Münəvvərəyə çatdıqda Peyğəmbərimiz Xeybər fəthindən dönmüşdü. Bu bəxtiyar ailəni çox sevən Peyğəmbərimiz onların gəlişinə çox sevindi. O, illərdir onların imanları yolunda çəkdikləri sıxıntı, əzab və əziyyətdən xəbərdar idi.

Onları ailəlikcə çox sevərdi. Onlar imanlarından əsla güzəştə getməmişdilər. İslami kimliklərini heç bir yerdə itirməmişdilər. Buna görə də Peyğəmbərimiz qəlbləri Allah və Peyğəmbər sevgisi ilə dolu bu mücahid ailə ilə qarşılaşanda sevincini bu ifadələrlə dilə gətirmiş, onlara "Xeybərin fəthinəmi, yoxsa Cəfərin gəlişinəmi sevinim?!" - deyə iltifat etmişdir.

Xeybər döyüşündə əldə olunmuş qənimətlərdən gəmi ilə gələnlərə müəyyən paylar verilirdi. Beləliklə bu bəxtiyar ailənin ikinci hicrət yurdu Mədineyi-Münəvvərəyə köçmələri hicrətin yeddinci ilində baş verdi. Həbəşistanda öyrəndikləri ilə Mədinədə cənazələr üçün ilk tabut düzəltmə işi onlara nəsib oldu. Hz. Fatimə ﵂ və Zeynəb binti Cahş ﵂ anamız vəfat edəndə tabutlarını Əsma ﵂ düzəltdirmişdi.

Əsma binti Umeys رضي الله عنها məharətli, bacarıqlı İslam qadınıydı. Dəriçiliklə də məşğul olduğu qeyd edilir. Həyat yoldaşı Cəfərin رضي الله عنه Mutə döyüşündə şəhid olması ilə əlaqədar Peyğəmbərimiz evinə gələndə qırx dəri aşıladığını demişdir.

O, zamanın qiymətini çox yaxşı bilərdi. Boş zamanlarında dəri aşılayardı. Uşaqlarının dolanışığını dəri işiylə məşğul olaraq, əlinin zəhmətiylə təmin etməyə çalışardı. Ehtiyacları üçün heç kimdən bir şey istəməz, heç kimə əl açmazdı.

Hz. Əsma رضي الله عنها Peyğəmbərimizin ﷺ xanımlarını tez-tez ziyarət edər, onların söhbətlərində iştirak edərdi. Bir gün Hz. Hafza رضي الله عنها anamızın yanında olarkən Hz.Ömər رضي الله عنه də oraya gəlmiş və Hz. Əsmaya رضي الله عنها "Biz sizi hicrətdə keçdik," deyə zarafat etmişdi. Hz. Əsma رضي الله عنها da ona belə cavab vermişdi:

"Xeyr, ey Ömər, dediyin kimi deyil. Çünki siz peyğəmbərin yanında idiniz. O, ac olanları doyurur, cahillərə nəsihət edirdi. Ancaq biz Allah və Rəsulu uğrunda hicrət edib ayrı düşmüşdük."

Sonra bu hadisəni Peyğəmbərizimizə söyləmək üçün onun yanına getdi. Hz. Əsmanın رضي الله عنها məyus olduğunu görən Peyğəmbərimiz onu sevindirən və könlünü alan bu müjdəni verdi:

"Ey gəmi yolçuları, Ömər və dostlarının bir hicrəti, sizin isə iki hicrətiniz vardır."

Hz. Əsma رضي الله عنها dünyalara bərabər bu ifadə qarşısında çox kövrəldi, sevincindən gözyaşlarını saxlaya bilmədi. Belə bir müjdəyə nail olmaq çox böyük

səadət idi. Bundan sonra onlar “iki hicrət sahibi” ləqəbiylə yadda qaldı.

Əsma binti Umeys رضي الله عنها təslimiyyətli bir qadın idi. Peyğəmbərimizlə məsləhətləşmədən bir iş görməzdi. Onun əmr və tövsiyələrinə görə davranardı. Bir gün o, Peyğəmbərimizdən soruşdu: “Ya Peyğəmbər, uşaqlarıma göz dəyir. Şəfa niyyətiylə birinə dua oxuda bilərəm?” Peyğəmbərimiz də:

“Bəli, oxut. Əgər qədərin önünə keçən bir şey olsaydı o da göz dəyməsi olardı,” – deyə cavab verdi.

Hz. Əsma ilə رضي الله عنها Cəfərin رضي الله عنه sevgi dolu, nümunəvi bir ailə həyatı vardı. Birlikdə xoşbəxt ömür sürürdülər. Hicrətin səkkizinci iliydi. Peyğəmbərimiz ﷺ rumlarla müharibə etmək üçün ordu hazırlamışdı. Zeyd bin Harisəni ordunun başçısı təyin etmişdi. Əgər o şəhid olsa Hz. Cəfər, o da şəhid olsa Abdullah bin Rəvaha orduya başçılıq edəcəkdi. Ordu hazırlaşıb yola çıxdı.

Cəfər xanımı Əsma رضي الله عنها ilə vidalaşdı, uşaqlarını qucaqlayıb öpdü, onları oxşadı. Ordu ilə birlikdə Mədinədən uzaqlaşdı.

İslam ordusu ilə bizanslılar Mutə adlı yerdə qarşılaşdılar. Düşmən həm sayca, həm də hərbi cəhətdən çox üstün idi. İslam ordusu da mənəvi baxımdan çox güclüydü. Onların hamısı şəhid olmaq arzusu ilə yola çıxmışdılar. Əsgərlər döyüş meydanında çox böyük qəhrəmanlıqlar nümayış etdirdilər.

Cəfərin iki qolu da qılınc zərbəsiylə kəsildi. Lakin İslam bayrağını aşağı endirmədi. Üç komandirin şəhid edildiyi Mutə döyüşü müsəlmanların qələbəsiylə nəticələndi.

❁

Peyğəmbərimiz əshabı ilə məsciddə olarkən Allah-Təala döyüş meydanını ona olduğu kimi göstərmişdi. O, Hz. Cəfərin رضي الله عنه şəhid olduğunu, kəsilən iki qolunun əvəzinə mükafat olaraq Haqq-Təalanın ona iki qanad verdiyini və onun cənnətə uçtuğunu əshabına xəbər verdi.

Bundan sonra Hz. Cəfər رضي الله عنه “təyyar = uçan” və “zülcənaheyn = iki qanadlı” ləqəbləriylə anılmışdır.

❁

Hz.Əsma رضي الله عنها və uşaqları Hz.Cəfərin رضي الله عنه yolunu gözləyirdilər. Onun şəhid olmağından xəbərsizdilər. Peyğəmbərimiz ﷺ onların evinə gəldi. Uşaqları xəbər aldı. Əsma رضي الله عنها uşaqları onun yanına gətirdi. Peyğəmbərimiz onları bağrına basıb öpdü, başlarına sığal çəkib oxşadı. Onların üzünə baxdıqda özünü saxlaya bilmədi, mübarək gözlərindən yaşlar axmağa başladı. Onun bu halından şübhələnən Əsma رضي الله عنها:

“Ya Rəsulallah! Cəfər haqqında sənə xəbər verdilər?” - deyə soruşdu. İçin-için ağlayan Peyğəmbərimiz yanıq qəlbiylə: “Bəli! Cəfər bu gün şəhid oldu,” – dedi.

Hz.Əsma رضي الله عنها bu acı xəbəri eşidincə özünü saxlaya bilmədi, ağlamağa və özünü vurmağa başladı. Peyğəmbərimizin onun bu vəziyyətindən xoşu

gəlmədi və belə dedi: “Ey Əsma, həyat artıq boş şeydir, demə. Ağzından lazımsız və kobud söz çıxarma. Sinənə də vurma.”

❀

Xanımlar Hz.Əsmanın başına toplaşmışdılar. Peyğəmbərimiz oradan ayrılıb evinə getdi. Xanımlarına yemək bişirib Hz. Cəfərin رضي الله عنه evinə göndərmələrini söylədi və belə dedi: “Onlar üçün yemək hazırlayın, onlar yemək bişirəcək halda deyillər.”

Hz.Cəfərin evinə üç gün yemək bişirib göndərildi. İslam tarixində cənazə evinə yemək bişirib göndərilən ilk yeməyin bu olduğu deyilir.

❀

Mərhəmət Peyğəmbəri üç gündən sonra Hz. Cəfərin evinə baş çəkdi. Yetim qalan uşaqları üçün Hz. Əsmaya رضي الله عنها belə dedi: “Bu gündən sonra artıq qardaşım üçün ağlama. Uşaqların dolanışıq və güzəranına görə də narahat olma. Dünya və axirətdə onların himayədarı artıq mənəm.”

❀

Əsma رضي الله عنها altı aya yaxın dul qaldı. İslam uğrunda çox əziyyyətə qatlaşan bu xanım səhabəni Hz. Əbu Bəkr رضي الله عنه himayəyə götürmək istədi və ona evlilik təklif etdi. O da bu təklifi qəbul etdi və nikah bağlandı. Beləcə ailə özünə xeyirli bir hami tapmış oldu.

Əsmanın رضي الله عنها evliliyin birinci ilinin sonlarında Peyğəmbərimiz Həccə getmək üçün hazırlıq görürdü. O, Hz. Əbu Bəkr Siddiqlə رضي الله عنه birlikdə gedəcəkdi. Əsma

رضي الله عنها da hamilə olduğuna baxmayaraq Vida Həccində iştirak etmək istəyirdi. Əziz Peyğəmbərimizin ﷺ xanımlarıyla birlikdə Mədinədən çıxdılar. Mikat yeri olan Zülhuleyfəyə çatdıqda Əsmanın رضي الله عنها vəziyyəti ağırlaşdı və elə orada bir oğlan uşağı dünyaya gətirdi. Hz. Əbu Bəkr رضي الله عنه yeni doğulan övladına Məhəmməd adını verdi, eyni zamanda Peyğəmbərimizdən Əsmanın رضي الله عنها Mədinəyə qayıtması barədə soruşdu. Peyğəmbər ﷺ "Qüslünü alsın və ehrama niyyət etsin," – cavabını verdi.

Əsma رضي الله عنها Hz. Əbu Bəkrlə رضي الله عنه sevgi və hörmət dolu bir ömür sürmüşlər. Ona olan xidmətinə və məharətinə görə xanımını çox sevən Hz. Əbu Bəkr رضي الله عنه bir gün xəstələndi. Artıq ömrünün son günlərini yaşadığını hiss edirdi. Xəstəliyinin son günlərində ölərkən Əsmanın رضي الله عنها onu yumasını vəsiyyət etdi. Hicrətin on üçüncü ilində dünyasını dəyişən Hz.Əbu Bəkr Siddiqin رضي الله عنه son vəsiyyətini iddəsi davam etdiyi üçün Əsma رضي الله عنها həyata keçirdi. Yuma və kəfənləmə işini şəxsən öz əliylə tamamladı.

Əsma رضي الله عنها sağlam iradəli, səbirli və elmli bir xanımdı. Yuxuyozma bacarığı da vardı. Hz. Ömər رضي الله عنه xəlifəliyi dövründə ona tez-tez yuxularını danışar və ondan yuxularını yozmağı xahiş edərdi.

Əsma رضي الله عنها yenə dul qalmışdı. İddəsi bitdikdən sonra qardaşı Hz. Cəfərin رضي الله عنه yetim qalan uşaqlarını böyütmək üçün Hz. Əli Hz. Əsmaya evlənmə təklif etdi. Əsma رضي الله عنها evlilik təklifini qəbul etdikdən sonra onların kəbinləri kəsildi. Bu xoşbəxt evlilikdən Yəhya və Avn adlı iki övladları dünyaya gəldi.

O, bacarıqlı, qayğıkeş və ağıllı bir qadın idi. Bir gün oğlanları Məhəmməd bin Əbu Bəkirlə Məhəmməd bin Cəfər öz aralarında danışırdılar: “Mən səndən daha şərəfliyəm, çünki mənim atam sənin atandan xeyirlidir.” Bu söhbəti eşidən Hz. Əli Hz. Əsmaya belə dedi: “Uşaqlarının arasında hakimlik elə!” Hz. Əsma da Hz. Cəfərdən olan oğluna tərəf döndü və dedi: “Oğlum, ərəblər arasında sənin atandan daha yaxşı cavan insan görmədim.” Sonra Məhəmməd bin Əbu Bəkrə tərəf dönərək: “Oğlum, ərəblər arasında sənin atandan daha kamil və daha xeyirli ortayaşlı birini görmədim,” – dedi.

Hz. Əli رضي الله عنه Əsmaya رضي الله عنها: “Bizə bir şey qalmadı. Əgər başqa cür danışsaydın sənə acıqlanardım,” – dedi. Buna cavab olaraq Əsma رضي الله عنها Hz. Əliyə رضي الله عنه: “Üç həyat yoldaşımdan dünya nemətlərinə ən az rəğbət göstərəni də sənsən,” – deyə hakimanə bir cavab verdi.

Əsma binti Umeys رضي الله عنها Hz. Əlinin رضي الله عنه vəfatından qısa müddət sonra dünyasını dəyişmişdir. O, Peyğəmbərimizdən ﷺ altmış hədis rəvayət etmişdir. Hədislərdən biri belədir: “Peyğəmbər ﷺ məyusedici bir halla qarşılaşdıqda və ya sıxıntılı və kədərli olduqda belə demişdir: “Rəbbim Allahdır, Ona heç nəyi şərik qoşmaram.”

“O, qohumluq əlaqələrini qorumaq baxımından insanların ən şərəflisidir,” iltifatına layiq olan Əsma binti Umeys رضي الله عنها Peyğəmbərin ﷺ baldızı olaraq geriyə xeyirli övlad və yaxşı ad qoyub getmişdir. Haqq-Təaladan şəfaətini diləyirik. Amin...

Rəsulullahın baldızı

# Ümmü Fadl

radiyallahu anhə

Ümmü Fadl رضي الله عنه Peyğəmbərin ﷺ baldızı... Meymunə binti Haris رضي الله عنها anamızın bacısı...

Peyğəmbərin ﷺ sevimli əmisi Həzrət Abbasın رضي الله عنه həyat yoldaşı...

İslamı ilk qəbul edən cəsarət və şücaət sahibi xanım səhabə... Din qardaşını müşriklərin əlində qoymayan qəhrəman, imanlı bir xanım...

O, Məkkədə Kinanə qəbiləsinə mənsubdur. Anası Hind (Havlə) binti Avf, atası Haris bin Həzəndir. Məkkədə Abbas bin Əbdülmüttəlib ilə ailə qurmuşdur. İlk övladı Fadlın dünyaya gəlişindən sonra Ümmü Fadl ləqəbiylə tanınmışdır. Əsl adı Lübabə olmuşdur.

O, Xədicətül-Kübra رضي الله عنها anamızdan sonra Məkkədə İslamı ilk qəbul edən cəsur və igid xanımlardandır. Həyat yoldaşı Hz. Abbas رضي الله عنه ondan sonra İslamı qəbul etmişdir.

Ümmü Fadl رضي الله عنها şücaətli, cəsur, vüqarlı və imanından güzəştə geməyən qorxmaz bir xanım səhabəydi. Xidmətləriylə, sevgisiylə insanları gözəlliyə çağıran İslamın ilk cəfakeşlərindən idi. Onun İslamın ilk günlərində göstərdiyi qəhrəmanlıq dillərə dastandır.

O, din qardaşını müşriklərin əlində qoymadı. Xanımlıq qüruru ilə müsəlman qardaşının köməyinə çatdı. İmanından aldığı güclə təkcə əlində bir şüvüllə  müşrik Əbu Ləhəbin üstünə getdi. İslam qardaşlığı belə bir davranış nümayiş etdirməyi lazım bilirdi. Ümmü Fadl رضي الله عنها da heç kimdən çəkinməyərək qəhrəmancasına belə bir hərəkət etdi.

Onun müsəlman qardaşını tək qoymamaq, kədərli anlarındaköməklik göstərmək və ona arxa, dayaq olmaq xüsusundakı fədakarlığı İslam tarixi səhifələrindən yaddaşlara yazıldı. Yaddaşlardan silinməyən bu tarixi hadisə belə nəql edilir:

“Ümmü Fadlın رضي الله عنها həyat yoldaşı Abbasın Əbu Rafi adında misirli bir köləsi vardı. O da İslamı qəbul etmişdi. Lakin müşriklərin şərindən çəkindiyi üçün İslamı qəbul etdiyini elan etməmişdi. Əbu Rafi رضي الله عنه Zəmzəm quyusunun yanında ağac su ləyənləri düzəltməklə məşğul olardı. Ümmü Fadlın رضي الله عنها otağı da bu quyuya yaxın idi.

Bədir döyüşünün olduğu günlər idi. Müsəlmanların müşrikləri məğlub etməsi xəbərini aldılar. Kəbə ətrafında bu barədə fərəhlə söhbət edərkən Əbu Ləhəb gəlib çıxdı.

Bu azğın müşrik Bədir döyüşünə getməmiş, öz yerinə As bin Hişamı göndərmişdi. Lakin nələr baş verməsi barədə məlumat alır, hadisələrin gedişatını izləyir, nəticəni səbirsizliklə gözləyirdi.

Acı xəbər – Qureyşin məğlubiyyəti ona çatdıqda kinindən, təkəbbüründən, hirsindən nə edəcəyini bilmədi. Məğlubiyyətlə heç cür barışmaq istəmirdi. "Necə ola bilər?" – deyə fikrə getdiyi anda Əbu Süfyanın qarşıdan gəldiyini gördü. Onu yanına çağırdı və belə dedi: “Ey qardaşımın oğlu, necə oldu, danış görüm.”

Əbu Süfyan kədərli-kədərli: “Heç soruşma! Elə bil onların qarşısında əlimiz-qolumuz bağlandı. İstədikləri kimi bir qismimizi öldürdülər, bir qismimizi də əsir götürdülər,” – deyə sözə başladı. Sonra belə davam etdi:

“Vallah, mən bizimkilərdən heç kimi qınamıram. Çünki o zaman elə məxluqlarla qarşılaşdıq ki, elə bil yerlə göy arasında qara atlara minmiş, ağ geyinmiş adamlar bizə hücum etdilər.”

Bu zaman Əbu Rafi رضي الله عنه onların söhbətlərini eşidirdi. Sevincindən və həyəcanından özünü saxlaya bilməyib söhbətə qarışdı və “Vallah, onlar mələklər idi,” – dedi.

Bədir döyüşünə görə əsəbindən alışıb yanan Əbu Ləhəb mələk sözünü eşitdikdə Əbu Rafinin رضي الله عنه üstünə cumdu. Var gücüylə onu vurmağa başladı. Hirsini ondan çıxarmağa çalışan Əbu Ləhəb onu amansızca döyürdü.

Bu zaman Ümmü Fadl رضي الله عنها onları izləyirdi. Müş-

riklərin Əbu Rafinin üzərinə hücum çəkdiyini gördükdə əlinə bir çadır dirəyi alıb Əbu Ləhəbə:

“Heç kimi yoxdu deyə onu gücsüz gördün?” – deyərək əlindəki şüvülü onun başına vurdu. Başından yaralanan azğın müşrik bir qadının hücumu qarşısında dayana bilməyib yerə yıxıldı.Köməkçilərinin yardımıyla  alçaq və xor olaraq oradan uzaqlaşdı. Daha sonra bu əzikliklə özü-özünü qınadı. Bir daha ayağa qalxa bilmədi, təkəbbür və kiniylə cəhənnəmə vasil oldu.

Məkkənin ağır günlərində belə bir fədakarlıq, qəhrəmanlıq ancaq Allah yolunda qardaş olmanın meyvəsiydi. Necə güclü iman!... Necə gözəl bir qardaşlıq!

Ümmü Fadl رضي الله عنها iman gətirmiş üç bacı idilər. İslamın çətin günlərində üçü də Allaha və Rəsuluna təslim olmuşdular. Peyğəmbərimiz onlara “möminə bacılar” deyə xitab edərdi.

Bu üç bacı Məkkədə bu ləqəblə məşhur oldular. Qızlardan Hz. Meymunə رضي الله عنها Peyğəmbərimizlə evlənərək möminlərin anası oldu. Hz. Əsma Umeys رضي الله عنها də Əbu Talibin oğlu Hz. Cəfərlə evləndi.

Peyğəmbərimiz ﷺ sevimli əmisi Hz. Abbasın evinə tez-tez gedib gələrdi. Onlarla hal-əhval tutar, günorta vaxtı burada istirahət edərdi. Bir gün Ümmü Fadl رضي الله عنها qorxulu və sıxıntılı bir yuxu görmüşdü. Yuxunu Peyğəmbərə danışmaq istədi və dedi:

“Ya Rəsulallah, bir yuxu gördüm və çox qorxdum.” Peyğəmbər ﷺ:

“Nə gördün?” – deyə soruşdu. O da cavab verdi:

“Ya Rəsulallah, gördüm ki, bədəninizdən bir parça kəsilib mənim evimə qoyulur.”

Peyğəmbərimiz ﷺ Ümmü Fadlın ﵂ sıxıntısını yox etmək üçün yuxunu belə yozdu:

“Xeyirli bir yuxu görmüsən. Fatimənin bir oğlu dünyaya gələcək. Sən də onu Kusəm ilə birlikdə əmizdirəcəksən.”

Çox keçmədən Hz. Hüseyn ﵁ dünyaya gəldi. Ümmü Fadl ﵂ onu evinə aparıb doyana qədər əmizdirdi. Ona süd ana oldu, tərbiyəsilə məşğul oldu. Boya-başa çatması, yaxşı tərbiyə alması üçün əlindən gələni etdi.

Bir gün o, Hz. Hüseynlə birlikdə Peyğəmbərin ﷺ evinə gəlmişdi. Peyğəmbərimiz ﷺ nəvəsini qucağına alıb dizinə oturtdu. O, ay parçası nəvəsinin başını oxşayıb yanaqlarından öpdü.

Elə bu vaxt balaca Hüseyn babası Allah Rəsulunun ﷺ qucağını islatdı. Ümmü Fadl ﵂ buna görə çox pis oldu. Bir az əsəbi halda cəld uşağı Peyğəmbərin qucağından götürdü. Uşaq da ağlamağa başladı. Belə bir vəziyyət qarşısında Peyğəmbərimiz ﷺ:

“Ey Ümmü Fadl, Allah köməyin olsun. Sən onu ağlatmaqla məni incitdin,” – dedi.

Peyğəmbər ﷺ bu sözləriylə Ümmü Fadla ﵂ nə isə öyrətmək istədi. Ona niyə belə sərt davranırsan demədi, üstünə qışqırıb qəlbinə dəymədi. Sadəcə

ona yol göstərdi. Daha mülayim davranmağı tövsiyə etdi.

Ona uşağın sərt və kobud hərəkətdən heç nə anlamayacağını, buna görə də ona yumşaq davranılmasının vacibliyini öyrətdi. Uşaq tərbiyəsində səbir, uşağa baxmaqda mülayimlik hər şeydən əvvəl gəlir.

Uşaq, bədən dili deyilən davranışlardan təsirlənir. Buna görə də Peyğəmbərimiz ﷺ Ümmü Fadlın رضي الله عنها düşünmədən etdiyi bu hərəkətinə qarşı onu məzəmmət etdi.

Necə gözəl tərbiyə!.. Nə zərif davranış!.. İnsanın qəlbini qırmadan, qəlbinə xitab edərək onu tərbiyə etmək!.. Yanlış hərəkətləri sadəcə məzəmmətlə düzəltmək. Allahım! Bu incəliyi, bu zərif tərbiyə üsulunu bizlərə də nəsib et!..

Ümmü Fadl رضي الله عنها İki Cahan Günəşi Peyğəmbərimizin sevimli əmisi Həzrət Abbasdan رضي الله عنه altı oğlan övladı dünyaya gətirmişdir. Bu xoşbəxt evlilikdən Fadl, Abdullah, Mabəd, Kusəm və Əbdürrəhman adında oğulları olmuşdur.

İslamın nurunu hələ ana qarnında ikən alan bu insanlar həm özlərinə, həm də çevrələrinə işıq saçmışlar. Hər biri yüksək idealları, hədəfləri olan şəxsiyyətli, vüqarlı gənclər oldular. Hər biri İslamı öyrənmə və öyrətmə xüsusunda elm fədaisi olaraq çalışmışlar. Xüsusilə Abdullah bin Abbas əshabi-kiram arasında təfsir və fiqh mövzusunda daha çox müraciət edilən qaynaqlardan biri olmuşdur.

İslam dinini yaymaq üçün Kusəmin رضي الله عنه Orta Asiya torpaqlarına qədər getməsi və o bölgədə şəhid olub orada dəfn edilməsi onun necə böyük bir hədəfə sahib olduğunu aydın göstərir. Onların həyatı bizim üçün böyük dərslər və ibrətli nümunələrlə doludur.

Hz. Osmanın رضي الله عنه xəlifəliyi dövründə dünyasını dəyişən Ümmü Fadl رضي الله عنها belə bir şərəf sahibiydi. Bir şair onu belə mədh etmişdir:

*“Mə validət nəcibətun min fahlin*
*Ammin-Nəbiyyil-Mustafa zil-Fazlı*
*Kə sittətin min batni Ümmil Fadlı*
*Və hatəmir-rusul və xayrir-rusuli”*

“Heç bir əsilzadə qadın Ümmü Fadl Lübabənin altı övladı kimi övlad dünyaya gətirməmişdir. Ümmü Fadl və həyat yoldaşı necə qiymətli, hörmətə layiq və şərəfli gənclərdilər ki, əri Hz. Abbas peyğəmbərlərin sonuncusunun və xeyirlisinin əmisidir.”

Haqq-Təaladan şəfaətini diləyirik. Amin...

Hz. Ənəsin anası

# Ümmü Süleym

radiyallahu anha

Ümmü Süleym ﵂ Rəsulullahın ﷺ süd bibisi... Məşhur səhabə Ənəsin anası... Müşrik ərinə baxmayaraq İslamın nuruna doğru gedən ilk xanım səhabələrdən...

Mehri İslam olan, evliliyi insan xilası olan bir iman sevdalısı...

Əri Əbu Talhanın oruc tutduğu vaxt kədərlənməməsi üçün iftarını açıb qurtarana qədər oğlunun öldüyünü gizlədən, səbir və mətanət sahibi İslam xanımı!.. Rəbbinin ona yazmış olduğu qədərə təslim olmuş cənnətlik bir xanım səhabə...

O, Mədinədən Həzrəc qəbiləsinin Nəccar oğullarındandır. Atası Milhan bin Xalid, Anası Məlikə binti Malikdir.

O, Ümmü Süleym ləqəbiylə məşhur olmuşdur. Əsl adı Rumeysadır.

O, sevimli Peyğəmbərimiz uğrunda şəhid olan

məşhur səhabə Haram bin Milhanın رضي الله عنه və Kiprdə şəhid olan Ümmü Haramın رضي الله عنها bacısıdır. Onun doğum və ölüm tarixi dəqiq olaraq bilinmir.

Ümmü Süleymin müsəlman olmadan əvvəl ilk evliliyi öz qəbilələrindən olan Malik bin Nadir ilə olmuşdur. Ənəs bin Malik də bu nikahdan dünyaya gəlmişdir. Ənəs dünyaya gəlməmişdən qabaq Məkkədə İslam günəşi doğmuşdu. Hiradan parıldayan nur Mədinin üfüqlərini aydınlatmağa başlamışdı.

Ümmü Süleym ağlı başında, güclü mühakiməsi olan bir xanım idi. Mədinədə İslamın nuruna doğru gedənlərin arasında o da var idi. Peyğəmbərə ﷺ ilk beyət edənlərdən oldu. İslamla şərəfləndi. Həyat yoldaşı Malik isə müşrik olaraq geridə qaldı ilahi nura doğru addım atmadı. Bütlərdən vaz keçə bilmədi. Xanımının müsəlman olmasından da xəbəri olmadı.

Ümmü Süleym رضي الله عنها həyat yoldaşının İslamı qəbul etməyəcəyini, ona da müdaxilə edəcəyini bilirdi. Buna baxmayaraq Allah yolunda hər cür acı və çətinliyə qatlanmağa razı olmuşdu. Onun yeganə arzusu, o vaxt hələ balaca olan Ənəsi müsəlman olaraq böyütməkdi. Ənəsə tez-tez kəlmeyi-şəhadət dedizdirərdi.

Bir gün yenə oğlu Ənəsə kəlmeyi-şəhadət öyrədərkən əri Malik evə gəldi. Xanımının uşağına öyrətdiklərini gördükdə çox hirsləndi və hiddətlə:

“Nə olub, yoxsa sən də dinini dəyişdirdin?” – deyə onu danladı.

Ümmü Süleym isə çox sakit, yumşaq və təmkinli tərzdə: “Xeyr, sadəcə olaraq Məhəmmədin ﷺ Peyğəmbər olduğuna iman gətirdim,” – dedi.

Əri Malik xanımının belə bir cavab verəcəyini gözləmirdi. Səssiz və sakit bildiyi xanımının belə cəsarətlə cavab verməyini başa düşə bilməmişdi. Çox hirslənmişdi. Hirsli halda:

“Oğlumun əxlaqını və inancını pozmağa çalışma,” – deyərək sərt bir şəkildə onu hədələdi.

Ümmü Süleym رضي الله عنها isə həyat yoldaşına yumşaq bir şəkildə: “Mən onun inancını pozmuram.

Əksinə, düzəltməyə çalışıram,” – dedi.

Gözünü, qəlbini cəhalət qaranlığı bürüyən Malik irad etdi. Həqiqət qarşısında qəzəbinə hakim ola bilmədi. Xanımından küsüb evi tərk etdi. Şam şəhərinə doğru yola çıxdı.

Qədərin qərib bir təzahürüdür ki, səfər etdiyi vaxt onu izləyən düşməni tərəfindən öldürüldü. Ümmü Süleym dul, oğlu Ənəs də kiçik yaşda atadan yetim qaldı.

❀

Ümmü Süleym رضي الله عنها qədərə təslim olmuş səbirli bir xanım idi. Allahdan gələn hər şeydə bir xeyir olduğuna inanırdı. Səbir və mətanətlə həyatına davam etdi. Bir müddət evlənməyi düşünmədi. Çünki balaca oğlu Ənəsin ögey ata təzyiqi altında əzilməsini istəmirdi. Onu böyütmək yolunda qarşılaşacağı bütün sıxıntılara sinə gərərək, Ənəs böyüyənə qədər heç kimlə evlənməməyə qərar verdi. Öz-özünə “Oğlum Ənəs böyüyüb mənə icazə verənə qədər evlənməyəcəyəm,” deyə söz verdi.

Onun həyatı kasıbçılıq və yoxsulluq içərisində keçdi. Buna baxmayaraq heç kimdən heç nə istəmədi. Allah-Təalanın, “**Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr!**” (əl-İnşirah, 6) müjdəsinə inanırdı. Bir gün mütləq rahat həyata qovuşacağına inanırdı. Allaha təvəkkül edərək Ənəsin böyüməyini gözlədi.

Günlər keçir, Ənəs böyüyürdü. Bu müddətdə sevimli Peyğəmbərimiz ﷺ Mədinəyə hicrət etmişdi. Ümmü Süleym رضي الله عنها canından çox sevdiyi Allah Rəsuluna bir hədiyyə vermək istəyirdi. Yanında balaca Ənəsdən başqa da bir şeyi yox idi. Ənəsin əlindən tutub Peyğəmbərimizin ﷺ yanına gətirdi və onun xidmətinə verdi.

Yeganə övladının Peyğəmbərimizin evində, onun tərbiyəsilə böyüməsini istədi. Balaca Ənəs elm və ədəb dəryası Peyğəmbərimizin yanında böyüdü. Bir müddətdən sonra Peyğəmbərdən eşitdiyi gözəllikləri nəql etməyə başladı. Artıq məclislərdə sözünə etimad edilən şəxs oldu.

❁

Ümmü Süleym رضي الله عنها sözünün üstündə durmağın sevinci içində həyatını davam etdirirdi. Bir tərəfdən də evlilik təklifləri gəlməkdəydi. Mədinəli Əbu Talha ilk istəyənlərdəndi.

Əbu Talha varlı və hörmətli bir adam idi. Lakin hələ İslamı qəbul etməmişdi. Bir neçə dəfə evlilik təklif etdi. Bir dəfə Ümmü Süleymin رضي الله عنها yanına gəldi və: “Artıq Ənəs böyüdü. Məclislərdə sözünə etimad

edilir," – dedi. Ona dul qaldığı vaxt dediyi sözü xatırlatmaq istədi.

Ümmü Süleym رضي الله عنها ağıllı bir qadın idi. Əbu Talhanın nə demək istədiyini başa düşdü. Onunla evlənməkdə təkid etdiyini gördükdə incə bir tərzdə ona:

"Əslində sənin kimi birindən imtina etmək olmaz. Lakin sən müşriksən. Səninlə evlənsəm mənim kimi iman edərsənmi?" – dedi.

Əbu Talha bir qədər fikrə getdi. Qəlbinin səsini dinlədi. Sanki bir nur qəlb aləmini işıqlandırırdı. Ancaq hec cür qərar verə bilmirdi. İslam isə sürətlə Mədinədə yayılırdı. Ona başqaları da müsəlman olmağı təklif etmişdilər. Lakin o, həmin anda müsbət cavab verə bilməmişdi. Fikirli bir halda:

"Mən də hərdən bu məsələlər haqqında düşünürəm," – dedi.

Ümmü Süleym رضي الله عنها onun İslama qarşı yumşaldığını gördükdə, ağlına və qəlbinə xitab edərək:

"Ey Əbu Talha, bir fikirləş, sənin sitayiş etdiyin büt bir daş ya da bir ağac parçasıdır. Daş və ya ağacın sənə nə faydası toxunacaq. Sənə pis bir şey olsa, onlar buna necə mane ola bilərlər? Bir dülgərin sənin üçün yonduğu ağac parçasından nə gözləyirsən?" – dedi.

Ümmü Süleymin رضي الله عنها ürəkdən gələn, səmimi sözləri insaflı düşünən bir insanın rədd edə bilməyəcəyi həqiqətlərdi. Onun bu sağlam inancı Əbu Talhanın qəlbində dərin izlər buraxdı. Bu sözlər qarşısında ona cavab verməyə bir söz tapa bilmədi və:

"Mənə fikirləşməyə bir az möhlət ver," – deyərək oradan ayrıldı.

Ümmü Süleym رضي الله عنها bir insana iman həqiqətlərini mənimsətməyin çətinliyini bilirdi. Lakin əzmkarlıq göstərib haqq yolundan dönməyərək bunun öhdəsindən gələ biləcəyinə inanırdı. Əbu Talhanın müsəlman olması üçün hər cür imkan və fürsəti dəyərləndirmək istəyirdi. Onun şirk bataqlığından qurtulmasına evliliyi vəsilə etmək istəyirdi.

Əbu Talha növbəti dəfə gəlib təklifini təkrarladı. İstədiyi qədər pul verəcəyini söylədi. Ancaq Ümmü Süleym رضي الله عنها nə qədər varlı olursa olsun, müşrik bir insanla evlənmək istəmirdi.

Əbu Talha bu cümlələrin evlilik təklifini rədd etmək üçün söylənmiş bəhanə olduğunu dedi və Ümmü Süleymin رضي الله عنها ondan daha varlı biri ilə evlənəcəyini zənn etdi.

Belə bir ehtimalla ona:

"Təklifimi rədd etmək üçün səbəb bu deyil," – dedi. Ümmü Süleym رضي الله عنها də:

"Onda nədir?" – deyə soruşdu. Əbu Talha da:

"Sarı və ağ. Yəni qızıl və gümüş!?" deyincə iman sevdalısı Ümmü Süleym رضي الله عنها ona belə cavab verdi:

"Mənə yaxşı-yaxşı qulaq as, Əbu Talha. Həm səni, həm də Allah və Rəsulunu şahid tutarak deyirəm ki, əgər müsəlman olsan səndən nə qızıl, nə də gümüş almadan evlənməyə razılıq verəcəyəm. İslamı qəbul edişini mehr sayacağam."

Əbu Talha eşitdiklərinə inanmırdı. Ona göstərilən yol açıq-aydın bəlli idi. Rümeysa iti ağlıyla sözünə belə davam etdi:

“Sən bilmirsən ki, sənin ilah deyə sitayiş etdiyin bütü oda atsan yanıb kül olacaq? Sən yox olub gedən bir şeyin qarşısında əyilməkdən utanmırsan?

Əgər Allahdan başqa ilah olmadığına və Məhəmmədin Allahın bəndəsi və Rəsulu olduğuna şəhadət etsən, mən bunu evlilikdə mehr olaraq qəbul edəcəyəm. Bundan başqa da səndən bir şey istəməyəcəyəm.”

Ümmü Süleym رضي الله عنها bu şirin sözləri və təklifiylə Əbu Talhanın qəlbini fəth etdi. Zehnindəki bütpərəstliyə aid fikirləri, düşüncələri bir daha yıxmış oldu.

Əbu Talhanın qəlbində iman nuru parıldamağa başladı. Artıq İslamdan qaçışın bir mənası olmadığını anladı. Sitayiş etdiklərinin yox olub gedən şeylər olduğunu qəbul etdi. Ağıllı insanın belə gülünc, mənasız, özünə faydası toxunmayan, gücsüz, qüvvəsiz bütlərə inanmamalı olduğunu anladı. Qəlb hüzuru içərisində Ümmü Süleymə رضي الله عنها:

“Mənə etdiyin təklifi qəbul etdim. Allahdan başqa ilah olmadığına və Məhəmmədin Allahın Rəsulu olduğuna şəhadət etdim,” deyərək İslamla şərəfləndi.

Nə böyük əzmkarlıq... Necə möhkəm iradə!.. Necə ixlas!.. Necə səbir!.. Nəticəsi necə də gözəl davranışlar!.. Bir insanın imana gəlməsinə səbəb olmaq necə böyük bir səadətdir!.. Xoşbəxtlik və səadət

üçün fədakarlıq lazımdır. İnancını bölüşə biləcəyin bir dost lazımdır... Zənginliyə, şöhrətə, gözəlliyə aldanmamaq lazımdır!.. Sevgini, məhəbbəti qəlblərə aşılamaq lazımdır!.. Allah və Rəsullulah sevgisiylə dolmaq lazımdr!.. İnsanı bu əzmkarlıq, iradə və duyğularla əhatələmək lazımdır!.. Allahım bizə də bu yüksəkliyi nəsib et!..

Ümmü Süleymin رضي الله عنها təmiz niyyəti və səbri belə gözəl nəticə verdi. Böyük səhabələr arasına qatılan Uhudda sevimli Peyğəmbərimizi qorumaq üçün bədənini oxlara sipər edən peyğəmbər aşiqi Əbu Talhanı İslam sıralarına qazandırdı. O, sözünün üstündə durdu və İslamı qəbul edən Əbu Talha رضي الله عنه ilə evləndi. Oğlu Ənəsə: “Qalx, ey Ənəs! Əbu Talhanı mənimlə evləndirmək üçün lazım olanı et!” – dedi. Əbu Talhanın رضي الله عنه İslama girişi mehr qəbul edilərək kəbinləri kəsildi.

Hər ikisi də xoşbəxt və bəxtiyardı. Ümmü Süleym رضي الله عنها Əbu Talhanın imanını qurtardığı üçün, o da iman sevdalısı bir həyat yoldaşına sahib olduğu üçün xoşbəxt idi. Bir yerdə xoşbəxtlik dolu bərəkətli ömür sürdülər.

Ümmü Süleym رضي الله عنها üstün əxlaqi keyfiyyətlərə malik bir insandı. Onun Peyğəmbərimizə ﷺ olan dərin sevgi və hörməti, mübarək alnından tər damcılarını toplaması, istifadə etdiyi əşyaları xatirə olaraq saxlaması, onun yolunda canını fəda edə biləcək qəhrəmanlıqlar nümayiş etdirməsi, təbərrük və comərdliyi, şücaət və mətanəti bizlərə ibrət dərsi verməkdədir.

O, mehri İslam olan, evliliyi iman qurtaran bir

sevdalıydı. Əbu Talha رضي الله عنه ilə evliliyindən çox az bir müddət keçmişdi. Peyğəmbərimz ﷺ Məkkədən Mədinəyə hicrət etmiş, Əbu Eyyub əl-Ənsarinin رضي الله عنه evində məskunlaşmışdı. Bir xidmətçisi belə yox idi.

Əshabının hər biri sevincindən hədiyyələrlə ona "xoş gəldin" deməyə gedirdilər. Ümmü Süleym رضي الله عنها də uğrunda bütün sıxıntılara qatlandığı yeganə oğlu Ənəsi hədiyyə etmək istəyirdi. Oğlunun Peyğəmbərin ﷺ qulluğunda durmasını və onun tərbiyəsilə böyüməsini istəyirdi. O vaxt Ənəs on yaşında idi.

Əbu Talha ilə birgə Enesin əlindən tutub Peyğəmbərimizin hüzuruna gəldilər.

Ümmü Süleym رضي الله عنها dərin məhəbbət və son dərəcə incə bir əda ilə:

"Ya Rəsulallah, Ənəs tərbiyəli, ağıllı bir uşaqdır. Sizə xidmət etməsi və sizin tərbiyənizlə böyüməsi üçün gətirdim. Xahiş edirik, onu bizim hədiyyəmiz olaraq qəbul edin!.." – dedi. Eyni zamanda onun üçün dua etməyini xahiş etdi.

Ümmü Süleymin رضي الله عنها bu nəzakətindən məmnun olan sevimli Peyğəmbərimiz Ənəsin yanında qalmasına icazə verdi və ona belə dua etdi: "Allahummərzuqhu mələn və vələdən. = Allahım! Ona mal və övlad nəsib et."

Hz. Ənəs رضي الله عنه duaların bərəkətiylə 103 illik uzun bir ömür yaşadı, çoxlu mal və övlad sahibi oldu. Peyğəmbərin ﷺ nurundan, elmindən, feyzindən fay-

dalandı. O, ən çox hədis rəvayət edən səhabələrin üçüncüsü oldu.

❀

Ümmü Süleym ﵂ ilə Əbu Talha ﵁ birlikdə xoşbəxt həyat sürürdülər. Evlilikləri bir ili tamamlayanda bir oğulları oldu. Adını Əbu Ümeyr qoydular. Uşaq evin nəşə və sevinc qaynağı oldu. Gün keçdikcə böyüyürdü.

Peyğəmbərimz bu ailəni tez-tez ziyarət edərdi. Bir dəfə Əbu Ümeyri kefsiz gördü. Anasına:

“Ey Ümmü Süleym! Oğlunuzu kefsiz görməyimin səbəbi nədir?” – dedi. O da:

“Ya Peyğəmbər! Onun oynadığı bir quşu vardı. O öldüyünə görə kədərlidir,” – dedi.

Bu cavabı eşidən Peyğəmbər ﷺ uşağın yanına gəldi, başını sığallayıb onu təsəlli edərək:

“Ey Əbu Ümeyr! Nə oldu sənin Nügayrına?” deyərək zarafat etdi.

❀

Əbu Talha ﵁ da hər dəfə evə gələndə birinci Əbu Ümeyri soruşardı. Onu qucağına götürər, sığallayar, zarafat edərdi. Bir gün bu həyat eşqiylə dolu uşaq xəstələndi. Ana və atası nə qədər çalışsalar da dərdinə dərman tapa bilmədilər. Atasının evdə olmadığı bir vaxtda uşağın vəziyyəti pisləşdi. Şiddətdli qızdırma içində ruhunu təslim etdi.

Ümmü Süleym ﵂ mətanət sahibi bir xanımdı. Dərin bir səbir içərisində, təlaşa qapılmadan sakit, mütəvəkkil və qədərə razı bir halda, fəryad etmədən

uşağı yuyub kəfənlədi. Ətir sürərək üstünü örtdü. Evdəkiləri də “Əbu Talhaya mən xəbər verənə qədər siz heç nə söyləməyin” deyə tənbeh etdi.

Bir müddət sonra Əbu Talha evə gəldi. Oğlunun əhvalını öyrənmək istədi. Ümmü Süleym رضي الله عنها: “Bir az rahatlaşıb, əvvəlkindən daha sakitdir...” dedi. Ölüm xəbərini birdən vermək istəmədi. Tez qalxıb hazırladığı yeməyi həyat yoldaşının qabağına qoydu.

Əbu Talha رضي الله عنه xanımının təlaşsız vəziyyətindən oğlunun yaxşı olduğunu zənn etdi. Birlikdə yemək yedilər, söhbət etdilər.

Ümmü Süleym رضي الله عنها həyat yoldaşına qarşı sakit və gülərüzlü görünərək onun istirahət etməsinə və gecəni gözəl keçirməsinə şərait yaratdı. Sübh namazı üçün məscidə getməyə hazırlaşan ərinə:

“Ey Əba Talha! Bu qonşumuzu görürsən?! İstifadə etmək üçün məndən əmanət kimi götürdüyü malı geri almaq üçün getdim, qaytarmaq istəmədi. Üstəlik də incidi,” – deyərək diqqətini çəkdi.

Əbu Talha رضي الله عنه da: “Elə şey olar?! Düz eləməyiblər,” – dedi. Həyat yoldaşını bu şəkildə hazırlayan Ümmü Süleym رضي الله عنها sözünə belə davam etdi:

“Ya Əbə Talha! Oğlun da sənə Allahın bir əmanəti idi. Onu geri aldı.” Əbu Talha رضي الله عنه birdən çaşıb qaldı. Deyəcək söz tapa bilmədi və “İnnə lilləhi və innə ileyhi raciun – Allahdan gəldik, Allaha qayıdacağıq.” ayəsini oxuyaraq Allaha təslim olduğunu bir daha göstərdi.

Sübh namazını qılmaq üçün məscidə getdi. Namazdan sonra gecə baş verənləri Peyğəmbərimizə

danışdı. Peyğəmbərimiz də: “Allah bu gecəni haqqınızda xeyirli etsin,” – deyərək dua etdi.

Ümmü Süleym رضي الله عنها səbir və mətanət sahibi, ərinə qarşı itaətkar, qədərə təslim olan, ağıllı bir qadın idi. Allah-Təala onun səbir və təslimiyyətinin əvəzində heç bir il keçmədən ona başqa bir oğul nəsib etdi. Uşağı Ənəsin qucağına verib adını qoymaq üçün Peyğəmbərimizin yanına göndərdi. Peyğəmbərimiz uşağa Abdullah adını qoydu. Mübarək ağzında xurma çeyniyərək uşağın damağına sürtdü.

Uşaq dili ilə ağzını yalamağa başlayanda Peyğəmbərimiz ﷺ “Mədinəlilər xurmanı xoşlayır,” deyərək zarafat etdi. Ona bərəkətli ömür arzuladı.

Bu duanın bərəkətiylə Abdullahın yeddi və ya doqquz oğlu olduğu, hamısının da elm əhli, Qurra hafiz olduqları rəvayət edilir.

Ümmü Süleym رضي الله عنها bir iman fədaisiydi. Peyğəmbər ﷺ sevgisiylə dolub-daşan qəlbə sahibdi. Bu sevgi yolunda canını fəda etməkdən belə çəkinməzdi. Döyüş meydanlarında lazımiköməkliyi göstərə bilmək üçün əlindən gələni edirdi. Uhudda Hz. Aişə رضي الله عنها anamızla səhabələrə tuluqla su daşımış, yaralılara kömək etmişdir.

O gün sevimli Peyğəmbərimiz Ümmü Süleymi رضي الله عنها əlindəki xəncərlə gördükdə: “Ümmü Süleym, bu xəncərlə nə edəcəksən?” deyə soruşdu. O da:

“Ya Rəsulallah! Onu bu günlər üçün hazırlamışdım. Yanımda götürdüm ki, müşriklərdən kimsə

yaxınlaşsa, qarnına saplayım," – dedi. Sonra əlavə etdi:

"Ya Rəsulallah! Ətrafınızdan dağılıb qaçanları da öldürüm?" Peyğəmbərimz gülümsədi və:

"Ümmü Süleym! Allah-Təalanın köməyi yetişdi və bizə qələbə lütf etdi" – buyurdu.

Ümmü Süleym رضي الله عنها sevgi dolu bir qadın idi. Çox comərd idi. Peyğəmbərimzin ﷺ evinə tez-tez gedib gələrdi. Peyğəmbərimiz də onun evinə gəldikdə ona ikram etmək üçün can atardı. Bəzən günlərcə yığdığı yağ və ya ona oxşar yeməkləri, bəzən evində bişirdiyi yeməyi, bəzən də təzə yetişmiş meyvədən, yaş xurmadan bir zənbilə doldurar, oğlu Ənəslə Peyğəmbərin ﷺ evinə göndərərdi.

Bir gün xidmətçisi Rübeybə ilə bir tuluq yağ göndərdi. Rübeybə:

"Ya Rəsulallah! Bu yağı sizə Ümmü Süleym göndərdi. Tuluğu boşaldın, geri aparım," – dedi.

Tuluğu boşaldıb verdilər. Rübeybə evə qayıdanda boş tuluğu mismardan asdı. Ümmü Süleym evə qayıdanda tuluğun yağ ilə dolu olduğunu gördü. Çox təəccübləndi. Rübeybəni çağırdı və soruşdu:

"Mən sənə demədim ki, bu yağı Peyğəmbərə ﷺ apar?" O da:

"Mən yağı apardım," dedi. Məsələni başa düşərək Rübeybə ilə birlikdə Peyğəmbərin ﷺ evinə gələn Ümmü Süleym رضي الله عنها:

"Ya Rəsulallah! Rübeybə ilə sizə bir tuluq yağ

göndərmişdim, çatdı?” deyə soruşdu. Peyğəmbərimiz də:

“Bəli!” dedi. Ümmü Süleym həyəcanlanmışdı:

“Ya Rəsulallah, Allaha and içərəm ki, tuluq yağla dolub daşır,” – dedi.

Cavabında Peyğəmbərimiz ona:

“Ey Ümmü Süleym! Allahın öz peyğəmbərinə lütf etdiyi kimi, sənə də lütf etmiş olduğuna təəccüblənirsən? Ye və Allaha şükür et,” – deyə buyurdu.

İxlas və səmimiyyət necə gözəl bir nemətdir!.. Hər işin təməlində sevgi durur!.. Comərdlik dünya və axirətdə ən böyük səadətdir!.. Allahım, bizləri də dünya və axirət nemətlərinə qərq elə!.. Lütf və kərəminlə hər iki dünyada da nemətlərini bizə bəxş elə!..

Ümmü Süleym رضي الله عنها çox ədəbli və həyalı bir xanım idi. Lakin məhrəm mövzuları da Peyğəmbərdən ﷺ soruşmaqdan çəkinməzdi. Bir dəfə zehnini məşğul edən bir məsələni soruşmaq üçün Peyğəmbərin ﷺ yanına gəldi və soruşdu:

“Ya Rəsulallah! Yuxusunda, kişinin gördüyü suyu görən qadının qüsl alması vacibdirmi?”

Peyğəmbərimiz də buyurdu:

“Bəli, qadın yuxusunda nə isə görüb məni gələrsə qüsl almalıdır.”

Mömünlərin anası Ümmü Sələmə رضي الله عنها də orada idi: “Ya Rəsulallah! Qadının suyu olurmu?” – deyə soruşdu. Peyğəmbərimiz də:

“Qadının suyu olmasaydı, onda uşaq anasına oxşayırdı? Qadın da yaradılış, əxlaq və təbiət etibarilə kişilərdən fərqlənmir. Kişinin suyu tünd ağ rəngdə olur. Qadınınkı isə açıq ağdır. İki sudan hansı daha birinci gələrsə və ya digərinə qalib olarsa, uşaq onun sahibinə bənzəyər,” – buyurdu. (Bin Macə, Təharət: 107, Müsnəd, VI, 376)

Ümmü Süleym رضي الله عنها elminə etimad edilən şəxs idi. Əshabi-kiram bəzi məhrəm məsələləri ondan soruşardı. Zeyd bin Sabit ilə Abdullah bin Abbas رضي الله عنهم arasında baş verən bir məsələdə o, Hz. Safiyyə anamızın başından keçən hadisəni yada salaraq problemi həll etmişdi.

O, “Həcdə ziyarət təvafını həyata keçirən bir xanım adət gördüyündə vəda təvafını etmədən Mədinəyə dönə bilər” – demişdi. Hz. Safiyyə anamızın bu haldaykən, evə döndüyünü nəql etmişdi. (Müsnəd, VI, 431)

Ümmü Süleym رضي الله عنها sevgi və hörmət əlaməti olaraq Peyğəmbərimizin ﷺ üzərinə oturduğu döşəkçəni, namaz qıldığı əşyanı başqasına verməz, xatirə olaraq saxlayardı.

Bir gün Peyğəmbərimizin ﷺ evinə gəldi. Bir az söhbət etdikdən sonra divardan asılan dəridən düzəldilmiş tuluğu götürərək su içdi. Ümmü Süleym رضي الله عنها o su qabını Peyğəmbərimizin ﷺ ağzı dəydiyi üçün təbərrük niyyəti ilə xatirə olaraq saxladı.

Həmçinin bir gün, Peyğəmbərə baş çəkməyə gələndə Peyğəmbər ﷺ günorta qayluləsi edərək sağ tərəfi üstə uzanmışdı. Mübarək alnında tumurcuq

kimi tər damlaları var idi. Ümmü Süleym رضي الله عنها fürsəti əldən verəyib mirvari dənəsinə oxşayan tərləri yığmağa başladı. Təmiz bir əski parçası ilə alnını silir və qaba sıxırdı. Peyğəmbərimiz oyandı və:

“Ümmü Süleym, nə edirsən?” – buyurdu. Cavabında:

“Ya Rəsulallah! Bərəkət üçün alnınızdakı tər damlalarını toplayıram” – dedi. Peyğəmbərimiz də buna təbəssüm etdi.

Bir həcc mövsümündə həccə hazırlaşan Peyğəmbərimiz ﷺ ona: “Ey Ümmü Süleym! Bu il bizimlə həccə gedirsən?” – buyurdu. O da:

“Ya Rəsulallah! Ərimin iki minik heyvanı var. Birinə özü minib həccə gedəcək, digərindən isə xurma bağçasını sulamaq üçün istifadə ediləcək,” – dedi. Onun gedə bilməyəcəyini başa düşən Peyğəmbərimiz ﷺ könlünü almaq üçün:

“Onda Ramazanda bir umrə elə. Bu ayda edilən umrə mənimlə birlikdə edilən bir həcc kimidir,” – buyurdu.

Bir rəvayətə görə Peyğəmbərimiz onu analarımızla birlikdə Həccə apardı.

Ümmü Süleymin رضي الله عنها fəziləti, üstün əxlaqi keyfiyyətləri çoxdur. Onun Peyğəmbərin ﷺ sevgisiylə alışıb-yanan bir qəlbi vardı. Peyğəmbərimizə bütün varlığıyla, dərin sevgi və hörmətilə xidmət etmişdir. Onun uxrəvi dərəcəsi böyük idi. İki Cahan Günəşi Peyğəmbərimiz onun haqqında:

“Yuxumda cənnətə getdim. Qarşımda bir səs eşitdim. Bir də gördüm ki, Milhan qızı Rumeysa oradadır” – deyərək onun Allah və Rəsulu yanındakı sevgi və mərtəbəbəsinə işarə etmişdir.

Haqq-Təaladan şəfaətini diləyirik.

Amin...

Hz. Əlinin Anası

# Fatimə Binti Əsəd

radiyallahu anha

Fatima binti Əsəd ﵂ Həzrət Əlinin ﵁ anasıdır.

Sevimli Peyğəmbərimizə uşaqlıq çağında ürəkdən xidmət edən, onu bütün təhlükələrdən qorumağa çalışan, öz uşaqlarından öncə onun qarnını doyuran, üst-başını təmizləyən, saçlarını darayan şəfqətli bir ana...

Rəsulullahın ﷺ "anamdan sonra anam" iltifatına layiq olmuş bir xanım səhabə.

O, Məkkədə Haşım oğulları qəbiləsinə mənsubdur. Əmisi oğlu Əbu Talib ilə ailə qurmuşdur. Bu nikahdan Talib, Aqil, Cəfər və Əli adlı dörd oğlu, Ümmü Hani, Cümanə, Rayta və Əsma adlı dörd qızı dünyaya gəlmişdi.

O, sevimli Peyğəmbərimizə səkkiz yaşından etibarən analıq etmək şərəfinə nail olan bəxtiyar bir xanımdır. Babası Əbdüllmüttəlibin vəfatından sonra əmisi Əbu Talibin himayəsinə verilən varlıq

nuru Peyğəmbərimiz, Fatimə binti Əsədin əllərində onun isti, doğma münasibətilə, şəfqət və sevgi dolu nəzərləriylə böyümüşdür.

Fatima binti Əsəd Varlıq nuru bu yetimə anasının həsrətini çəkdirməyəcək tərzdə xidmət etmiş, şəfqət və mərhəmət nəzərlərini onun üzərindən əskik etməmişdir.

Ona qarşı davranışlarına və xidmətinə xüsusi diqqət göstərərək evini isti bir yuvaya çevirməyə çalışmışdır. Bu həssaslığı və xidmətdəki etinası onu Peyğəmbərimizin ﷺ bu iltifatına nail etmişdir. Belə ki, Rəsulullah onun haqqında:

“O mənim anam idi. Öz uşaqları ac olduğu halda birinci mənə yemək verərdi. Saçımı darayar, ana şəfqətinin istiliyini məndən əsirgəməzdi,” – buyurmuşdur.

❀

Sevimli Peyğəmbərimiz ailə qurana qədər bu isti ailə mühitində, əmisi və onun arvadının himayəsində gənclik dövrünü keçirdi.

Peyğəmbərimiz iyirmi beş yaşına çatdıqda Qureyş qadınlarının xanımı Hz. Xədicə ilə səadət dolu xoşbəxt bir ailə qurdu.

Qırx yaşına çatdıqda Allah-Təala onu özünə elçi seçdi. Cəbrayılı عليه السلام ona göndərərək yeni dinin əsasını bildirdi. Bütlərə sitayiş etməyi və şirkə düşməyi qadağan etdi.

Gözlənilən yeni din və son peyğəmbərin xəbərləri Məkkə küçələrində yayılmağa başladıqda

müşriklər onu himayəsiz buraxmağa, hətta öldürməyə cəhd etdilər. Bu zaman əmisi Əbu Talib və xanımı Fatimə binti Əsəd ona dərhal arxa oldular. Onu himayələri altına aldılar. Özləri İslama girmədilər. Lakin onu mübarizəsində sərbəst buraxdılar. İstədiyi kimi hərəkət etməsinə şərait yaratdılar. İslam artıq qəlbləri fəth edib müsəlmanların sayı artdıqda azğın müşriklər buna əngəl olmaq üçün hər cür zülmkarlıq etməyə başladılar. Hətta Peyğəmbərimizə belə əziyyət verməkdən çəkinmədilər. Kimsəsiz müsəlmanlara ağlagəlməz işgəncələr edərək onları İslamdan üz çevirməyə məcbur etmək istəyirdilər. Lakin iman nuruyla qəlbi aydınlanan heç bir müsəlmanı öz tərəflərinə çəkə bilmədilər.

Himayəsində olduğu əmisi Əbu Talib dünyasını dəyişəndə Peyğəmbərimizin işi daha da çətinləşdi. İşgəncə səviyyəsində əziyyət və cəfalara məruz qaldı. Bütün bu hadisələr Fatimə binti Əsədi çox kədərləndirirdi.

O, Peyğəmbərimizi ﷺ çox sevir və ona inanırdı. Lakin İslamı qəbul etdiyini açıq-aşkar deyə bilmirdi. Artıq vaxtı çatmışdı. Onun mübarizəsinə könül verdiyini elan edərək, o insana dəstək olmaq istəyirdi. Nəticədə kəlmeyi-şəhadət gətirərək İslamla şərəfləndi.

Peyğəmbərimiz ﷺ anası qədər sevdiyi əmisi arvadının müsəlman olmasına çox sevindi və ağrı-acısını bir az da olsa unutdu.

Hz. Fatimə binti Əsəd رضي الله عنها artıq Məkkədə yaşa-

ya bilməyəcəyinə qərar verdi və digər müsəlmanlar kimi Mədinəyə hicrət etdi. Allah yolunda mühacir olmaq səadətinə nail oldu. Orada oğlu Hz. Əli رضي الله عنه ilə Peyğəmbərimizin qızı Hz. Fatimənin رضي الله عنها toylarını elədi. Eyni evdə gəlin və qaynana birlikdə məsud bir həyat yaşadılar.

O, Peyğəmbərimizin: "Fatimə məndən bir parçadır," dediyi sevimli qızı Hz. Fatiməyə qaynana olmuşdu. O, bunu özü üçün böyük bir bəxtiyarlıq hesab edir və gəlininə qarşı olduqca həssas davranırdı. Ev işlərini öz aralarında bölüşmüşdülər. Hər biri öz üzərinə düşən işi gördükdən sonra bir-birinə kömək edirdilər. Sevinc və xoşbəxtlik dolu evdə gəlin-qaynana arasındakı məhəbbətin ən canlı nümunələri onların timsalında özünü göstərdi.

Onların bir-birlərinə qarşı sevgi və hörmət içində yaşamaları həm Peyğəmbərimizi ﷺ, həm də Hz. Əlini رضي الله عنه çox sevindirirdi. Evlərinə rəhmət və bərəkət yağırdı.

Peyğəmbərimiz əmisi arvadı Hz. Fatimənin رضي الله عنها yaxşılıqlarını heç vaxt unutmamışdı. Ona qarşı vəfa borcunu, ona olan qədirbilənliyini hər fürsətdə göstərməyə çalışırdı. Mədinədəki evində onu tez-tez ziyarət edər, hal-əhval tutar, ona köməklik göstərərdi.

Peyğəmbərimiz ﷺ bir övladın anasına göstərməli olduğu qulluqdan da artığını eləməyə cəhd göstərdi. Ona "ana" deyə müraciət elədi və elə o şəkildə də hər zaman onu yad elədi. Vaxtaşırı gü-

norta saatlarında onu ziyarət edər, yanında qaylulə edərdi.

Sevimli Peyğəmbərimizin Mədinəyə köçməsindən dörd il keçmişdi. Mübarək üzündən sevinc əskik olmazdı. Simasında hər gün səadət çiçəkləri açardı. Bir gün Peyğəmbərimiz əmisi arvadının vəfat xəbərini aldı. Həmin gün o qədər kədərləndi ki, “Bu gün anam vəfat etdi,” – dedi. Kürəkəni Hz. Əlinin رضي الله عنه anasına qarşı dərin sevgi və hörmətini bu şəkildə ifadə etdi.

Peyğəmbərimiz bir vəfa örnəyi olaraq həmin gün köynəyini çıxarıb Hz.Əliyə رضي الله عنه verdi ki, anasına kəfən eləsin. Onun cənazə namazını da özü qıldırdı.

Son bir sevgi və iltifat olaraq qəbrinə endi və yanında bir qədər uzandı. Gözyaşları içərisində qəbirdən çıxdı. Gözyaşı qəbri islatmışdı. Sonra Hz. Fatimə binti Əsədin رضي الله عنها cənazəsi qəbrə qoyuldu.

Əshabi-kiram o günə qədər belə bir şey görməmişdi. Təəccüblə Peyğəmbərimizə:

“Ya Rəsulallah! Sizin bu qadın üçün etdiklərinizi başqa kimsə üçün etdiyinizi görmədik,” – dedilər.

Peyğəmbərimiz ﷺ əshabına belə cavab verdi:

“O, mənim anamdan sonra anam idi. Əmim Əbu Talibdən sonra bu qadın qədər mənə yaxşılıq edən kimsə olmayıb.

Ona Cənnət geyimlərindən geyindirilsin deyə köynəyimi kəfən olaraq ona geyindirdim.

Qəbir həyatı ona asan və rahat olsun deyə də bir müddət qəbrində uzandım."

Hz. Fatimə binti Əsədin رضي الله عنها qəbri üzərinə torpaq atdıqdan sonra Peyğəmbərimiz sevimli anası üçün bu duanı etdi:

"Allah sənə mərhəmət etsin və səni xeyirlə mükafatlandırsın.

Anacan! Allah sənə rəhmət eləsin. Anamdan sonra mənə analıq etdin. Özün ac qalar, məni yedizdirərdin.

Özünün deyil, mənim üst-başıma fikir verərdin.

Ən yaxşı nemətləri özün yeməz, mənə verərdin. Bunu da ancaq Allah rizası üçün və axirət yurdunu düşünərək etdin.

Allah dirildən və öldürəndir. O heç ölməyəndir. Daim diri qalandır.

Ey Allahım! Anam Fatimə binti Əsədi bağışla. Qəbrini genişlət.

Mən Rəsulunun və məndən əvvəlki peyğəmbərlərinin haqqı üçün bu duamı qəbul eylə, ey mərhəmətlilərin ən mərhəmətlisi olan uca Rəbbim!"

Sevimli Peyğəmbərimiz anam dediyi Hz. Fatimə binti Əsədə رضي الله عنها qarşı son vəzifəsini yerinə yetirdikdən sonra təbəssüm etməyə başladı. Orada olanlara bu müjdəni verdi:

"Cəbrayıl عليه السلام gəldi və: "Bu qadın cənnətliklərdəndir," – deyə mənə xəbər gətirdi. Bundan başqa

Uca Allah mələklərindən yetmiş mininə bu qadının cənazə namazını qılmalarını əmr etdi. Mələklər də onun cənazə namazını qıldılar.”

Əlhəmdulillah!.. Əlhəmdulillah!.. Bu nə böyük səadət!.. Bu nə böyük xoşbəxtlik!.. Bu nə böyük vəfadarlıq, Bu nə böyük qədirbilənlik!.. Bu necə ürəkdən qulluq, necə də gözəl mükafatdır! Allahım, bizlərə də belə bir səadət nəsib et!..

Hz. Fatimə binti Əsəd رضي الله عنها Haşım oğulları soyundan ilk oğlan uşağını dünyaya gətirən saleh bir xanımdır. Eyni zamanda bu soydan gələn ilk xəlifənin anası olma şərəfinə nail olmuşdur.

Digər xəlifələrin anası isə sevimli Peyğəmbərizin qızı Hz. Həsənin anası Hz. Fatimeyi-Zəhra رضي الله عنها ilə Harun Rəşidin xanımı və xəlifə Əminin anası Zibeydədir. Allah hamısından razı olsun.

Haqq-Təala bizləri Hz. Fatimə binti Əsəd رضي الله عنها anamızla birlikdə cənnətində cəm eləsin. Amin...

Hz. Əlinin bacısı

# Ümmü Hani

— radiyallahu anha

Ümmü Hani رضي الله عنها Rəsulullahın ﷺ əmisi qızı, Hz. Əlinin رضي الله عنه bacısıdır.

Adı Mövludi-Nəbəvinin Merac bölməsində həmişə yad edilən bəxtiyar insan...

Evi, merac işığıyla aydınlanmaq şərəfinə nail olan bir xanım... Merac hadisəsini nəql edən ravilərdən...

O, Məkkədə doğulub böyümüşdür. Atası Əbu Talib, anası Fatimə binti Əsəddir. Hz. Əli, Aqil və Cəfərin رضي الله عنهم bacısıdır. Əsl adı Fahitə olub oğlu Haniyə görə Ümmü Hani ləqəbiylə məşhur olmuşdur.

Ümmü Hani mərd, cəsur və dürüst əxlaqa sahib bir xanım olmuşdur. Peyğəmbərimiz ﷺ səkkiz yaşından sonra əmisi Əbu Talibin evində qaldığı üçün onu yaxşı tanıyırdı. Onu öz bacısı kimi sevərdi. O da Peyğəmbərimizin şəxsiyyətini təqdir edər və ona çox hörmət edərdi. Onun heysiyətinə, gözəl davra-

nışlarına, nəzakətinə, şirin-şirin təbəssümünə, qüruruna, heybətinə, uşaq yaşındakı ciddiyyətinə və dürüstlüyünə heyran qalardı.

Qohumluq haqlarına riayət etməklə onu müşriklərə qarşı qorumağa çalışırdı. Özü İslama gələ bilməmişdi. Çünki əri müşriklərdəndi. Buna baxmayaraq sevimli peyğəmbərimizə dəstək verərdi. Çox vaxt Peyğəmbəri evində qonaq edər, onun üçün süfrə açardı. Onu gizli də olsa himayə etməyə, əlindən gəldiyi qədər qorumağa çalışırdı. Onun bu səmimi səyləri indi nəql edəcəyimiz hadisədə də açıq-aydın görünür.

İki Cahan Günəşi Taifdən qayıdanda Əbu Talibin məhəlləsində yaşayan Ümmü Haninin evinə qonaq gəlmişdi.

“Kimdir?” – deyə içəridən soruşanda Peyğəmbərimiz:

“Əmin oğlu Məhəmməddir. Qəbul edirsənsə qonaq gəlim.” – dedi.

Ümmü Hani: “Sənin kimi düz sözlü, əmin, şərəfli qonağa can fəda olsun.” – deyib onu içəri dəvət etdi. “Əvvəlcədən gələcəyinizi bildirsəydiniz bir şey hazırlayardım.” – dedi. Peyğəmbərimiz “Yemək-içmək istəmirəm. Ancaq bir yer göstər, kifayətdir.” – buyurdu.

Ərəblər üçün qapıya gələni qonaq etmək, onu qorumaq böyük şərəf idi. Gələn qonağın da Məkkədə düşməni çox idi. Ona görə də Allah Rəsulu Məhəmmədə ﷺ bir zərər gəlməməsi üçün Ümmü Hani o gecə atasının qılıncını götürüb bayıra çıxdı. Səhərə qədər evin ətrafında dolandı.

Bu ev indi Kəbə içinə daxil olmuşdur. Əbdüləziz qapısından girilib, nərdivanlarla Kəbəyə enilən yerdə Osmanlı çardaqları arasında qalmışdır.

O gün Peyğəmbərin ﷺ qəlbi çox qırılmışdı! Tək otağa çəkildi və səcdələrdə gözyaşı tökərək səhərə qədər Rəbbinə yalvardı. Xalqının imana gəlməsi üçün dua etməyə başladı. Çox yorğun olduğu üçün həsirin üstündə onu yuxu aparmışdı. Məhz o anda qəlbi qırıq, əldən düşmüş vəziyyətdə olarkən Rəbbindən dəvət gəldi.

Cəbrayıla عليه السلام: “Get, Həbibimi gətir!” əmri verildi. “Cənnəti, cəhənnəmi göstər. Ona əziyyət edənlərin gedəcəyi yeri, onu incidənlərin çəkəcəyi əzabı görsün.” – deyildi.

Üstünlərin üstünü Peyğəmbərimizi təsəlli etmək və mənəvi gücünü artırmaq üçün dərgahi-uluhiyyətinə yüksəltdi. Meraca çıxartdı.

Bütün səltənətini, ərşini, fərşini, kürsisini, lövhünü, qələmini və sonsuzluq aləmində Camalını ona seyr etdirərək qəlbinə sükunət verdi. Ona qarşı edilənlərə fikir verməməyi, İslamı təbliğə bezmədən, yorulmadan davam etməsi, tövhid mübarizəsini tamamlaması üçün ona yeni güc verdi. Allah-Təalanın sonsuz gücünün onunla olduğunu göstərdi.

Rəbbimizin bu lütfüylə Meracdan qayıdan Peyğəmbərimizə yeni bir enerji gəldi. O ruhən gücləndi. Tövhid mübarizəsində əzmi artdı. Ümmətinə beş vaxt namazı Merac hədiyyəsi olaraq gətirdi. Dan yeri ağarmağa yaxın yenidən əmisi qızı Ümmü Ha-

ninin evinə gəldi. Başına gələnləri, gördüklərini ona bir-bir danışdı.

❀

Ümmü Hani o gecə olub-keçənləri belə nəql edir:

“İsra hadisəsi Rəsulullah ﷺ mənim evimdə olarkən baş verdi. O gecə Peyğəmbər mənim evimdə qalmışdı. Yorğun olduğuna görə istirahət edirdi. Səhər açılanda bizə başından keçənləri danışdı:

“Ey Ümmü Hani, bu gecə məni götürüb Beyti-Maqdisə apardılar. Orada namaz qıldım. Sonra göylərə çıxarıldım. Cənnət, cəhənnəm və bütün aləm mənə göstərildi. Sonra döndükdə ümmətimə namaz hədiyyəsi ilə göndərildim.” Bu zaman Ümmü Hani:

“Ey Allahın Rəsulu! Bunu insanlara danışma. Sənin yalan dediyini iddia edər və sənə əziyyət verərlər...” – dedi. O isə baş verənləri camaata deyəcəyini söylədi və bayıra çıxdı. Ümmü Hani arxasından həbəşistanlı xidmətçisini göndərdi. “Onun camaata nə söylədiyini, camaatın da ona nə deyəcəyini dinlə və mənə xəbər ver,” – dedi. Məqsədi, Peyğəmbərin ﷺ incidilməsinin qarşısını almaq və düşmənlərə qarşı tədbir görmək idi.

O, hələ İslamla şərəflənməmişdi. Lakin Allah Rəsuluna bu cür dərin hörmət bəsləyirdi. Onun bu davranışlarından əmisi oğluna, onun peyğəmbərliyinə və dəvətinə qarşı münasibətinin dərəcəsi və səmimiyyəti ortaya çıxırdı. Buna görə də onu həmişə qiyabi olsa da qorumağa çalışırdı.

Müsəlmanlar Mədinəyə hicrət edəndə Ümmü Hani Məkkədə əri və uşaqlarıyla qaldı. Mədinədən gələn xəbərlərə sevinir və Məkkəyə qayıdacaqları günü gözləyirdi.

O, Məkkənin öndə gələn müşriklərindən olan Hübeyrə bin Amr ilə evlənmişdi. Ondan Amr, Hani, Yusif və Cadə adında dörd övladı olmuşdu.

Əri Hübeyrə azğın bir İslam düşməni idi. İslamın nurundan daim qaçdı və müşriklərin sırasında yer aldı. Məkkənin fəthi günü səhralara düşdü və Nəcran istiqamətində gedərək izini itirdi.

❁

Məkkənin fəthi günü Peyğəmbər ﷺ bəzi adlar çəkərək onların qanını halal saymışdı. Haris bin Hişam da bunlardan biriydi. Ümmü Haninin Rəsulullaha ﷺ olan sevgisini bildiyi üçün Haris onun himayəsinə sığınmaq istədi və Ümmü Haninin evinə sığındı. Bunu görən Hz. Əli رضي الله عنه Haris bin Hişamı öldürmək üçün arxasınca gəldi. Bu zaman bacısı onun önünə keçdi və: “Ey anamın oğlu! Mən ona sığınacaq vermişəm.” – dedi və himayəsinə götürdüyünü söylədi.

Hz. Əli bu sözlərə qulaq asmadı. Qılıncını qınından çıxartdı. Hücum etmək istəyəndə bacısı Ümmü Hani onun üstünə atılıb əllərindən tutdu və: “Mən ona sığınacaq vermişəm.” – dedi. Bu zaman Hz. Əli bir daha ayağını yerdən qaldıra bilmədi. Bacısından uzaqlaşmaq istədikdə Rəsulullah ﷺ onların yanına gəldi. Ümmü Hani:

“Ya Rəsulallah! Mən Haris bin Hişamı himayə-

mə götürmüşəm. Əli isə onu öldürmək istəyir.” – dedi. Peyğəmbərimiz onun bu həmiyyətpərvərliyi qarşısında:

“Ey Ümmü Hani! Sənin himayə etdiyini biz də himayə edir, sənin aman verdiyinə biz də aman verərik. Lakin Əlini hirsləndirmə. Allah-Təala, o hirslənəndə qəzəblənir. Burax onu.” –buyurdu.

Bu sözdən sonra Ümmü Hani qardaşı Əlini buraxdı. Peyğəmbərimiz zarafatla buyurdu:

“Ey Əli! Bir qadın sənə qalib gəldi.” Əli ﷺ də:

“Ya Rəsulallah! Allaha and olsun ki, ayaqlarımı yerimdən tərpədə bilmirdim,” – dedi.

Ümmü Hani belə mərd və cəsur idi. Onun bu qəhrəmanlığına qardaşı Əlinin ﷺ sözləri ən gözəl şahiddir. Bu üstün əxlaqi keyfiyyətlərə malik qadının İslamla şərəflənməsi Məkkə Fəthi gününə təsadüf etdi.

O, ərinin itkin düşməyini fürsət bilib Peyğəmbərin hüzuruna gələrək kəlmeyi-şəhadət gətirdi. Qəlbini İslamın nuru ilə doldurdu. Səhabəlik şərəfinə nail oldu. Sevgi dolu qəlbini İslamın nurlu üfüqlərinə açdı. Peyğəmbərimizə ﷺ tam təslim oldu. Həyatının geri qalan hissəsini itaətkar, sevgi dolu bir İslam xanımı olaraq keçirdi.

❀

Ümmü Hani özünü ibadətə vermişdi. Çox namaz qılar, oruc tutardı. Nafilə oruc tutmağı çox sevərdi. Peyğəmbərimiz də onu çox tərifləyər və vaxt tapdıqca ziyarət edərdi.

Bir gün Ümmü Hani رضي الله عنها nafilə oruc tutmuşdu. Peyğəmbərimiz ona baş çəkdi. O da bir kasa bal şərbəti ikram etdi. Peyğəmbər ﷺ içdikdən sonra geri qalanını ona uzatdı. Oruclu olmasına baxmayaraq Ümmü Hani رضي الله عنها dərhal kasanı aldı və şərbəti içdi.

Bu bir fürsət idi. Bunu dəyərləndirmək ən ağıllı hərəkət idi. Çünki Peyğəmbərimizin artığı insana şəfa, feyz və bərəkət idi. Bu həm də ona olan sevgiyə işarə idi. Ümmü Hani رضي الله عنها də Peyğəmbərimizə olan sevgi və hörmətini bu hərəkətiylə göstərmiş oldu.

O, Peyğəmbərimizin ona etdiyi iltifatlar barəsində bunları deyir:

“Məkkənin fəthi günü, evimi şərəfləndirən Hz. Peyğəmbər ﷺ məndən:

“Yeməyə bir şey varmı?” deyə soruşdu. Mən də:

“Xeyr, ya Rəsulallah, sadəcə quru çörəklə sirkə var,” – dedim.

“Gətir onu!” buyurdu və belə iltifat etdi:

“Ey Ümmü Hani! Sirkə çox yaxşı yavanlıqdır. Sirkə olan ev yavanlıq sıxıntısı çəkməz.”

Ümmü Hani رضي الله عنها Rəsuli-Əkrəmdən az sayda hədis də rəvayət etmişdir. Onlardan birini Ümmü Hani (Fahitə binti Əbu Talib) رضي الله عنها belə nəql edir:

Məkkənin fəthi günü Nəbinin ﷺ yanına getmişdim. Rəsuli-Əkrəm yuyunur, Fatimə də adam-

lar görməsin deyə örtü tuturdu. Mən salam verdim. Peyğəmbərimiz:

– Kimdir o? – dedi. Mən də cavab verdim:

– Ümmü Hanidir.

Müslim bu hədisin davamında belə rəvayət edir:

Ümmü Hani gəlib salam verəndə Peyğəmbərimiz: “Bu qadın kimdir?” – deyə soruşmuş, o da: “Əbu Talibin qızı Ümmü Hanidir,” – deyə cavab verdikdə Peyğəmbər ﷺ “Xoş gəlmisən, Ümmü Hani,” – dedikdən sonra yuyunmağa davam etmişdir. (Riyazussalihin, Tərcümə və şərhi, c. 4, s. 444, 465)

❁

Ümmü Hani رضي الله عنها mövludi-nəbi mənqibələrinin Merac bölməsində hər zaman adı çəkilən bəxtiyar bir xanım səhabədir. Süleyman Çələbi Merac bölməsində onun adını belə yad edir:

*“Tarfətul ayn içrə ol Fəxri Cahan*
*Ümmü Hani evinə gəldi həman*

*Hər nə baş verdiysə sərtəsər*
*Hamısın əshabına verdi xəbər*

*Dedilər ey qibleyi İslamı-din*
*Mübarəkdir Meracı güzin*

*Biz hamımız qullarıq sən şəxsin*
*Könlümüz içində rövşən mahsın*

*Ümmətin olduğumuz dövlət yetər*
*Xidmətin qıldığımız izzət yetər.”*

Ümmü Hani ﵂ qardaşı Hz. Əlidən ﵁ sonra hicri 40, miladi 661-ci ildə vəfat etdi. Haqq-Təala şəfaətinə layiq etsin. Amin...

Hz. Ömərin Bacısı

# FATİMƏ BİNTİ XƏTTAB

radiyallahu anha

Fatimə binti Xəttab رضي الله عنها həyat yoldaşı ilə birlikdə İslamla şərəflənən ilk müsəlmanlardandır.

İmanındakı qərarlılığı, səbir və dəyanəti ilə qardaşı Ömərin İslama gəlməsinə vəsilə olan bir xanımdır.

Həyat yoldaşı Səid bin Zeyd رضي الله عنه həyatda ikən cənnətlə müjdələnən bəxtiyarlardandır.

Həyat yoldaşıyla birlikdə Allah və Rəsulu yoluna başını qoymuş səmimi, fədakar bir xanım səhabədir.

O, Məkkədə dünyaya gəlib. Qureyşin Mahzumi qoluna mənsubdur. Soy baxımından seçkin bir qəbiləsi var. Atası Xəttab bin Nüfeyl, anası Hantəmə binti Haşimdir. Ümeymə onun ləqəbidir.

Xəttabın evində böyüyən Fatimə yetkinlik yaşına gəlincə qohumlarından, əmisi Amr bin Nüfeylin oğlu Səid bin Zeydlə evləndi.

Sevgi və hörmətə bağlı, qarşılıqlı anlayış içərisində bir həyat sürürdülər. Yeni din və son peyğəmbərin gəldiyi xəbəri onlara da çatdı.

Həyat yoldaşı Səid bin Zeyd Məkkədə məşhur qılınc ustası Habbab bin Ərət ilə səmimi dost idi. Tez-tez onun yanına gedib-gəlirdi. Məkkə küçələrində, camaat arasında gəzən xəbərləri ondan alırdı. Xüsusilə son peyğəmbərə dair deyilənlər barəsində dəqiq məlumatları da ondan eşitdi. Allahdan başqa ilah olmadığını və bütlərə sitayiş etmənin də ağıllı bir iş olmadığını öyrəndi.

Bir gün Habbab رضي الله عنه dostu Səidi razı salıb Allah Rəsulu ilə görüşdürərək İslamla şərəflənməsinə vəsilə oldu.

Fatimə binti Xəttab da həyat yoldaşı Səid bin Zeydin nəsihətləriylə yeni dini və son peyğəmbəri öyrəndi və heç tərəddüd etmədən İslama təslim oldu.

Evləri İslamın nuruyla dolan ailənin sevinc və səadəti qat-qat artmışdı. Ər-arvad dini yaşamaqda bir-birinə dəstək olur və bir yerdə Allaha ibadət edirdilər.

Habbab رضي الله عنه hər gün evlərinə gəlir, onlara Quran öyrədirdi. Qəlblərindəki iman ağacının inkişaf etməsi üçün onlara yeni gələn ayələri oxuyur və İslamı başa salırdı. Sevimli Peyğəmbərimizin əxlaqi gözəlliklərini və vəsflərini nəql edirdi.

Hz. Fatimə ilə həyat yoldaşı Səid رضي الله عنه, hər ikisi

də Allah və Rəsulunun yoluna baş qoymuş fədailər idilər. Ancaq müsəlman olduqlarını gizli saxlayırdılar. Çünki Ömərin pislik etməyindən çəkinirdilər. Hz. Fatimənin qardaşı olan Ömər Qureyşin ən cəsur, zəhmli və qorxusuz adamıydı. Təkəbbür və qürurundan yanına yaxınlaşmaq olmazdı. Güclü, qüvvəli bir adam idi. Məkkənin qoluzorlularından idi. Buna görə hamı ondan qorxardı. Qılıncı iti idi. Qureyşli müşriklər onu Peyğəmbərimizin amansız düşməni olaraq öz cəbhələrində saxlamağa çalışırdılar. Bacısı və onun həyat yoldaşının müsəlman olduğundan xəbəri yox idi.

Gün keçdikcə İslam yayılırdı. Məkkə küçələri hər gün yeni müsəlman olanların xəbəriylə cingildəyirdi. Azğın müşriklər kimsəsiz qəriblərə və qullara ağlagəlməz işgəncələr edirdi. Bu amansız hərəkətləriylə İslamın yayılmasının qarşısını almaq istəyirdilər. Amma heç kimi də geri çevirə bilmirdilər. Hər biri bir iman qalası olan əshabı-kiram, qızğın qumlar üstündə köz parçası kimi qayaların vücudlarını dağlamasına belə fikir vermir, Allah və Rəsulundan əsla imtina etmirdilər.

Gün keçdikcə iman nuru yeni könüllərə girir, İslam yeni könüllər fəth edirdi. Müsəlmanların sayının artması isə müşrikləri həddindən artıq qəzəbləndirirdi. Buna bir çarə tapmaq, İslamın qarşısını almaq məqsədilə Qureyşin irəli gələnləri Darun-Nədvədə yığışdı. Ömər də oradaydı. Danışıqlar nəticəsində azğın müşriklər sevimli Peyğəmbərimizi öldürmək qərarına gəldilər. Bu işi həyata keçirəcək adama da böyük vədlər verdilər.

Gözləri qəzəbindən qıpqırmızı olan Ömər ayağa qalxdı və bu vəzifəni öhdəsinə götürdü. Dərhal oradan ayrılıb evinə gəldi. Qılıncını qurşanıb vaxt itirmədən bayıra çıxdı.

Kin, təkəbbür və qəzəbindən sanki yeri deşən sərt addımlarıyla yeriməyə başladı. Hz. Məhəmmədin ﷺ Ərkamın evində olduğunu öyrəndi.

O tərəfə yönələndə qarşısına Nuaym çıxdı və bacısıyla kürəkəninin müsəlman olduğunu söylədi.

Buna çox qəzəblənən Ömər əvvəlcə onların “dərsini vermək” üçün bacısıgilin məhəlləsinə tərəf yönəldi.

Bu vaxt bacısı ilə həyat yoldaşı yeni nazil olan ayələri Habbabdan رضي الله عنه öyrənirdilər. Bayırdan Ömərin gəldiyini gördükdə oxumalarını kəsdilər. Habbabı və oxuduqları ayələri gizləyərək evin qapısını açdılar.

Ömər bütün hiddətiylə içəriyə girdi. “Eşitdiyim səs nə idi?” – dedi və qəzəblə: “İkinizin də Məhəmmədin dininə girdiyi mənə xəbər verildi,” – deyərək Səidin رضي الله عنه üstünə yeridi. Bacısı araya girməyə çalışdı. Ömər ikisini də qan içində yerə sərdi.

Artıq olan olmuşdu. Gizlədikləri imanı hayqırma vaxtı gəlmişdi. Bir iman fədaisi olan Hz. Fatimə رضي الله عنها o günə qədər heç cəsarət edə bilmədiyi bir hərəkət etdi. Qarşısında hamının titrədiyi, qorxusuz qəhrəman deyə çağrılan Ömərə belə səsləndi:

“Ömər!.. Ömər!.. Sən qadın döyməkdən utanmırsanmı?

Bəli!.. Biz artıq müsəlman olmuşuq. Allaha və Rəsuluna iman etmişik.

Biz inanırıq ki, Allahdan başqa ilah yoxdur və Məhəmməd də Allahın Rəsuludur. Artıq nə istəyirsən elə, dönmərik," – deyərək qardaşı Ömərin özünə gəlməsinə səbəb oldu.

Hz. Fatimənin bu qərarlılığı Öməri düşünməyə sövq etdi. Bacısının bu cəsarəti onun qəlbini yumşaltdı və:

"Bir az əvvəl sizdən eşitdiyimi gətirin. O nədir? Bir mən də baxım," – dedi. Hz. Fatimə:

"Sənin ona bir şey etməyindən qorxuruq," – dedi. Ömər:

"Qorxmayın!" – dedi və oxuyub geri qaytaracağına dair ilahlarına and içdi.

Bu vəziyyət Hz. Fatiməni ümidləndirdi. Qardaşının müsəlman olacağını umdu. Dərhal oxuduqları Quran səhifələrini gətirdi.

Taha surəsinin ilk ayələri nazil olmuşdu. Bunları oxumağa çalışdı. Bu ilahi kəlamın möhtəşəmliyinə və mənasının dərinliklərinə daldı. Üzündə hidayət nurları parıldamağa başladı və qəlbinin dərinliklərindən gələn bir səslə:

"Bu nə şərəfli, nə möhtəşəm söz!.." – dedi.

Oxuduğu ayələr ona çox təsir etmişdi. Quranın zəngin və dərin mənası sanki onu əritmişdi. Artıq Ömərin müsəlman olma vaxtı gəlmişdi. Kainatı əhatə edən Rəbbimiz onun qəlbini də rəhmətiylə əhatə etdi. Ona hidayətini nəsib etdi. Ömərin ağlını, qəlbini, könlünü aydınladan bu ayələrin məalı belə idi:

**"Bismillahir–rəhmanir-rəhim!**

**Ta, Ha!**

**Biz Quranı sənə məşəqqət çəkməyin üçün nazil etmədik! (Peyğəmbər ayaq üstə, barmaqlarının ucunda durub o qədər namaz qılmışdı ki, mübarək qıçları şişmişdi).**

**(Biz onu Allahın əzabından) qorxan bir kimsəyə yalnız öyüd-nəsihət olaraq (göndərdik).**

**O, yeri və uca göyləri yaradandan (Allahdan) nazil olmuşdur.**

**Rəhman ərşi yaradıb hökmü altına almışdır (ərşə hakimdir).**

**Göylərdə və yerdə, onların arasında və torpağın altında (yeddi qat yerdə) nə varsa (hamısı) Onundur.**

**(Ey insan!) Sən (dua edərkən) səsini ucaltsan da (ucaltmasan da, heç bir fərqi yoxdur). Çünki Allah sirri də, sirdən daha gizli olanı da (məxfini də) bilir. (Allah nəinki qəlblərin sirlərindən, hətta ani olaraq ürəklərdən keçən gizli niyyətlərdən də xəbərdardır. Buna görə də özünü yorub uca səslə dua, yaxud zikr etmə. Əsas məsələ Allaha edilən ibadətin səmimiyyətidir).**

**Allahdan başqa heç bir tanrı yoxdur. Ən gözəl adlar (əsmayi-hüsna) yalnız Ona məxsusdur!**

**Musanın hekayəti sənə gəlib çatdımı? (Yaxud Musanın əhvalatı artıq sənə gəlib çatdı).**

**(Musa Şüeybi Mədyəndə qoyub anasına və qardaşına baş çəkmək üçün zövcəsi ilə birlikdə**

**Misirə gedərkən Tur dağının qərbində yerləşən Tuva vadisində gecə vaxtı bir uşağı dünyaya gəlmişdi. Onlar zil qaranlıq gecədə işıqsız qalıb yolu itirmişdilər). O zaman (Musa qarşıda) bir od görüb ailəsinə belə demişdi: "Siz (yerinizdə) durun. Mənim gözümə bir od sataşdı. Bəlkə, ondan sizə bir göz gətirdim, yaxud odun yanında bir bələdçi tapdım!"**

**(Musa) odun yanına yetişdikdə belə bir nida gəldi: "Ya Musa!**

**Mən, həqiqətən, sənin Rəbbinəm. Nəleynini çıxart, çünki sən müqəddəs vadidə - Tuvadasan!**

**Mən səni (peyğəmbər) seçdim. (Sənə) vəhy olunanı dinlə!**

**Mən, həqiqətən, Allaham. Məndən başqa heç bir tanrı yoxdur. Mənə ibadət et və Məni anmaq üçün namaz qıl!**

**O saat (qiyamət saatı) mütləq gələcəkdir. Mənim onu az qala açmağım gəlir ki, hər kəs etdiyi əməlin əvəzini (mükafatını, yaxud cəzasını) alsın. (Və ya: Mən onu az qala Özümdən belə gizlədirəm; və ya: Mən onu Özümdən başqa hamıdan gizlədirəm. Yaxud: Mən onu zorla gizlədirəm, çünki qiyamətin yaxınlaşması hər addımda özünü müxtəlif əlamətlərlə büruzə verir).**

**Ehtiyatlı ol ki, (qiyaməti) danıb nəfsinin istəklərinə uyan bir kəs səni ona inanmaqdan yayın-**

**dırmasın, yoxsa məhv olarsan!** (Taha, 1-16)

❁

Ömərin sözlərindən qəlbinin yumşaldığını anlayan Hz. Habbab رضي الله عنه gizləndiyi yerdən çıxdı və:

“Ya Ömər! Allah Rəsulunun etdiyi duadan Allahın sənə üstünlük verəcəyini ümid edirəm. Çünki mən dünən Allah Rəsulunun ﷺ:

“Allahım, bu dini Əbul-Hakəm bin Hişam və ya Ömər bin əl-Xəttabla qüvvətləndir,” – deyə dua etdiyini eşitdim. Allahdan qorx, ya Ömər!” – deyərək ona iman təlqin etdi.

Ömərin içində tufanlar qopurdu. İman işığı qəlbinə girmişdi. Qəlbi İslamın nuruyla aydınlanmışdı. “Allah Rəsulu ﷺ haradadır?” – deyə soruşdu. Cavab alınca durub oraya getdi. Hüzura qəbul edilən Ömər kəlməyi-şəhadət gətirərək İslamla şərəfləndi.

❁

Hz. Fatimə binti Xəttabın رضي الله عنها bu qorxusuz davranışı, iman gücüylə təkəbbürlü və cəlallı Ömərə meydan oxuması və onun imandakı səbir və dəyanəti, sağlam duruşu tarixin qəhrəmanlıq səhifələrinə keçməsinə səbəb oldu. Allah ondan razı olsun.

Bu nə qəhrəmanca bir duruş!.. Bu nə sağlam bir iman!.. Bu nə qərarlılıq!.. Nə dəyanət!.. Allahım, hamımıza belə şəxsiyyətli və qəhrəmanca davranışlar nümayiş etdirə bilməyi nəsib et!..

Həyat yoldaşı ilə birlikdə Mədinəyə hicrət edən Fatimə binti Xəttab رضي الله عنها həyatı boyu da belə fəzilətli

və nümunəvi davranışlar nümayiş etdirdi. Qardaşı Hz. Ömərin ﷺ ədalətlə hökm sürdüyü səadət dövrünü gördü. Onun xəlifəliyi dövründə də dünyasını dəyişdi. Haqq-Təaladan şəfaətini niyaz edirik. Amin...

Qəhrəman Bir Cihad Însanı

# Nəsibə Xatın

—— radiyallahu anha

Ümmü Ümarə رضي الله عنها “Nəsibə xatın” deyə çağrılan məşhur xanım qəhrəmanlardandır. Allah Rəsuluna ﷺ Akabədə ilk beyət edən Mədinəli iki xanım səhabədən biridir.

Müharibə meydanlarında göstərdiyi qəhrəmanlıqlarıyla tanınan bir şəxsiyyətdir.

İki oğlu və həyat yoldaşı ilə birlikdə Uhudda müşrik oxlarına qarşı Peyğəmbərimizi qorumaq üçün can-başla vuruşan bir cihad insanıdır.

Sevimli Peyğəmbərimizə cənnətdə qonşu olan, dünyada da xoş sözlərinə, dualarına layiq olan qeyrətli, cəsur, fədakar bir xanım səhabədir.

O, mədinəli olub, Həzrəc qəbiləsinə mənsubdur. Mazin bin Nəccar oğullarındandır. Anası Rəbab binti Abdullahdır. Atası Kab bin Amrdır. Əsl adı Nəsibədir. Ümmü Ümarə ləqəbidir.

İlk evliliyi Yəsribdə Zeyd bin Asim ilə olub. Ab-

dullah və Həbib adında iki oğulları oldu. Bu ərəfədə gözlənilən son peyğəmbərin gəldiyi xəbəri eşidildi. Məkkə səmaları İslamın nuruyla aydınlanmağa başlamış, Yəsribə də bu nur çatmışdı. Nəsibə ilə həyat yoldaşı Zeyd də gənc müəllim Musab bin Umeyr رضي الله عنه vasitəsiylə bu nura qovuşmuşdular. Onların İslamla şərəflənməsi belə oldu:

"İslamın ilk günləri idi. Yəsribə Quran müəllimi olaraq Musab bin Umeyr رضي الله عنه gəlmişdi. Həyat yoldaşı Zeyd ondan təsirlənmiş və yeni dinə girmişdi. Xanımının da İslamın nuruna qovuşmasını istəyirdi.

Nəsibə xatın ilə həyat yoldaşı Zeyd bin Asim xoşbəxt bir yuva qurmuşdular. Evlilikləri çox gözəl keçirdi. Bir axşam həyat yoldaşı Zeyd sevincək bir vəziyyətdə evə qayıtdı. Sevincindən yerə-göyə sığmırdı. Xanımına vacib bir xəbər verəcəkdi. Bu sevincini paylaşmaq üçün söhbətə başladı. Sevincinin səbəbini ona belə başa saldı:

"Nəsibə! Yəsribin liderləri ilə birlikdə bir toplantıya qatıldım. Abdullahın oğlu Məhəmmədin şəhərimizə göndərdiyi Quran müəllimi Musab bin Umeyrin söhbətini dinlədim.

O şirindilli, gülərüzlü cavan bir oğlandır. Danışması, gülməsi və davranışlarıyla o nümunəvi bir insandır. Bizləri Allaha və Peyğəmbərinə inanmağa dəvət etdi.

Məhəmmədin bütün insanlığa Allah tərəfindən peyğəmbər göndərildiyini, cahillik qaranlığından aydınlığa, səadətə çağırdığını, haqsızlığın əleyhinə olduğunu başa saldı. Dürüstlüyündən bəhs etdi. Hə-

yatında heç yalan danışmadığını, heç kimi incitmədiyini, heç kimin haqqını tapdamadığını, əmin, sadiq bir şəxs olaraq tanındığını söylədi. Bütlərə sitayiş etməyin ağıllı bir iş olmadığını, onları ilah qəbul etmənin çox mənasız olduğunu açıqladı. Özünə bir faydası toxunmayan və gələn zərərin də qarşısını ala bilməyən bir varlıqdan necə kömək umula bilər, axı? O, bu cür ağıllı və məntiqi izahlarla bizləri yeni din olan İslama çağırdı."

Zeyd həyəcanla toplantıdakı söhbətlərini nəql etməyə çalışdı. Arada xanımı Nəsibə:

"Bu Məhəmməd, Vəhbin qızı Əminənin oğlu deyilmi?" – deyə soruşdu. Zeyd:

"Bəli, Əminənin oğludur." – dedi.

Belə olduqda xanımı: "Məhəmmədlə aramızda qohumluq var. Çünki soylarımız Nəccar oğullarında birləşir," – dedi. Zeyd:

"Düz deyirsən, Nəsibə!" – dedi. Xanımı:

"Qureyş bu işə nə deyir?" – deyə soruşdu. Zeyd:

"Mən də bunu deyəcəkdim," – dedi və belə davam etdi:

"Qureyş ona qarşı çıxıb. Hakimiyyətlərinin sarsılmasından qorxduqları üçün onun mübarizəsinə sərt reaksiya veriblər. Ancaq o bezmədən mübarizəsini təbliğ etməyə davam edib." – dedi.

Ağıllı və fərasətli Nəsibə xatın həyat yoldaşından: "Onun mübarizəsinin düzgünlüyü haqqında nə düşünürsən?" – deyə soruşduqda Zeyd bu cavabı verdi:

"Qureyşin ona təklif etdiyi cazibədar təklifləri, rəhbər vəzifəni, var-dövləti, evliliyi geri çevirərək onları qəbul etməməsi insanın içində şübhə buraxmır. Mən onun dürüst və səmimi olduğuna dəqiq inanıram," – dedi. Nəsibə:

"Onun heyranı olmusan, Zeyd!" – deyincə, o da:

"Nəsibə! Onun sadəcə heyranı deyil, eyni zamanda ona iman gətirən biri oldum. Allahdan başqa ilah olmadığına və Məhəmmədin Allahın elçisi olduğuna şəhadət etdim," – dedi.

Bu səmimi və ürəkdən gələn sözlər, bu qətiyyət, bu ürəyiaçıqlıq, bu sevinc, bu qərarlılıq Nəsibə xatının gözlərindən yaşların boşalmasına səbəb oldu. Həyat yoldaşının yeni üfüqlərə açıldığını, könülləri aydınladan ilahi nura qovuşduğunu, yeni dinə girdiyini görən Nəsibə də o an kəlmeyi-şəhadət gətirdi. Yəsribdə İslamla şərəflənən xanımların ikincisi oldu. Digər xanım səhabə də Əsma binti Amr bin Adiyydir.

Nəsibə xatın və Zeyd رضي الله عنه ər-arvad eyni inanca sahib olmağın sevincini yaşadılar. Onlar həm İslamı yaşayan, həm də bu dini başqalarına təbliğ edən müsəlmanlardan biri oldular.

Həcc mövsümündə Allah Rəsuluyla görüşmək üçün Məkkəyə getməyə hazırlaşan yəsribli müsəlman qrupa qatılmağa qərar verdilər.

Musab bin Umeyr رضي الله عنه rəhbərliyində 72 mədinəli müsəlman, İki Cahan Günəşi Peyğəmbərimizi öz yurduna dəvət etmək üçün Həcc mövsümündə Məkkəyə gəldilər.

Aqəbədə ikinci dəfə görüşən mədinəli müsəlmanlar Allah Rəsulunu ﷺ öz canları və malları kimi qoruyacaqlarına söz verdilər. Tək-tək bu söz üzrə beyət etdilər. Allah və Rəsulu yolunda hər şeylərini fəda edəcəklərini öhdələrinə götürdülər. Nəsibə və həyat yoldaşı Zeyd ؓ də bu beyət edənlər arasında idi.

Mədinəli müsəlmanlar yeni bir həyəcan, yeni bir ruhla Yəsribə döndülər. Nəsibə xatın bütün vaxtını, gücünü ev işlərinə, uşaqlarının İslam tərbiyəsi ilə yetişməsinə və ətrafındakı insanları Allaha və Rəsuluna dəvətə xərcləyirdi.

İslamı yaşama istiqamətində göstərdikləri diqqət və qərarlılıqları, tanıdıqları başqa insanlara təbliğdəki həyəcan və sevincləri onları İslamın bir könüllüsü halına gətirmişdi. Peyğəmbərimizin ﷺ öz yurduna hicrət etməsini həsrətlə gözləyirdilər.

Çox keçmədən İki Cahan Günəşi Peyğəmbərimiz Yəsrib torpaqlarına ayaq basdı. Yəsribli müsəlmanlar son dinin son peyğəmbərinə, vəhyin qaynağına qovuşmuş oldu. Hamısının ürəyində böyük bir sevinc və səadət vardı.

Allah Rəsulu ﷺ Hicaz ölkəsində Yəsribi yeni dinin dəvət mərkəzi etmişdi. İslamın nurunu buradan digər ölkələrə yayacaqdı. Artıq Yəsrib Mədinə olmuşdu. Mədinəli müsəlmanlar da bundan böyük şərəf duymuşdu. Canlarıyla, mallarıyla Allah və Rəsulu yolunda çalışmaq üçün söz vermişdilər.

Qureyşin zülmündən qaçan müsəlmanlar Mə-

dinədə güclərini birləşdirmş və Bədirdə Məkkə müşriklərinə qarşı ilk zəfəri əldə etmişdilər. Nəsibə xatının oğlu Abdullah da gənc bir igid olaraq Bədir döyüşünə qatılmışdı. Onların ailəliklə Uhud günü göstərdikləri fədakarlıq və qəhrəmanlıqlar dillərə dastan olmuşdu. Nümayiş etdirdikləri igidlik və qəhrəmanlığı Nəsibə xatın belə nəql edir:

“Uhuda getmişdim. Müsəlmanların nə vəziyyətdə olduğuna baxmaq istədim. Yanıma bir tuluq su aldım, Allah Rəsulunun ﷺ yanına qədər getdim. Qalibiyyət müsəlmanların əlində idi. Ancaq çox keçmədən Qureyş oxçuları tərəfindən mühasirəyə alındıq. Allah Rəsuluna doğru hücum etməyə başlamışdılar. Peyğəmbərimizin ətrafında şiddətli döyüşlər cərəyan edirdi.

Ona bir zərər gəlməməsi üçün gözü önündə müşriklərlə döyüşməyə başladım. Əlimə nə keçdisə - qılıncla, oxla düşməni Peyğəmbərimizdən uzaqlaşdırmağa çalışdım. Bu vaxt yaralandım. Allah Rəsulunun ﷺ önündə mən, oğullarım və həyat yoldaşım bir yerdə canlı qalxan olduq. Gələn oxlara, hücumlara qarşı bədənimizi sipər etdik. Rəhmət Peyğəmbəri mənim yanımda qalxanımın olmadığını görüncə əshabdan birinə:

“Ey qalxan sahibi, qalxanını vuruşana ver,” – buyurdu. Mən o qalxanı alıb özümü qorumağa başladım. Bir tərəfdən də vuruşmağa davam edirdim. Arada müşriklərdən biri atla mənə doğru hücüm etdi. Onun hücumunu qalxanla sovuşdurub atının ayaqlarına bir qılınc vurdum. At arxası üstə yıxıldı.

Düşmənin yerə sərildiyini görən İki Cahan Gü-

nəşi Peyğəmbərimiz oğluma səsləndi: “Ey Ümmü Ümarənin oğlu! Anana bax!.. Anana köməyə qaç!” – buyurdu. Abdullah da tez qaçıb gəldi və düşməni öldürməyimə kömək etdi.”

Döyüş davam edirdi. Bir ara Abdullah da sol qolundan yaralandı. Şəfqət Peyğəmbəri ona da: “Yaranı sarı!” – buyurdu. Bu dəfə də anası oğlunun yanına qaçdı və yarasını sarıdı. Sonra oğluna:

“Qalx, oğlum! Müşriklərlə döyüşə davam et,” – dedi. Rəhmət Peyğəmbəri Nəsibə xatının bu fədakarcasına söylədiyi sözü eşidincə:

“Ey Ümmü Ümarə! Sənin qatlandığın, dözə bildiyin şeyə hamı qatlana, dözə bilərmi?” – buyuraraq ona iltifat etdi.

Nə qəhrəmanlıq!.. Nə bahadırlıq!.. Nə igidlik!.. Nə böyük fədakarlıq!.. Nə nümunəvi bir davranış!.. Allah yolunda vuruşarkən belə bir-birini qoruma... Qızğın döyüşlərdə belə qardaşının köməyinə çatma... Ən çətin zamanda acılara qatlana bilmə!.. Və bütün acıları dindirən Allah Rəsulunun xoş sözlərinə nail olma!.. Allahım! Belə səadətlərə hamımızı layiq elə!..

Ümmü Ümarənin رضي الله عنها oğlu tez ayağa qalxdı və müşriklərlə vuruşmağa başladı. Bir ara oğlunu yaralayan müşrik oradan keçirdi. İki Cahan Günəşi Peyğəmbərimiz anasına: “Budur oğlunu vuran!..” – buyurdu.

Nəsibə xatın dərhal hərəkətə keçdi və düşmənə hücum etdi. Ayaqlarına endirdiyi bir qılınc zərbəsiylə düşməni yerə yıxdı. Peyğəmbərimiz bu mənzərə

qarşısında ön dişləri görünənə qədər gülümsədi və bu qəhrəman xanım səhabəsinə:

“Ey Ümmü Ümarə! Adamı pərişan etdin!” – deyə iltifat etdi.

Ardından da:

“Həmd olsun Allaha ki, düşməninə qarşı səni qalib edib, gözünü aydın etdi.

Qisasını almağı sənə gözünlə göstərdi,” – buyurdu.

Müşriklər hər yandan hücüm edirdi. Bütün hədəfləri Allah Rəsulu ﷺ idi. Ona yaxınlaşa bilmək üçün fürsət axtarırdılar. Qureyşin silahlılarından İbn Kamia irəli çıxdı və:

“Mənə Məhəmmədi göstərin! İkimizdən biri sağ qalmayacaq!” – deyə bağırdı. Ona qarşı Musab bin Umeyr رضي الله عنه ilə Nəsibə xatın hücuma keçdilər. Musabı رضي الله عنه şəhid edən zalım Nəsibə xatına da şiddətli bir qılınc vurdu. Amma tam hədəfə vura bilmədi.

Onun əsl hədəfi Sevimli Peyğəmbərimiz idi. Bir ara bu azğın müşrik İbn Kamia, İki Cahan Günəşi Peyğəmbərimizin yanına qədər gəldi. Mübarək üzünü yaralayıb iki dişini şəhid etdi.

Elə bu əsnada Nəsibə xatın var gücüylə bu bədbəxt adama ardıcıl bir neçə qılınc zərbəsi endirdi. Ancaq nə çarə!.. Düşmən iki zirehi üst-üstə geymişdi. Ona görə də zərbələr ona təsir etmədi.

Müşrik İbn Kamia özünü geri çəkilirmiş kimi göstərdi. Lakin gücünü toplayıb bütün qəzəbiylə

əks-hücuma keçdi və Nəsibə xatına bir qılınc vurdu. Bu qılınc zərbəsiylə Nəsibə xatın çiynindən yaralandı. Səhabələr yetişib müşriki geri çəkilməyə məcbur etdilər.

Rəhmət və şəfqət Peyğəmbəri Nəsibə xatının yaralandığını gördükdə oğlu Abdullaha: "Ananın yarasını sarı!" – buyurdu. Sonra bu bəxtiyar ailəyə belə bir müjdə verdi:

"Ev əhlinizi Allah mübarək qılsın, sənin və ananın məqamı filan və filanların məqamından daha xeyirlidir. Allah sizin ailənizə mərhəmət etsin."

Nəsibə xatın bu müjdələri eşidincə Peyğəmbərimizdən:

"Ey Allah Rəsulu! Dua et ki, cənnətdə sənə qonşu olaq," – xahişini elədi. Fəxri Kainat ﷺ Peyğəmbərimiz də:

"Allahım! Bunları cənnətdə mənə qonşu və yoldaş elə!" – deyə dua buyurdu.

Ümmü Ümarə رضي الله عنها bu duadan çox məmnun oldu və "Bu mənə yetər! Artıq dünyada nə müsibət gəlirsə gəlsin, heç əhəmiyyəti yoxdur!" – deyərək sevincini ifadə etdi. Yaralarının acısını unutdu.

İki Cahan Günəşi Peyğəmbərimiz müharibədən sonra onun göstərdiyi qəhrəmanlığı ümmətinə elan etdi:

"Uhud günü nə vaxt sağıma, soluma baxsam məni qorumaq üçün vuruşan Nəsibəni görürdüm."

Uhud günü Allah Rəsulunun ﷺ daim yanında

vuruşan bu qəhrəman xanım səhabə on iki-on üç yerindən yaralanmışdı. Bunların ən ağırı çiynindən aldığı yaraydı. Bir il onun müalicəsi ilə məşğul oldu.

O, şücaəti və cəsarəti qədər İslamı yaşama əzmi və iradəsi də güclü olan, üstün fəzilətə malik bir xanım idi. Xəstə və yaralı olduğu günlərdə belə nafilə ibadətlərini yaddan çıxarmamışdı.

O, hər halıyla qulluğun zövqünə varmış bir mömindi. Zahid və abiddi.

Fəxri Kainat ﷺ Peyğəmbərimiz bəzən Nəsibə xatının evinə gəlib ona baş çəkərdi. Bir gün "Allah şəfa versin." demək üçün getmişdi. Yarasının nə vəziyyətdə olduğunu soruşdu. Bir müddət söhbət etdi. Bu arada Nəsibə xatın süfrə hazırladı. Ancaq özü süfrəyə oturmadı. Peyğəmbərimiz: "Gəl! Sən də ye," – buyurdu. O da oruclu olduğunu söylədi. Bunun üzərinə Peyğəmbərimiz onun ibadətə göstərdiyi həssasiyyətdən məmnun olaraq:

"Bir oruclunun yanında yemək yeyiləndə, yeməkdən qalxana qədər mələklər orucluya dua edərlər." – buyurdu.

Nəsibə xatın Xeybər və Huneyn müharibələrində, Ümrətül-Qaza, Beyəti-Rıdvanda iştirak etdi. Hz. Əbu Bəkr ؓ dövründə dindən dönən, özünü peyğəmbər elan edən yalançı Müseyliməyə qarşı hazırlanan orduda oğlu Abdullah ilə birlikdə iştirak etdi. Yəmamə hərbində də böyük qəhrəmanlıqlar göstərdi. Müseylimənin öldürülməsində Vəhşiyə kömək etdi. Hadisə belə baş verdi:

Fəxri Kainat ﷺ Peyğəmbərimiz axirətə köçən-

dən sonra Peyğəmbərlik iddiasında olan Müseylimə-tül-Kəzzab (Yalançı Müseylimə) ona inanmayanları bir cani kimi öldürürdü. Hz. Nəsibənin رضي الله عنها oğlu Həbibi رضي الله عنه çox acınacaqlı və əzablı şəkildə şəhid etmişdi. Belə ki, Həbib رضي الله عنه Omandan Mədinəyə gələrkən yolda Müseylimə ilə qarşılaşdı. Peyğəmbərlik iddiasında olan bu yalançı zalım:

"Sən Məhəmmədin peyğəmbərliyini təsdiq edirsənmi?" – deyə soruşdu. Həbib də:

"Bəli," – dedi. Müseylimə:

"Mənim də Allahın Rəsulu olduğuma şəhadət gətirərsənmi?" – dedi. Həbib رضي الله عنه:

"Əsla belə bir şey söyləyə bilmərəm!" – dedi.

Bu sözdən sonra zalım Müseylimə Həbibin رضي الله عنه bir qolunu kəsdi. Sonra sualını təkrarladı. Həbib رضي الله عنه yenə qəbul etmədi. Bu vaxt o zalım Həbibin digər qolunu da kəsdi.

Zalımlığına davam edən Müseylimə Həbibi رضي الله عنه özünün peyğəmbər olduğunu qəbul etməsi üçün məcbur edirdi. Yenə eyni sualı yönəltdi. İmanında bütöv Hz. Həbib رضي الله عنه parçalanan bədəninə baxmayaraq imanından geri dönmədi. Yenə "Əsla! Əsla!" – deyərək rədd etdi. Bu uğurda canını fəda edib şəhid oldu.

Oğlunun başına gələn dəhşətli hadisəni öyrənən Hz. Nəsibə رضي الله عنها səbir və mətanətlə oğlunun acısını ürəyində boğdu. Ancaq öz-özünə belə and içdi:

"Müsəlmanlar bir gün o zalıma həddini bildirmək üçün hərb etsələr, bax o vaxt mən qılıncımı çəkib onun dərsini verəcəyəm."

Hz. Əbu Bəkr ﵁ dövründə Hz. Xalid başçılığında hazırlanan orduya oğlu Abdullah ilə birlikdə qatıldı. İki ordu Yəmamədə qarşılaşdı.

Yaşı altmışı ötən Hz. Nəsibə ﵂ bu döyüşdə böyük qəhrəmanlıqlar göstərdi. Yalançı Müseylimənin olduğu yerə qədər irəlilədi. Qılıncıyla ona hücum etdi. Bu əsnada bir qolunu itirdi. Bir neçə yerindən yaralandı. Müseylimə qaçmağa çalışdı. Ancaq müsəlman əsgərlər tərəfindən mühasirəyə alındı. Nəsibə xatının oğlu Abdullah bunu fürsət bildi və zalıma qılıncıyla şiddətli bir zərbə vurdu. Ağır bir şəkildə yaraladı. Səndələməyə başlayan Müseyliməyə son zərbəni Vəhşi endirərək canını cəhənnəmə göndərdi.

Müseylimənin öldürüldüyü xəbərini alan Hz. Nəsibə ﵂ şükür səcdəsinə qapandı və bu günləri göstərdiyi üçün Allaha həmd etdi.

Xalid bin Vəlid ﵁ başçılığındakı İslam ordusu Mədineyi-Münəvvərəyə qayıtdı. Hz. Əbu Bəkr ﵁ Nəsibə xatının göstərdiyi qəhrəmanlıqları eşitdi. "Allah şəfa versin" demək və hal-əhval tutmaq üçün onu ziyarətə gəldi. Qəzasını təbrik etdi. Xəlifəliyi müddəti ərzində ona xüsusi diqqət və qayğı göstərdi.

Əshabi-kiram da bu qəhrəman, igid xanıma sevgi və hörmət bəsləyirdi. Hz. Ömər ﵁ çoxlu iltifatlar edir, bəzən ziyarətinə gedərək könlünü alırdı.

Bir gün ona gələn qənimətlər içərisində yundan toxunmuş qiymətli bir parçanı hədiyyə etmək istədi. Hamı onu gənc xanımına göndərəcəyini zənn etdi. Ancaq Hz. Ömər ﵁:

"Buna Ümmü Ümarə رضي الله عنها daha layiqdir," – dedi. Onun şanını ucaltmaq üçün sözünə davam etdi:

"Mən, Allah Rəsulundan ﷺ "Uhud günü döyüşdə hansı tərəfə baxdımsa Ümmü Ümarəni vuruşan gördüm" – dediyini eşitdim. Onun üçün bu qiymətli parça ona layiqdir" – deyərək onu Nəsibə xatına göndərdi.

Ümmü Ümarə ləqəbiylə məşhur olan Hz. Nəsibə رضي الله عنها fədakar, cəfakar, şücaət və cəsarət sahibi qəhrəman bir ana idi. Uşaqlarını da qəhrəmanlıq duyğularıyla böyüdüb cihad meydanlarına yolladı. Birlikdə hərb meydanlarında Allah və Rəsulu yolunda döyüşdülər, İslamı müdafiə və yayma uğrunda ixlas və sədaqətlə çalışdılar. Canları və malları əvəzində cənnəti satın aldılar.

Hz. Ömər رضي الله عنه dövründən sonra Mədinədə vəfat edən bu qəhrəman xanım səhabə Nəsibə xatının Baqi qəbristanlığında dəfn olunduğu rəvayət edilir. Rəbbimizdən şəfaətini niyaz edirik. Amin...

Dörd Şəhid Anası

# Həzrət Hansa

——— radiyallahu anha

Həzrət Hansa ﵂ mərsiyələrilə məşhur xanım şairələrdəndir. Cəsarət və qəhrəmanlığıyla tanınmış bir xanım səhabədir.

Dörd oğlunun şəhadət xəbərini müjdə kimi qarşılayan imanlı bir ana...

Övladlarının şəhid olmasına görə keçirtdiyi sevinc hissini həmd edərək, dua və niyazla büruzə verən, qədərə təslim olmuş bir mömin...

O bir çox şair yetişdirmiş Bəni Süleym qəbiləsinə mənsubdur. Hansa (uzun burunlu) ləqəbiylə tanınmışdır. Əsl adı Tümadır binti Amrdır. Atası Amr bin Şəriddir.

O, ərəb ədəbiyyatında qadın şairlərin ən öndə gələni qəbul edilir. Şeirlərinin çoxunu cahiliyyə dövründə demişdir. Müharibələrdəki qəhrəmanlıq səhnələrini qadın emosionallığı içində sadə bir dillə təsvir etmişdir. Xüsusilə mərsiyə növündə məşhur olmuşdur.

Hansanın, biri Muaviyə adında anabir, digəri Sahr adında atabir iki qardaşı var idi. Muaviyə yaraşıqlı bir igid, Sahr da həlim və səxavətli bir insan idi. Qəbilələr arasındakı müharibələrdə ikisi də öldürülmüşdü. Hansa bu iki qardaşının mərdlik və comərdliyinə dair söylədiyi mərsiyələrlə məşhur olmuşdur.

O, İslamın ortaya çıxdığı ilk dövrlərdə uşaqlarıyla birlikdə müsəlman oldu. Rəsuli-Əkrəmin ﷺ söhbətlərində iştirak etdi. Hz. Ömərlə ﵁ görüşdü. Peyğəmbərimiz onun şeirlərini bəyənərdi. “Haydı Hunas!” deyərək şeir oxumasını istəyərdi.

❀

Hz. Hansa ﵂ öldürülən qardaşları üçün çox gözyaşı tökmüşdü. O qədər ağlamışdı ki, üzündə izləri qalmışdı. Hz. Ömər ﵁ ona:

“Niyə bu qədər ağlayırsan? Onlar indi cəhənnəm odunudurlar,” – deyəndə, bu sözə görə çox kədərlənmişdi. Qardaşlarına qarşı şəfqət və mərhəmətindən dolayı bu hərəkətdən qəlbi qırılmışdı. Hz. Ömərin bu hərəkətindən incimiş və ona belə bir cavab vermişdi:

“İndi qəmim bir qat daha artdı.”

❀

Hz. Hansa ﵂ qəlbini İslamın nuruyla doldurmağa və uşaqlarını da bu yolda yetişdirməyə çalışdı. Mal-mülk və övladın Allahın əmanəti olduğunu unutmadı. Dörd oğlunu da Allah yolunun yolçuları olaraq böyütdü.

Onlar Allah yolunda cihad edə biləcək yaşa gəlmişdi. 17-18 yaşlarındaydılar. Hər biri güclü, qüvvətli və ürəkləri şəhidlik həsrətilə dolu gənclər idi.

İslam dini yayılmağa başlamış, fəthlər artmışdı. Müsəlmanlar zəfərlər qazanmaqdaydılar. Bu dörd mücahid analarıyla birlikdə Hz. Ömərin ﵁ xəlifəliyi dövründə "Qadisiyyə Müharibəsi" üçün hazırlanan orduya könüllü olaraq qatıldılar. Allaha və Rəsuluna təslim olmuş bir ana üçün bu nə qədər də böyük xoşbəxtlik idi.

Hz. Hansa ﵂ bir axşam vaxtı uşaqlarını yanına çağırdı. Oğullarına bir ana şəfqətilə yüksək hədəflərə çatmaqla bağlı nəsihətlər verdi. Ürəklərini vəcdə gətirən təsirli, dərin ifadələriylə onların imanlı qəlblərini hərəkətə keçirən bu xitabı etdi:

"Övladlarım! Sizi müsəlman olmağa heç kim məcbur etmədi. Öz istəyinizlə müsəlman oldunuz. Öz iradənizlə orduya qatılıb buraya gəldiniz.

Özündən başqa heç bir ilah olmayan Allaha and içirəm ki, siz bir ananın və bir atanın oğullarısınız.

Mən sizin atanızın namusunu qorudum, ona xəyanət etmədim. Dayınızı da utandıracaq bir hərəkətim olmadı. Şərəfinizi ləkələmədim. Soyunuzu dəyişdirib pozmadım.

Siz, Allah yolunda vuruşan mücahidlərə Rəbbinizin hazırladığı savabı bilirsiniz. Əbədi olan axirət yurdunun fani olan dünyadan daha xeyirli olduğunu da bilin. Haqq-Təalanın:

**"Ey iman gətirənlər! (Allahın düşmənlərinə qələbə çalmaq uğrundakı müharibə və döyüş-**

**lərdə sizə üz verən müsibət və çətinliklərə) dözün, (sərhəd boyu növbədə ayıq-sayıq durub cihada) hazır olun və Allahdan qorxun ki, nicat tapasınız!"** (Ali-İmran, 200) buyurduğunu yadınızda saxlayın.

İnşallah sabaha sağ-salamat çıxsanız, düşmənə bəsirətli və səbrli olaraq hücum edin.

Düşmənə qarşı yalnız Allahdan kömək istəyin. Müharibənin qızğın vaxtında düşmənin ən sıx olduğu yerə qədər irəliləyin. Onların sərkərdəsi ilə vuruşun.

Zəfər qazansanız, qənimət əldə edərsiniz. Şəhid olsanız, cənnətə girər, gözəl nemətlər əldə edərsiniz..."

Əziz analarının göstərdiyi hədəfə çatmaq üçün dörd qardaş səbirsizliklə səhərin açılmasını gözlədilər. Səhər açılanda yerlərində dura bilməyən qardaşlar aslanlar kimi hərb meydanına atıldılar. Böyük qəhrəmanlıq nümayiş etdirdilər. Nəhayət həsrətini çəkdikləri şəhidlik mərtəbəsinə ucaldılar. Bədənləri hərb meydanında qaldı. Ruhları cənnətə uçdu.

Nə böyük səadət!.. Nə gözəl mükafat!.. Nə xoşbəxt sonluq!..

Qadisiyyə müharibəsi müsəlmanların zəfəriylə nəticələndi. Dörd cavan qardaş da şəhidlər arasındaydı. Bu xəbəri anasına çatdırmaq üçün gələnlər çox qəmgin idilər. Halbuki o, böyük mətanət içində, qədərə təslim olmuş vəziyyətdə, olduqca sakit idi.

Dörd oğlunun şəhidlik məqamını qazanmaları onun üçün böyük xoşbəxtlik idi. Onların şəhadət

xəbərini bir müjdə kimi qarşıladı. Allaha həmd edib sevincini bu dua və niyaz ifadələriylə göstərdi:

"Onların şəhadətilə məni şərəfləndirən Allaha həmd olsun. Uca Allahım məni onlarla mərhəmətinin kölgəsində birləşdirsin."

Hz. Hansa ﵂ həyatın, sərvətin və övladın ona Allahın əmanəti olduğunun fərqində idi. Uşaqlarını da bu duyğularla yetişdirdi. Onlara ölməz üfüqlər verdi. Dünya həyatı fani, axirət yurdu əbədi idi. Ən sərfəli və ağıllı iş əmanəti sahibinin yoluna fəda etmək idi.

Axırda özündən əvvəl axirətə belə xeyirli oğullar göndərdi. Arxasında da rəhmətlə yad ediləcək bir ad qoydu.

Ruhu şad, qəbri cənnət bağçası olsun. Haqq-Təala şəfaətinə nail etsin. Amin...

Xanımların Xatibi

# Əsma Binti Yezid

radiyallahu anha

Əsma binti Yezid رضي الله عنها Rəsulullahın ﷺ hüzuruna gələrək dərdini rahatlıqla çatdıra bilən, açıq sözlü bir xanım səhabədir.

“Xatibətün-nisə = Xanımların xatibi” ləqəbiylə tanınan, cəsarət və şücaət sahibi bir xatib...

Ədəb və həyanın dini öyrənməyə mane olmadığına inanan və utancaqlıq göstərmədən dinini öyrənməyə çalışan bir elm sevdalısı...

O, mədinəli olub Ənsar xanımlarındandır. Evs qəbiləsinin Əbdüləşhəl oğullarına mənsubdur. Hicrətdən sonra İslamla şərəflənmişdir. Atası Yezid bin Səkənlə bacısı Həvva da səhabədir. Muaz bin Cəbəlin رضي الله عنه bibisinin qızı olan Əsmanın Bəyatür-Ridvanda olduğu da rəvayət edilir.

Əsma binti Yezid رضي الله عنها əliaçıq, səxavətli bir xanım idi. Rəsulullaha ﷺ daim xidmət etmək, qulluğunda

durmaq istəyərdi. Evində olan yemək-içməkdən vaxtaşırı Peyğəmbərimizə ﷺ göndərərdi.

Bir gün axşam vaxtı bir az çörək və quru üzüm hazırladı. Məsciddən çıxarkən sevimli Peyğəmbərimizi evinə dəvət etdi. İki Cahan Günəşi Peyğəmbərimiz bu fədakar səhabənin sözünü yerə salmadı. Yoldaşlarıyla birlikdə dəvəti qəbul etdi.

Həzrət Əsma رضي الله عنها hazırladıqlarını gətirib Peyğəmbərimizin önünə qoydu. “Anam-atam sizə fəda olsun, ya Rəsulallah! Buyurun, yeyin,” – dedi. Mərhəmət peyğəmbəri dərin məhəbbətlə əshabıyla birlikdə “Bismillah” deyib yeməyə başladılar. Çörək və üzüm bərəkətlənmişdi. Yedikcə artırdı. Hz. Əsma təəccüb içində qalmışdı. O, bu hadisəni belə nəql edirdi:

“Varlığım qüdrət əlində olan Allaha and içirəm ki, gözlərimlə gördüm. Qırx nəfər nə üzümü, nə də çörəyi yeyib qurtara bilmədilər. Evdəki tuluğun içindəki sudan da içib getdilər. Bizim ailəmiz bu tuluqda qalan suyu içər, şəfa tapardıq. Ruzimiz bərəkətlənmişdi.”

Həzrət Əsma رضي الله عنها qəlbi Rəsulullah sevgisiylə dolu ağıllı bir xanım idi. Əlinə keçən fürsətləri dəyərləndirməyi bacarırdı. Vaxtaşırı Peyğəmbərimizin evinə gələr, möminlərin analarıyla söhbət edərdi.

Hz. Aişə رضي الله عنها anamızın gəlin olaraq Peyğəmbərimizin evinə gəldiyi gün o da oradaydı. Peyğəmbərimizə süd vermişdilər. O, süddən bir az içdikdən sonra Hz. Aişə anamıza uzatmışdı. O da təzə gəlin olduğu üçün utandığından götürmək istəməmişdi. Buna görə Hz. Əsma رضي الله عنها:

“Ya Aişə! Rəsulullahın lütfünü geri çevirmə, götür iç” – dedi.

Hz. Aişə aldı və bir az içdikdən sonra Peyğəmbərimizə qaytardı. Rəsuli-Əkrəm ﷺ bu dəfə südü Hz. Əsmaya uzatdı. O da kasanı aldı və içdi.

Əsma binti Yezid ﵂ xanım səhabələr arasında açıq sözlülüyü və natiqliyi ilə tanınmışdır. Bu səbəbdən ona: “Xatibətün-nisə = Xanımların xatibi” ləqəbi verilmişdir. Mədinəli xanımlar Rəsulullahdan ﷺ bir şey soruşmaq istəyəndə onu təmsilçi kimi göndərirdilər.

Bir gün onları maraqlandıran bəzi məsələlər barəsində soruşmaq üçün onu təmsilçi seçdilər. Rəsuli-Əkrəmdən ﷺ soruşmağını xahiş etdilər. O da bu məqsədlə Rəsulullahın hüzuruna gəlib danışmağa başladı:

“Anam-atam sənə fəda olsun, ya Rəsulallah! Mən sənin yanına xanımların elçisi olaraq gəldim. Allah səni bütün kişi və qadınlara peyğəmbər göndərmişdir. Biz sənə və sənin Rəbbinə iman etdik. Biz qadınlar evlərimizdə oturur, yoldaşlarımızın istəklərini yerinə yetirir, uşaqlarımızı böyüdürük. Siz kişiləri isə Allah cümə namazı qılmaq, məscidə gedib camaatla ünsiyyətdə olmaq, xəstələri ziyarət etmək, cənazə mərasimlərində iştirak etmək, bir dəfədən çox Həccə getməkdə bizdən üstün etdi. Ən əsası isə Allah yolunda cihad etmək kimi bir fəzilətə nail etdi.

Kişilər həcc və ya umrə üçün və yaxud da düş-

mənlə vuruşmaq üçün yola çıxanda biz onun mallarını qoruyur, paltarlarını təmizləyir və tikirik. Uşaqlarını böyüdürük. Bu xidmətlərimizlə biz də kişilərin qazandığı xeyir və savabı əldə edə bilərikmi?"

İki Cahan Günəşi Peyğəmbərimiz Hz. Əsmanın bu sözlərini diqqətlə dinlədi. Fikirlərini ifadə etmədəki qabiliyyətini və açıq sözlülüyünü təqdir etdi və yanındakı səhabələrə:

"Siz bir qadından dini mövzuda bundan daha gözəl bir sual eşitdinizmi?" – buyurdu. Sonra onun şəxsində bütün mömin xanımlara bu müjdəni verdi:

"Ey xanım, qulaq as və səni bura təmsilçi kimi göndərən xanımlara da yaxşıca izah et!

Bir qadın həyat yoldaşıyla yaxşı rəftar edib onun razılığını qazansa, bu saydığın üstün əməllərin hamısına bərabər bir iş etmiş olar. Yəni eyni savabı əldə edər."

Hz. Əsma binti Yezidi bundan sonra "xatibətünnisə" ləqəbiylə çağırmağa başladılar. Peyğəmbərimizdən aldığı bu müjdəni tez bir zamanda yoldaşlarına çatdırmaq istədi. Sevinc içində oradan ayrıldı. Tələsərək yoldaşlarının yanına gəldi.

Böyük bir xoşbəxtlik və sevinc gözyaşları içində Rəsulullahdan eşitdiklərini xanımlara danışdı. Hamısı bu müjdəli xəbərə çox sevindilər. Artıq ev işlərini bir yük olaraq deyil, onlara savab qazandıran bir ibadət olaraq gördülər.

Nə incə məntiq!.. Nə gözəl hərəkət... Necə mükəmməl bir din!.. İnsanı niyyətinə görə dəyərləndirib mükafatlandırmaq!.. Kişinin də, qadının da işləməsini

ibadət saymaq!.. Qadını evinə sevgi ilə bağlayıb ailə yuvasına xidmət etdirmək!.. Allahım, bizə də bu incə anlayışı, sevgini və xoşbəxtliyi lütf et!.. Könüllərimizi İslamın gözəllikləri̇lə dolduraraq evimizdə, ocağımızda səadətə qovuşmağı nəsib et!..

۞

Hz. Əsma ﵂ vaxtaşırı Rəsuli-Əkrəmin söhbətlərində iştirak edərdi. Bir gün Rəsulullahın evinə gəlib çatanda, onun Dəccalla bağlı danışdığını eşitdi. Oturub qulaq asmağa başladı. Eşitdiyi xəbərlər təəccübünü artırmış, dəhşətə gəlmişdi. Gözyaşlarını saxlaya bilmədi və ağlamağa başladı. İki Cahan Günəşi Peyğəmbərimiz onun ağladığını gördükdə:

“Əsma! Niyə ağlayırsan?” – deyə soruşdu. O da:

“Ey Allahın Rəsulu! Qarnımız ac olanda çörəyin bişməsini belə gözləməyə səbri çatmayan kimsələrik. Dəccal ortaya çıxanda qıtlıq baş verərsə, halımız necə olacaq?” – deyə iztirabının səbəbini belə açıqladı. Fəxri-Kainat Peyğəmbərimiz ﷺ də Hz. Əsmanı təsəlli etmək üçün:

“O gün Allahı zikr edər və kəlmeyi-tövhidi deməyə davam etsəniz, aclıqdan uzaq olarsınız” – buyurdu və sözünə belə davam etdi:

“Belə fəryad etmək lazım deyil. Mən o vaxt həyatda olsam sizə sipər olaram. Dəccal ortaya çıxanda mən sağ olmasam da Allah-Təala möminləri qoruyar” – dedikdən sonra Allahı çox-çox zikr etməyin vacibliyini vurğuladı.

۞

Bir gün Əsma رضي الله عنها Rəsuli-Əkrəmin yanına gedərək xanımların aybaşı və cünblükdən necə təmizlənəcəklərini soruşmuşdu. Onun bu hərəkətini təqdir edən Hz. Aişə رضي الله عنها anamız, utanma hissinin ənsar qadınlarına dinlərini öyrənməyə mane olmadığını demişdi.

Əsma binti Yezid رضي الله عنها Rəsuli-Əkrəmdən 81 hədisi-şərif rəvayət etmişdir. Bir neçəsinin məalı belədir:

*"Kim Allah rizası üçün bir məscid tikdirsə, Allah da ona cənnətdə bir ev verər."* (Əhməd bin Hənbəl, Müsnəd, VI, 461)

"Bir gün Rəsulullah səhabələrindən soruşdu:

"Sizə insanların ən xeyirlisinin kim olduğunu deyimmi?"

Əshabi-kiram "Bəli, ya Rəsulallah!" – dedi. Peyğəmbərimiz də:

*"Allahı davamlı zikr edənlərdir"* – buyurdu. Sonra sözünə davam edərək:

"Ən pislərin kim olduğunu deyimmi?" – deyə soruşdu. Ardından da:

*"Onlar da Allah rizası üçün bir-birini sevən dostların arasını vuranlar, söz aparıb-gətirənlərdir"* – buyurdu. (Müsnəd, 6/459)

Əsma binti Yezid bin Səkən əl-Ənsariyyə رضي الله عنها güclü zəkası və natiqliyi ilə məşhur bir xanım səhabədir.

Xeybər müharibəsi ilə Məkkə fəthinə qatılmış Hz. Əsmanın xüsusilə Yərmük müharibəsində göstərdiyi qəhrəmanlıqlar dillərə dastandır. Onun bir çadır dirəyini əlinə alaraq müharibə meydanına girdiyi və doqquz Bizans əsgərini öldürdüyü rəvayət edilir.

İslamı təbliğ uğrunda həyatını fəda etməkdən çəkinməyən, elm məclislərindən ayrılmayan, fikrini açıq-aydın ifadə edə bilən elm aşiqi bu böyük İslam qadınının harada və hansı tarixdə vəfat etdiyi bilinmir.

Allah ondan razı olsun, bizi şəfaətindən məhrum etməsin. Amin...

Rəsulullahın dayəsi

# ÜMMÜ EYMƏN

——— radiyallahu anha

Ümmü Eymən ﵂ Rəsulullahın ﷺ dayəsi... “Anamdan sonra anam” deyə sevgi və hörmətlə həyatda ikən müjdələnən fədakar bir ana... Peyğəmbərimizin atası Abdullahın kənizi...

O həbəşistanlıdır. Əsl adı Bərəkə binti Saləbədir. “Ümmü Eymən” ləqəbiylə məşhurdur.

O ilk dəfə Həzrəc oğullarından Ubeyd bin Zeydlə evləndi. Eymən adında bir oğlu oldu. Bu ilk övladına görə “Ümmü Eymən” ləqəbini aldı.

Ümmü Eymən uzun illər Abdullahın kənizi olaraq peyğəmbər evinə xidmət etdi. Onun vəfatından sonra da həmin evdə qaldı. Artıq həm ana Əminənin, həm də varlıq nuru Məhəmmədin yardımçısı oldu.

O, şəfqətli və sevgi dolu bir qəlbə sahib idi. Rəsuli-Əkrəm ﷺ beş-altı yaşında olanda anası Hz. Əminə ﵂ Ümmü Eyməni də götürüb Mədinəyə doğru səfər etdilər. Həm həyat yoldaşı Abdullahın

qəbrini, həm də dayısıgili ziyarət etmək istədilər. Təxminən bir ay Mədinədə qaldılar.

Ümmü Eymən bacarıqlı bir xanım idi. Canla-başla xidmətinə görə çox sevilirdi. Varlıq Nuru Məhəmmədin üstündə əsir və gözünü ondan ayırmırdı. Onu yad gözlərdən, pis niyyətli insanlardan qorumağa çalışırdı. Bir gün başına belə bir hadisə gəldi. Özü həmin hadisəni belə nəql edir:

“Bir gün yəhudi alimlərindən iki nəfər yanıma gəldi. “Əhmədi yanımıza gətir, görək,” – dedilər. Mən də o nur Əhmədi yanlarına gətirdim. Uşağı xeyli süzdülər. Hər tərəfinə baxdılar. Sonra bunları dedilər:

“Bu uşaq yəqin ki, gözlənilən son peyğəmbərdir. Bura da onun hicrət edəcəyi yerdir. Bu yerdə çox böyük müharibələr olacaq, böyük hadisələr baş verəcək.”

Ümmü Eymən ona zərər vermələrindən qorxmağa başladı. “Əziz oğlunu” yanından heç ayırmadı. Onu daim nəzarətdə saxlamağa çalışdı. Nəhayət Məkkəyə qayıtmağa qərar verdilər.

Üç nəfərlik qafilə Mədinədən ayrılıb Məkkəyə doğru hərəkət etməyə başladı. Əbva kəndinə qədər gəldilər. Yolda özünü pis hiss edən Hz. Əminə ﵂ burada bir az dincəlmək istədi. Ancaq xəstəliyi getdikcə şiddətlənirdi.

Ümmü Eymən bir yandan Hz. Əminə anamıza qulluq edərkən digər tərəfdən nur Məhəmməddən gözünü çəkmirdi. Anasının baş ucunda oturan gələcəyin peyğəmbəri Varlıq Nuru Əhməd sevimli anasının çəkdiyi iztirablardan dolayı göz yaşı axıdırdı.

Xəstəliyi daha da şiddətlənəndə anasından ayrılacağı qənaətinə gəlməyə başladı. Əziz anası da övladının üzünə baxır, öz acılarını unudub onu düşünürdü. O da Nur Məhəmməddən ayrılacağı fikrinə qapılmışdı. Xəstəliyi də getdikcə şiddətlənirdi. Birdən gördüyü yuxunu xatırladı. Əziz övladının üzünə baxaraq son sözlərini söylədi:

“Ey mübarək uşaq! Ey dünyaya bulaşmadan bir qonub, sonra uçub gedən göyərçinin (Abdullahın) oğlu! Atan hər şeyin sahibi və hər şeyi bilən Allahın köməyiylə oxlarla püşk atıldığı günün səhəri yüz dəvə əvəzində qurban edilməkdən qurtulmuşdu.

Oğlum! Əgər yuxuda gördüklərim çin çıxsa, sən bütün bəşəriyyətə göndəriləcək və halal-haramı öyrədəcəksən. İnsanlara həqiqəti və düz yolu göstərəcəksən. Baban İbrahimin dinində olacaqsan. Allah səni bütün bütlərdən və bütpərəstlikdən qoruyacaq. Sənin mübarizən dünya durduqca davam edəcək.

Hər canlı öləcək, hər yeni köhnələcək, hər yaşlı dünyadan ayrılıb gedəcək. Bax, mən də ölürəm. Ancaq adım əbədi yaşayacaq. Çünki özümdən sonra xeyirli və tərtəmiz bir övlad qoyub gedirəm” – deyib, övladını əvvəlcə Allaha, sonra da dayəsi Ümmü Eymənə əmanət etdi.

Otuz il kimi qısa bir ömür sürən Hz. Əminə رضي الله عنها anamız çox keçmədən ruhunu Uca Rəbbimizə təslim etdi.

Dünyaya gələndə atadan yetim olan sevimli Peyğəmbərimiz, altı yaşına çatanda anasından

da ayrılaraq hər iki valideynini itirmiş oldu. Uca Rəbbimiz onu özü üçün seçmişdi. Ondan başqa heç kimə etibar etməyini istəmirdi.

Onu həyatın müxtəlif acılarıyla yetişdirib əxlaqın zirvəsinə çıxartmaq istəyirdi. Ən kamil insan, ən gözəl insan olaraq qiyamətə qədər gələcək insanlara "üsveyi-hasənə = nümunəvi insan" olması üçün ondan başqasına güvənib söykənməsini istəmirdi. **"Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən!"** (Qələm, 4) xitabına layiq olmasını istəyirdi.

Ümmü Eymən çiyinlərinə böyük bir məsuliyyət götürdüyünün fərqində idi. Bundan sonra o varlıq nuruna anasının yoxluğunu hiss etdirməməyə çalışdı. Bunun üçün əlindən gələn fədakarlığı etməyə səy göstərdi. Varlıq nuruna öz övladı kimi baxdı. Onu bağrına basıb bu sözləri dedi:

"Üzülmə, ağlama, canım Məhəmmədim! İlahi qədərə qarşı əlimiz-qolumuz bağlıdır. Can da onun, mal da. Hamısı bizə əmanətdir. O necə veribsə, elə də alar."

Hz. Əminə رضي الله عنها Əbva kəndində dəfn edildi. Nur Məhəmmədi Məkkəyə Ümmü Eymən aparmalı oldu. İki dəvəylə məhzun və məşəqqətli bir səfərdən sonra Məkkəyə çatdılar. Ümmü Eymən gözyaşları içində Əhmədi babası Əbdülmüttəlibə həvalə etdi.

Əhməd evlənənə qədər Ümmü Eymən ona canla-başla xidmət etdi. Onu ana şəfqətilə bağrına basdı.

İki Cahan Günəşi Peyğəmbərimiz də evləndikdən sonra fədakar dayəsini yadından çxartma-

dı. Onun qulluğunda durdu. Ziyarətini əskik etmədi. Həmişə köməyinə tələsdi. Bir övladın anasına göstərəcəyi sevgi və hörməti göstərdi.

Allah-Təala Əhmədi özünə Rəsul seçib peyğəmbər olaraq göndərdikdən sonra Ümmü Eymən ona ilk inananlardan oldu. İslama dəvətində onu tək qoymadı.

Ümmü Eymən ﵂ ilk müsəlmanların çəkdiyi əzab-əziyyətləri çəkdi. Ancaq əsla imanından dönmədi. Həbəşistan və Mədinəyə hicrət etdi. Sevimli Peyğəmbərimizin yolundan getdi. Həyat yoldaşı Ubeyd bin Zeydlə xoşbəxt bir həyat sürürdülər. Döyüşlərin birində əri şəhid olunca dul qaldı.

İki Cahan Günəşi Peyğəmbərimiz hər cür çətinlik, əzab-əziyyətlərə sinə gərən fədakar dayəsinin tək qalmasını istəmədi. Onu oğulluğu Zeydlə Məkkədə evləndirdi. Belə ki, bir gün əshabıyla bir yerdə otularkən “Cənnət əhlindən bir qadınla evlənmək istəyən Ümmü Eymənlə evlənsin” – buyurdu.

Fəxri Kainat Peyğəmbərimizin işarət etdiyi bu müjdəyə nail olmaq üçün ilk istək oğulluğu Zeyddən gəldi. Zeyd bin Harisə ﵁ cavan idi. Ümmü Eymən kimi yaşlı bir xanımla evlənmək istəməsi, yalnız Rəsuli-Əkrəmin ﷺ məmnuniyyətini qazanmaq üçün idi.

Peyğəmbər fədakar dayəsini gənc səhabə Zeydlə evləndirdi. Bu evlilikdən İslamın gənc sərkərdəsi Usamə bin Zeyd dünyaya gəldi.

Ümmü Eymən ﵂ təslimiyyət və təvəkkül sahibi

bəxtiyar bir xanım idi. Ən çətin anlarda belə Haqq-Təaladan ümidini kəsməzdi. Mütləq Onun köməyinin gəlib çatacağına inanardı. Hicrət edəndə Ravhə yaxınlarında gecələmişdi. Çox susamışdı. Yanında da heç su yox idi. Amma Rəbbinin onu gördüyünə inancı sonsuz idi. Bu inancın, bu təslimiyyət və təvəkkülün mükafatını bəzən dərhal görərdi. Bu dəfə də Rəbbinin köməyi gəlib çatmışdı.

Susuzluqdan ağzının quruduğu bir vaxtda yanında göydən ağ bir ipə bağlı endirilmiş bir dolça gördü. O saat yanına getdi. Çatanda gördü ki, içi dup duru, buz kimi suyla doludur. Doya-doya içdi. Susuzluğu keçdi və rahat oldu. Bunu danışdıqdan sonra Ümmü Eymən: “Artıq bundan sonra heç susamadım” – dedi.

O, cəsur, qəhrəman, imanlı bir xanım idi. Allah və Rəsulunun yolunda həyatını fəda etmişdi. Uhud günü İki Cahan Günəşi Peyğəmbərimizin ətrafından dağılıb gedənlərə görə çox üzülmüş və onlara:

“Burada iğ var! Heç olmasa onu götür iplik et! Qılıncını da mənə ver. Qadınlarla birlikdə döyüşüm.” deyə nida etmişdi.

O, Uhud günü digər xanımlarla birlikdə yaralıları müalicə etmişdi. Mücahidlərə su paylamış, Rəsuli-Əkrəmin yanından ayrılmamışdı.

❁

O bir peyğəmbər aşiqi idi. Onunla bir yerdə sevinər, onunla bir yerdə kədərlənərdi. Bir gün Rəsuli-Əkrəm ﷺ bir uşağı qucağına götürmüşdü. Uşaq bərk xəstə idi. İztirabından inləyirdi. Mərhə-

mət peyğəmbəri uşağın çəkdiyi acıya dözə bilmədi və ağlamağa başladı. Peyğəmbərimizin bu halını görən Ümmü Eymən də ağlamağa başladı. Şəfqət Peyğəmbəri ona:

"Niyə ağlayırsan?" – dedi. O da:

"Allah Rəsulu ağlayırsa mən necə ağlamayım?" – deyə cavab verdi.

Onun sevimli Peyğəmbərimizin ürəyində ayrı bir yeri vardı. Bəzən ona zarafat qarışıq düşündürücü sözlər deyər, iltifat edərdi. Ancaq o böyük peyğəmbər zarafat edəndə də sözün düzünü deyərdi. Bir gün Ümmü Eymən ﵂ Peyğəmbərimizin yanına gələrək:

"Mənə bir minik vasitəsi verə bilərsiniz?" – dedi.

Fəxri Kainat Peyğəmbərimiz ﷺ ona belə cavab verdi:

"Səni dəvə balasına mindirəcəyəm."

Bu sözlərin nə mənaya gəldiyini başa düşməyən Ümmü Eymən ﵂:

"Ya Rəsulallah! Dəvə balasının məni aparmağa gücü çatmaz axı. Bir də ki, mən dəvə balası istəmirəm," – dedi.

Peyğəmbərimiz yenidən buyurdu:

"Səni ancaq bir dəvə balasına mindirəcəyəm."

Ümmü Eymən Rəsulullahın onunla zarafat etdiyini zənn etdi. Ancaq Peyğəmbərimiz ona bu sözlə bir həqiqəti açıqlayırdı. Hər dəvə bir dəvədən doğulduğuna görə dəvə balası deyildimi?!

Ümmü Eymən رضي الله عنها İslamı öyrənmə və öyrətmə məsələsində də cidd-cəhdlə çalışırdı. Rəsuli-Əkrəm ﷺ əbədi aləmə köçdüyü gün gözyaşlarını saxlaya bilmirdi. Ondan “Niyə bu qədər ağlayırsan?” – deyə soruşduqda “Vəhyin kəsilməsinə ağlayıram,” – deyə cavab vermişdi.

Ümmü Eymən رضي الله عنها üç xəlifə dövründə yaşamış gözüyaşlı, qəlbi sevgi, şəfqət və mərhəmət dolu bir xanım səhabədir.

Hz. Əbu Bəkr və Hz. Ömərə tez-tez baş çəkərdi. Onlar da ona layiq olduğu hörməti göstərər, qulluğunda durardılar. O da gözüyaşlı bir xanım olduğu üçün onları gördükdə hisslərini cilovlaya bilməz, Peyğəmbərimizi xatırlayar və ağlayardı.

Hz. Ömərin namazda yaralandığını öyrəndikdə yenə gözyaşlarını saxlaya bilməmişdi. Yanındakılar:

“Niyə bu qədər ağlayırsan?” – deyə soruşduqda:

“Bu gün İslam zəiflədi” – deyə heyifsilənmişdi.

Sevinci, kədəri, gülməsi, ağlaması daim Allah üçün idi. Fikirləri, davranışları, sözlərinin hamısı İslami həssasiyyətin nəticəsi idi.

Bir xeyli yaşlanmış Ümmü Eymən رضي الله عنها Hz. Osmanın رضي الله عنه xəlifəliyinin ilk illərində rəhmətə getmişdir.

Haqq-Təaladan onun kimi həssas qəlbli, din yolunda mübariz bir şəxsiyyətə sahib iman fədaisi ola bilməyi və şəfaətinə nail olmağı diləyirik. Amin...

# İÇİNDƏKİLƏR

Ön Söz ........................................................ 7
Həzrət Həlimə (r.anhə)................................. 10
Həzrət Safiyyə (r.anhə) ................................ 21
Bibi Sultan (r.anhə) ...................................... 31
Əsma binti Əbu Bəkr (r.anhə) ...................... 36
Əsma Binti Umeys (r.anhə).......................... 47
Ümmü Fadl (r.anhə)..................................... 56
Ümmü Süleym (r.anhə)................................ 63
Fatimə Binti Əsəd (r.anhə)........................... 80
Ümmü Hani (r.anhə)..................................... 87
Fatimə binti Xəttab (r.anhə).......................... 96
Nəsibə Xatın (r.anhə).................................. 105
Həzrət Hansa (r.anhə).................................. 118
Əsma Binti Yezid (r.anhə) ........................... 123
Ümmü Eymən (r.anhə)................................. 130